www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 18-19 oktyabr 2014-cü il Şənbə № 257 (5966) Qiymətı 40 qəpik

**Xəbər**

## Xanım Qarabağ qazisi avtoqəzada öldü

yazısı səh.2-də

**Gündəm**

### ABŞ-la Azərbaycan arasında siyasi gərginlik yüksəlir - niyə?



Ərəstun Oruclu: "Səbəb Azərbaycanın getdikcə Kremlə yaxınlaşmasıdır"

yazısı səh.4-də

### 2015 Azərbaycanda dəyişikliklər ili olacaq?

yazısı səh.5-də

### Müsavatda yeni qurultay olacağı xəbəri yayıldı

yazısı səh.6-da

### Azərbaycan ən yeni tarixinin əsas hadisəsi - 18 oktyabr

yazısı səh.9-da

### Rəsmi İrəvan Qarabağa görə nonsens durumda

yazısı səh.11-də

### Azərbaycandan gedən 3 ton heroin məsələsində yeni gəlişmə

yazısı səh.13-də

### "London" taksiləri kütləvi şəkildə cərimələnir

yazısı səh.15-də

### Ermənilərdən prezidentlərin Paris görüşünə təxribat

yazısı səh.2-də

### Ucarda 3 maşın toqquşdu, xəsarət alanlar var

yazısı səh.14-də

### İŞİD Kobanidən çəkilir, İraqda hücuma keçir

yazısı səh.13-də

### Bakı Ağır Cinayətlər Məhkəməsindən şok qərar

yazısı səh.15-də

### Rəsul Quliyev əməliyyat olundu

yazısı səh.4-də

### ABŞ-ın vitse-prezidentinin oğlu narkoman çıxdı

yazısı səh.2-də

## Üç NİDA-çı və bir hüquq müdafiəçisi azadlıqda

# PREZİDENT ƏFV SƏRƏNCAMI VERDİ - TAM SİYAHI

Dövlət Müstəqilliyi Günü ilə bağlı verilən fərmanla əfv ərizəsi yazmış vicdan məhbusları da azad edildilər; hüquq müdafiəçiləri və deputatlar ölkə başçısının addımını alqışladılar, müxalifət isə əfvin cəmi 4 siyasi məhbusa şamil edilməsindən narazıdır...



yazısı səh.3-də

## Rza Hacıyevin adı hallanan qətl "ürək tutması" ilə ört-basdır olunur

"Mardan Palace"dəki ölüm işinə dair yeni təfərrüatlar; gənc xanım Arzu Zeynalovanın əvvəllər səhhətində problemlər olmasa da, ortaya saxta diaqnoz qoymaq istəyirlər

yazısı səh.6-da



### Ziyafət Əsgərovdan beynəlxalq təşkilatlara sərt reaksiyalar

yazısı səh.5-də



### Adil Qeybulla: "Arif Hacılıdan narazı deyiləm, o, kifayət qədər təcrübəli siyasətçidir"

yazısı səh.10-da



### Berti Foqts istefa verdi

yazısı səh.15-də



**Arif Hacılı xalqı təbrik etdi.**

**Müsavat Partiyasının başqanı Arif Hacılı 18 Oktyabr - Milli Müstəqillik günü münasibəti ilə Azərbaycan xalqını təbrik edib. Təbrikdə deyilir:**

**"Hörmətli həmvətənlər!**

**18 Oktyabr Milli Müstəqillik günü münasibəti ilə hamınızı təbrik edir, Sizə uzun ömür, can sağlığı, xoş güzəran və uğurlar arzulayıram.**

**18 oktyabr 1991-ci il Azərbaycanın Milli Məclisi tərəfindən "Müstəqlllik Haqqında Konstitusiya Aktı"nın qəbul olunması tariximizin şərəfli bir səhifəsidir. Bu, Azərbaycanın ərazi bütövlüyü və müstəqilliyi uğrunda apardığımız mübarizənin məntiqi yekunu idi. Ölkəmiz 1920-ci ildə itirdiyi müstəqilliyini əsrin sonunda yenidən bərpa etdi. Azərbaycanın müstəqil bir dövlət kimi BMT-yə üzv qəbul olunması ilə bağlı sənədlərdə müstəqilliyin əldə olunduğu gün kimi məhz bu tarix göstərilir. 18 oktyabr tarixi xeyli vaxt rəsmi bayram kimi qeyd edilərək həmin gün qeyri-iş günü olsa da, hakim rejim xalqımızın müqəddəs dəyərlərinə saygısızlıq göstərərək, əsas milli bayramımız olan 18 oktyabrı iş günü elan edib. Əksər siyasi qüvvələrin, ziyalıların, ictimaiyyətin davamlı etirazlarına baxmayaraq, bu yanlışlıq aradan qaldırılmır. Hətta nüfuzlu xarici ölkə prezidentləri məhz həmin gün xalqımızı Milli Müstəqillik günü münasibəti ilə təbrik etsələr də, təəssüflər olsun ki, hakimiyyət inadından dönmür. 18 Oktyabr - Milli Müstəqillik günü rəsmi bayram günü statusunun layiqincə bərpa edilməsi zəruridir.**

**Böyük fədakarlıqlar, əvəzsiz itkilər hesabına qazandığımız müstəqilliyin alternativi yoxdur. Bu səbəbdən biz müstəqilliyə real məzmun verməliyik. Bu isə yalnız işğal edilmiş torpaqlarımızın azad edilməsi, azad vətəndaş cəmiyyətinin yaranması, demokratik dövlət qurulması, siyasi və iqtisadi islahatların aparılması ilə mümkün ola bilər. Bizim başlıca hədəfimiz məhz bu istiqamətlərdə mübarizəmizi davam etdirməkdir. İlk növbədə hakimiyyət azad, ədalətli seçkilər yolu ilə formalaşdırılmalıdır. Yalnız xalqın iradəsi ilə formalaşan hakimiyyət ölkənin böhrandan çıxması üçün real addımlar atmağa qadirdir.**

**Hörmətli həmvətənlər!**

**Bir daha Sizi Azərbaycanın Milli Müstəqillik günü münasibəti ilə təbrik edir, hamınıza xoşbəxtlik, ailə səadəti, uğurlar və fəal vətəndaşlıq mövqeyi arzulayıram.**

**Tanrı Azərbaycanımızı qorusun!**

# ABŞ-ın vitse-prezidentinin oğlu narkoman çıxdı

## Oğul Bayden ordudan qovuldu




**Musavat com xəbər verir ki, Qərb mediasında yer alan xəbərlərə göə, ABŞ-ın vitse-prezidenti Cozef Baydenin oğlu narkoman olduğuna görə Hərbi Dəniz Qüvvələrindən qovulub. "itv news" bildirir ki, bu barədə qərar hələ bu ilin fevralında verilsə də, qərarın icrası indi həyata keçirilib. Vitse-prezidentin oğlunun qanı analiz olunarkən onun kokaindən asılılığı ortaya çıxıb.**

44 yaşlı Hanter Bayden haqqında məlumatın indiyə qədər gizli saxlanılmasının səbəbi kimi, onun "adi dənizçi" olması ilə izah olunub. Qeyd edilir ki, o, tibbi müayinələrin mənfi nəticəsi əldə olunduqdan sonra hərbi xidmətdən kənarlaşdırılıb.

Oğul Bayden bildirib ki, narkotikdən dolayı Hərbi Dəniz Qüvvələrindən vaxtından əvvəl uzaqlaşdırılmasına təəssüf edir. Hərbçi kimi karyerasının uğursuzluğa düçar olmasına görə isə özünü günahlandırır.

"Hərbi Dəniz Qüvvələrində xidmət etmək mənim üçün şərəf idi. Özümü müqəssir bilirəm və hərbi rəhbərliyin qərarına ehtiram göstəririəm", oğul Bayden deyib.

Yayılan məlumatlardan bəlli olur ki, ixtisasca hüquqşünas olan Hanter Bayden 2012-ci ildən Hərbi Dəniz Qüvvələrində xidmət etmək üçün sənədlərini müvafiq orqanlara təqdim edib. O, gələcəkdə Hərbi Dəniz Qüvvələrinin mətbuat xidmətində çalışmaq istəyirmiş.

❑ **Elbəyi HƏSƏNLİ**


"Elm" tədris mərkəzi

MAGIC LANGUAGES

➔ Ali məktəblər xarici dillər
➔ kompyuter kursları
➔ Magistratura - dövlət qulluğu - məntiq
➔ 1.C. mühasibat - anbar - bank işi
➔ Məktəbə qədər həftədə 5 dəfə
➔ Sürücülük kursları (1 aya 100 AZN)

**Ünvan:** 1. «Neftçilər» metrosu 40 mert. R.Rüstəmov-44
Tel:/Faks: (012) 421-10-46; 408-44-43;
Mob: (055) 660-60-95; (050)203-55-95
**Ünvan:** 2. «İnşaatçılar» metrosu 60 metr. «İran» klinikasının yanı
Tel:/Faks: (012) 434-88-28; 408-44-74;
Mob: (055) 660-07-05




# Emin Hüseynovu tutmaq üçün qardaşını tapmaq istəyirlər?

**Resportyorların Azadlığı və Təhlükəsizliyi (RATİ) sədri Emin Hüseynovdan hələ də xəbər yoxdur. Bir neçə gün öncə onun adından bir bəyanat yayılsa da, institut işçiləri E.Hüseynovdan heç bir xəbərləri olmadığını bildirib. Media kluarlarında dolaşan xəbərlərdə isə bildirilir ki, hakimiyyət indiki məqamda E.Hüseynovu tutmaq üçün fotoreportyor qardaşı Mehman Hüseynovu yaxalamaq istəyirlər. Xatırladaq ki, M.Hüseynov da qardaşı ilə eyni gündən itkindir.**

M.Hüseynov bu günlərdə facebookda bir status paylaşsa da, qısa zaman sonra onu silib. Həmkarları ehtiyat edir ki, bu status sayəsində hakimiyyət onun yerini müəyyənləşdirib, yaxalaya və bu üsulla hər iki qardaşı cəzalandıra bilər. İndiki halda E.Hüseynovun ölkədəki xarici ölkə səfirliklərindən birində saxlandığı, ən uyğun zamanda isə sərhəddən çıxarılacağı səslənən versiyalar sırasındadır.

❑ **NƏZRİN**

# "Yol hərəkəti haqqında" Qanun dəyişdi

**Milli Məclisin iclasında "Yol hərəkəti haqqında" Qanunda dəyişikliklər edilib. Avtosfer.az xəbər verir ki, Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli məlumat verib ki, bundan sonra nəqliyyat vasitəsinin icarəyə verilməsinə dair müqaviləni, yaxud nəqliyyat vasitəsindən istifadə edilməsi və ya ona dair sərəncam verilməsi hüquqları ilə bağlı etibarnaməni təsdiq edərkən müvafiq icra hakimiyyəti orqanına göndərilən məlumat sırasına fiziki şəxslər qeydiyyatda olduqları və yaşadıqları ünvanı, mobil telefon nömrəsini və olduğu halda elektron ünvanını və sürücülük vəsiqəsinin nömrəsini, hüquqi şəxslər isə nəqliyyat vasitəsinin idarə olunmasını həvalə etdikləri şəxsin müvafiq məlumatlarını da əlavə etməlidir.**

Digər dəyişikliyə görə, sürücü sürətdən və hərəkət şəraitindən asılı olaraq elə ara məsafəsi seçməlidir ki, qabaqda gedən nəqliyyat vasitəsi sürəti kəskin azaltdıqda və ya gözlənilmədən dayandıqda, onunla toqquşmanın qarşısını almaq mümkün olsun.

# Ermənilərdən prezidentlərin Paris görüşünə təxribat



**Erməni tərəfinin bu ilin yayında girov götürdüyü kəlbəcərli azərbaycanlılar Dilqəm Əsgərov (1960-cı il təvəllüdlü) və Şahbaz Quliyev (1968) üzərində qondarma məhkəmə prosesinin başlanacağı tarix bəlli olub. Musavat.com-un erməni informasiya qaynağına istinadən verdiyi xəbərə görə, "proses" oktyabrın 27-də start götürəcək.**

"Məhkəmə" Xankəndində "hakim" Anatoli Tadevosyanın sədrliyi ilə başlayacaq. Maraqlıdır ki, elə həmin gündə Parisdə Azərbaycan və Ermənistan prezidentləri arasında görüş olmalıdır.

Xatırladaq ki, soydaşlarımız "sərhədləri qanunsuz keçmək"də, qanunsuz silah-sursat gəzdirməkdə və qətldə günahlandırılır. Halbuki, onlar ermənilərin öldürdüyü Həsən Həsənov da daxil, Kəlbəcərdə öz doğmalarının qəbirlərini ziyarət eləməyə getmişdilər.

**Azərbaycan prezidenti İlham Əliyev Bakıda vasitəçilərlə son görüş zamanı onlardan azərbaycanlı girovların azad edilməsinə yardımçı olmağı istəmişdi.**



# QHT Şurasi ilə Milli Məclis arasında Memorandum imzalandı

**Prezident yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası ilə Milli Məclis arasında əməkdaşlıq haqqında Memorandum imzalanıb. Mərasimdə çıxış edən Milli Məclisin "Hüquq siyasəti və dövlət quruculuğu" komitəsinin sədri Əli Hüseynli deyib ki, spiker Oqtay Əsədovun təşəbbüsü ilə imzalanan bu Memorandum "İctimai iştirakçılıq haqqında" qanunun ruhuna uyğun olaraq parlamentin Şura və vətəndaş cəmiyyəti inistitutları ilə daha sıx münasibət qurmaq istəyinin ən bariz göstəricisidir. Millət vəkili Memorandumun Milli Məclislin QHT-lərlə münasibətlərini tənzimləyən sənəd olacağını bildirib.**

Şura sədri, millət vəkili Azay Quliyev Memorandumun imzalanmasının vətəndaş cəmiyyətinin həyatında yeni mərhələnin başlanğıcı olduğunu bildirərək bununla QHT-lərin qanun yaradıcılığı prosesinə daha yaxından cəlb ediləcəyini və Milli Məclisin vətəndaşlarla əlaqələrini qurulmasında mühüm rol oynayacağını deyib. Azay Quliyev vətəndaş cəmiyyətinin inkişaf etdirilməsi üçün prezident İlham Əliyevin səylərinin, sərəncamlarının öz səmərəsini verdiyini və bu gün QHT-lərin dövlətin əsas partnyoru olduğunu qeyd edib.

Şura sədri Azərbaycanın vətəndaş cəmiyyətinin inkişafı sahəsində əldə etdiyi uğurların hələ 2011-ci ildə Avropa İttifaqının təşkilatçılığı ilə keçirilən beynəlxalq toplantıda modern nümunə kimi göstərildiyini və bunun dövlətimiz və QHT-lər üçün böyük uğur olduğunu bildirib. Hazırda bütün ictimai əhəmiyyət kəsb edən məsələlərdə QHT-lərin əsas tərəfdaşı olduğunu bildirən Şura sədri bunu dövlət siyasətinin təntənəsi adlandırıb.

Millət vəkili Hadı Rəcəbli imzalanan memorandumun QHT sektorunun inkişafına mühüm töhfə verəcəyini deyib.

Milli QHT Forumunun prezidenti Rauf Zeyni Milli Məclislə Şura arasında imzalanan Memorandumun beynəlxalq təşkilatlara və sivil dünyaya Azərbaycan dövlətinin vətəndaş cəmiyyətinin inkişaf etdirilməsi ilə bağlı siyasi iradəsinin göstəricisi olduğunu qeyd edib.

Sonra Şura adından A.Quliyev, Milli Məclis adından Ə.Hüseynli Memorandumu imzalayıblar.




# Qarabağ əlili olan qadın avtoqəzada öldü

**Bakıda 1 nəfərin ölümü, 2 nəfərin xəsarət alması ilə nəticələnən ağır yol-nəqliyyat hadisəsi baş verib. Hadisə şahidinin APA-ya verdiyi xəbərə görə, Binəqədi rayonu ərazisində, Akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzinin qarşısında "Jeep" markalı və "NazLifan" markalı avtomobillər toqquşub.**

APA-nın məlumatına görə, həlak olan "Lifan" markalı avtomobilin sürücüsü, Qarabağ əlili, 1975-ci il təvəllüdlü Sevil Abbasovadır. Ona əlillər üçün nəzərdə tutulan avtomobil iki ay əvvəl bağışlanıbmış.

Həmin avtomobildəki iki sərnişin də xəsarət alıb. Onlardan biri axar.az saytının əməkdaşı Nahid Cəbrayıldır. O, yazıçı-publisist Pərviz Cəbrayılın qardaşıdır. Xəsarət alan N. Cəbrayıl Kliniki Tibbi Mərkəzə yerləşdirilib.

**İlkin ehtimala görə, qəzaya "JEEP" markalı avtomobilin sürücüsünün ötmə qaydalarını pozması səbəb olub.**

# İŞİD üzvü olan azərbaycanlı gənc edam edildi

**Suriyanın Kobani şəhərində kürd silahlıları "İslam dövləti" qruplaşmalarının sıralarında döyüşən azərbaycanlı gənci edam ediblər.**

APA-nın "France Press" agentliyinə istinadən verdiyi məlumata görə, Türkiyəyə sığınan suriyalı kürd qaçqınlardan Cüneyt Hemo adlı şəxs AFP-yə müsahibəsində Kobanidə 20 yaşlarında olan azərbaycanlının əsir götürülməsindən söz açıb.

O bildirib ki, Kobani şəhərinin qərb hissəsində gedən atışmalar zamanı ələ keçirilən döyüşçünü məscidə aparıblar: "Onunla danışaraq fikrini dəyişməyə çalışdılar. Amma o, dönə-dönə deyirdi ki, biz kafirik və onlar bizi doğru İslam yoluna gətirmək əmrini yerinə yetirirlər. İyirmi yaşlarında olardı. Ərəbcə danışırdı. Azərbaycandan bu torpaqları "kafirlərdən xilas etmək üçün" gəldiyini dedi. O, dayanmadan yalvarırdı ki, onu öldürək, çünki belə cənnətə gedəcək".

C.Hemonun sözlərinə görə, dindirilən zaman təmkinli davranan azərbaycanlı gənc ancaq öldürülməsini istəyib və mübahisə uzandıqda, kürd silahlıları onun başına atəş açaraq öldürüblər.

Sözügedən azərbaycanlı İŞİD üzvünün kimliyi barədə əlavə məlumat yoxdur.



# Yazarımız Tofiq Yaqubluya Azadlıq!



# Üç NİDA-çı və bir hüquq müdafiəçisi azadlıqda

**Oktyabrın 17-də dövlət başçısı İlham Əliyev Dövlət Müstəqilliyi Günü ilə bağlı əfv sərəncamı imzalayıb.**



# Prezident əfv sərəncamı verdi - tam siyahı

Dövlət Müstəqilliyi Günü ilə bağlı verilən fərmanla əfv ərizəsi yazmış vicdan məhbusları da azad edildilər; hüquq müdafiəçiləri və deputatlar ölkə başçısının addımını alqışladılar, müxalifət isə əfvin cəmi 4 siyasi məhbusa şamil edilməsindən narazıdır...

"Azərtac" həmin sərəncamı təqdim edib:

**I. Azadlıqdan məhrum etmə cəzasına məhkum edilmiş aşağıdakı şəxslər cəzanın çəkilməmiş hissəsindən azad edilsinlər:**

1. Abışov Elşən Məmməd oğlu
2. Abızərov Qismət Elşən oğlu
3. Adgözəlov Aqşin Xankişi oğlu
4. Ağayev Samir Eldar oğlu
5. Ağayev Tələt Asəf oğlu
6. Babakişiyev Elşən Faik oğlu
7. Babayev Elşən Cavanşir oğlu
8. Behbudov Aslan Bəhlul oğlu
9. Bektaş İlbeyi Yusuf İzzetin oğlu
10. Cabbarov Samir Akif oğlu
11. Cahangirov Cahangir Elgün oğlu
12. Daşdəmirov Aslan Səfər oğlu
13. Əhədov Adil Rasim oğlu
14. Əhmədov Bayram Ağababa oğlu
15. Əhmədov Firdovsi Paşa oğlu
16. Əhmədov Tərlan Nizami oğlu
17. Əliyev Rəşad Vüqar oğlu
18. Əmrahov Heydər Nəsib oğlu
19. Əsədov Əlikram Nuğay oğlu
20. Əzimov Azər Zakir oğlu
21. Əzimov Pərviz Əzim oğlu
22. Əzizov Tural Musabeg oğlu
23. Fərzəliyev Rəşid Rəsul oğlu
24. Həsənov Çingiz Müzəffər oğlu
25. Həsənov Elvin Sabir oğlu
26. Həsənov Samir Sabir oğlu
27. Hümbətov Ağalar Ağasəf oğlu
28. Hüseynli Həsən Yəhya oğlu
29. Hüseynov Dadaş Əvəz oğlu
30. Hüseynov Pənah Valeh oğlu
31. İbrahimov Elməddin Təyyar oğlu
32. İbrəhimov Mirnizam Vəli oğlu
33. İmrahi Tohid Əli oğlu
34. İsayev Mübariz Baba oğlu
35. Kazımov Afiq Qara oğlu
36. Kazımov Rüfət Məhər oğlu
37. Kərimov Azay Əli oğlu
38. Qanbarçayev Bilal Abdulla oğlu
39. Qasımov Həmdulla Mügərrib oğlu
40. Qəmbərov Eşqin Ələddin oğlu
41. Quliyev Bəxtiyar Səməndər oğlu
42. Quliyev Xalid Əjdər oğlu
43. Quliyev Səbuhi Natiq oğlu
44. Qurbanov Şahin Hacımirzə oğlu
45. Mahmudova Səbinə Nəbi qızı
46. Məcidov Təbriz Etibar oğlu
47. Məcidov Ülfət Cənnət oğlu
48. Məhəmmədzadə Səid Müştəba oğlu
49. Məmmədov Elvin Hidayət oğlu
50. Məmmədov Etibar Arif oğlu
51. Məmmədov Natiq Tofiq oğlu
52. Məmmədov Nəzir Tapdıq oğlu
53. Məmmədov Rahim Vasif oğlu
54. Məmmədova Lalə Rəşid qızı
55. Muradi Muxtar Akif oğlu
56. Musayev Faiq Musaxan oğlu
57. Musayev Yusif Qafur oğlu
58. Mürsəlli Elsevər Nəsrəddin oğlu
59. Naibov Cəlal Camal oğlu
60. Namazov Emil Nizami oğlu
61. Nəsirullayev İlqar Həsənqulu oğlu
62. Novruzlu Şahin İbrahim oğlu
63. Rəfiyev Famil İdris oğlu
64. Rəhimli Sənan İqbal oğlu
65. Rzayev Əbülfəz Zahid oğlu
66. Sadıqov Savalan Fərhad oğlu
67. Salahzadə Zaməddin Zahir oğlu
68. Sanılı Eldar Adil oğlu
69. Süleymanov Tural Hacı oğlu
70. Şərbətov Şəhnam Zərbəli oğlu
71. Şirəliyev Hüseyn Əlgülşad oğlu
72. Tanrıverdiyev İbrahim Hüseyn oğlu
73. Teymurlu Elşən Elşad oğlu
74. Vəkilov Çingiz Bəhlul oğlu
75. Vəliyev Namiq Qadir oğlu
76. Vəliyev Vüqar Kamil oğlu
77. Vəlizadə Pehman Xanlar oğlu
78. Yunusov Musa Yunus oğlu
79. Zada Amir Sher
80. Zeynalov Mərahim Abdulla oğlu

**II. Sumqayıt Apelyasiya məhkəməsinin 2013-cü il 4 sentyabr tarixli hökmü ilə azadlıqdan məhrum etmə cəzasına şərti olaraq məhkum edilmiş, Bayramov Vahid Saleh oğlu cəzadan azad edilsin.**

**III. İslah işləri cəzasına məhkum edilmiş aşağıdakı şəxslər cəzanın çəkilməmiş hissəsindən azad edilsinlər:**

1. Quliyev Kamil Bayram oğlu
2. Qurbanov Elnur Allahverdi oğlu

IV. Gəncə şəhəri Kəpəz rayon məhkəməsinin 2012-ci il 31 yanvar tarixli hökmü ilə cərimə cəzasına məhkum edilmiş, Əhmədova Turanə Qalib qızı cəzadan azad edilsin.

Əfv fərmanı bütövlükdə 84 məhkumu əhatə edib. Onlardan dördü siyasi məhbusdur. Həbsdəki NİDA-çılar bir müddət əvvəl əfv olunmaq üçün dövlət başçısına müraciət etsələr də, onlardan üçü əfv siyahısına düşüb. Adları siyasi məhbus siyahısında olan NİDA üzvləri - Şahin Novruzlu, Bəxtiyar Quliyev, Elsevər Mürsəlli və hüquq müdafiəçisi Həsən Hüseynli azadlığa buraxılıblar.

**Hüquq müdafiəçiləri və deputatlar sonuncu əfv sərəncamını müsbət qiymətləndirsələr də, müxalifət sərəncamdan narazı qalıb.**

**Hüquq müdafiəçisi Səidə Qocamanlı** musavat.com-a açıqlamasında bildirib ki, sərəncamı pozitiv qiymətləndirir: "Hüquq Müdafiəçilərinin Monitorinq Mərkəzinin siyahısından dörd siyasi məhbus əfv olunub. Sərəncam ümumilikdə 84 nəfərə şamil edilib. Həmişəki kimi çox pozitiv, çox müsbət qiymətləndiririk. Bir nəfərin də belə azadlığa buraxılması bizim üçün çox sevindirici haldır. Əfvə düşən 84 nəfərin hamısına, ailələrinə gözaydınlığı verirəm. Bizim siyahımızdan da dörd nəfər əfvə düşüb. Bu, ikiqat sevincdir, müsbət bir haldır. Düşünürəm ki, siyasi məhbuslarla bağlı işçi qrupu tez bir zamanda yaradılsa, digərlərinin də taleyini tez həll edə bilərik. Ümid edirəm ki, AŞPA-nın yanvar sessiyasına biz o siyahılarsız gedəcəyik".

Hüquq müdafiəçisi Novella Cəfəroğlu da qeyd edib ki, bütün əfv fərmanlarını dəstəkləmək lazımdır: "Biz də dəstəkləyirik. Yaxşıdır, müsbətdir, insanlar ailələrinə qovuşur. Ümidvarıq ki, Avropa Şurası Parlament Assambleyasının qış sessiyasına siyasi məhbussuz gedəcəyik".

Hüquq müdafiəçisi və deputat Çingiz Qənizadə də əfv sərəncamını müsbət addım hesab edir: "Bu cür humanist addımı necə dəyərləndirmək olar? - əlbəttə ki, çox müsbət. Təkcə siyasi məhbusların buraxılmasından söhbət getmir. Hər bir Azərbaycan vətəndaşı önəmlidir. Bu addım minlərlə insana sevinc bəxş edir, təqdirəlayiq hesab edirəm, eşq olsun deyirəm, prezidentə təşəkkür edirəm. Ümid edirəm ki, bu cür sərəncamlar nəticəsində mübahisəli insanlar, beynəlxalq təşkilatların siyahılarındakı insanlar da zaman-zaman ailələrinə qovuşacaq".

**Deputat Zahid Oruc** isə qeyd edib ki, bu fərman ilk növbədə müstəqilliyə münasibətdir: "Ümumən hesab edirəm ki, ilk növbədə dövlət müstəqilliyinə münasibətdir, ona dəyər verməkdir. Bu günün önəmini Azərbaycan cəmiyyətinə çatdırmaqdır. Bayram günü, təqvimdə önəm daşıyan hadisələr bu cür addımlarla əlamətdar olur, insanlar üçün daha əhəmiyyətli olur. Hesab etmirəm ki, bu, təkcə 84 nəfər üçündür. Bu, cəmiyyətə verilən bir mesajdır. Azadlığına qovuşan hər kəs eyni dərəcədə bu millətin övladlarıdır. Qoy onlar dövlətin atdığı bu mənəvi addım hesabına islah olunsunlar və bir daha cinayət törətməsinlər".

**Müsavat Partiyası funksioneri Gülağa Aslanlı** isə bildirib ki, 84 nəfərlik əfv siyahısına cəmi 4 nəfər siyasi məhbusun salınması, həmçinin siyahıda bir nəfər də olsun Müsavat üzvünün olmaması hakimiyyətin qərəzindən xəbər verir. "Siyahıda müsavatçı siyasi məhbuslardan heç kimin adının olmaması bir daha hakimiyyətin Müsavata olan saymamazlığını və həmçinin qərəzli münasibətini göstərir. Hakimiyyət bununla Müsavatı özünə rəqib hesab etməsini bir daha büruzə verir və ortaya qoyur. Onlarla siyasi məhbus yenə də siyahıdan kənarda qalıb. Bu əfv fərmanı sadəcə olaraq beynəlxalq aləmə sadəcə hakimiyyətin əfv verdiyini, bu proseduru həyata keçirdiyini göstərmək üçündür. Gözləyirlər ki, bununla beynəlxalq təşkilatlar da ölkədə siyasi islahatların getdiyini bildirəcək, bunu irəliyə doğru bir addım hesab edəcək və sair".

❑ **Röya RƏFİYEVA**

# Sabitliyin qarantı olan diktatorlar



**Azər RƏŞİDOĞLU**

**Düz 23 il öncə, 18 oktyabr 1991-ci ildə Azərbaycan müstəqilliyini elan etdi. Bununla da milyonlarla insanın məhvinə səbəb olan bir rejim çökdü. Lakin mürtəce sistemin yaraları tezliklə sağalmadı. Totalitar rejimli SSRİ-nin çökməsindən sonra insanların demokratiyaya hazır olmaması mənəvi deqradasiyaya yol açdı. Nəticədə əcaib və gəmirici bir idarəçilik sistemi yarandı. Hətta çox ağır və sərt rejimə baxmayaraq, demokratiya uğrunda uzun, əzablı bir mübarizə başladı. İlk illər müqavimət hərəkatı çox sürətlə gedirdi, lakin sonralar demokratik inkişaf yolunda ciddi böhran üzə çıxdı. Seçki azadlığı korrupsiyaya uğramış oliqarxların savaşına çevrildi. "İdarəolunan demokratiya"nın özülləri məhz belə qoyuldu.**

Cəmiyyətdə belə bir illüziya yarandı ki, demokratik cəmiyyətə yalan üzərində də gəlmək mümkündür və islahatlar diktator metodları ilə də həyata keçirilə bilər.

Beləliklə, cəmiyyətin təkamülündə kəskin təlatümlər əmələ gəldi. İnsan haqlarının qorunmasına çalışan cəmiyyət artıq hələ əldə etmədiyi demokratiyadan üz döndərməyə başladı.

Bəlkə də bunun səbəbidir ki, bu gün Azərbaycanda sabitliyi qoruyub saxlamaq mümkün olur. Lakin diktaturalardan azad olan Yaxın Şərq ölkələri hələ də xaosdan əzab çəkir. Belə təəssürat yaranır ki, diktatorlar sabitliyin zəmanətçisi idilər.

Uzun illər ABŞ-ın himayə etdiyi Səddam Hüseyn, Müəmmar Qəzzafi, Bəşər Əsəd, Hüsnü Mübarək və digərlərinin devrilməsi ilə bölgədəki sabitlik də yoxa çıxdı.

Bölgədə marginal və radikal dini qruplar antiamerika əhval ruhiyyəsindən bəhrələnmək istədilər. Lakin daha dərin təhlillər onu göstərir ki, sabitliyin pozulmasının əsas səbəbi despotların hakimiyyətdən getməsi ilə bağlı deyil. Söhbət diktatorların sayəsində tam formalaşmayan demokratik institutların zəifliyindən də getmir.

Bu gün Yaxın Şərqdə baş verənlər Qərb siyasi dairələrində, diplomatiyasında və strategiyasında baş verən transformasiyalardan xəbər verir. Baş verənlər Zbiqnev Bzejinski, Cin Şarp, Stiven Manna məxsus olan "Xaos nəzəriyyəsi və strateji fikir" strategiyasının bariz nümunəsidir. Amerikalıların bu diplomatiyası ən müxtəlif vaxtlarda ən müxtəlif ölkələrdə uğurla sınaqdan keçirilib və lazımı anda biri-birinə zidd olan siyasi qüvvələri birləşdirən amilə çevrilə bilib.

Bütün proseslər bölgədə stabilliyin pozulmasına, xalq etirazlarının önündə olan insanlara inamın azalmasına, kriminal elementlərin vətəndaşlar arasında panika yaranmasına, hərbi və digər çevrilişlər yolu ilə tez-tez təkrarlanan hakimiyyət dəyişikliyinə nail olmağa yönəlib. Digər tərəfdən, belə hadisələr vətəndaşlar arasında qorxu xofu yaratmaqla da sonuclanır.

Görünən budur ki, söhbət diktatorların yaratdığı sabitlikdən deyil, modern Qərb siyasətinin postmodern kursla əvəzlənməsindən gedir. Uzun müddətli vətəndaş qarşıdurması, hakimiyyət çevrilişlərindən bezən cəmiyyətin "marionet qüvvələrin" hakimiyyətə gəlməsini gözləməkdən başqa çarəsi qalmır. Toplumdan uzaq düşən hakimiyyətlərin mövcud olduğu ölkələrdə idarə olunan xaos Vaşinqtona maraqlarını həyata keçirilməsinə xidmət edir.

Sadə insanlar belə bir sual üzərində baş sındırır - nəyə görə diktatorların zamanında yaşayış həddi rifaha daha yaxın olur?

Uzun illər boyu Yaxın Şərq ölkələrində belə bir fikir formalaşdırılıb ki, "dahi öndər", "dəmir əl" olmasa daxili çəkişmələr baş alıb gedər.

Diktatorlarən sabitliyi bölgə təbii sərvətlərin talan olunması, narkotika, silah və qadın alverinin hesabına əldə olunan gəlirlər hesabına həyata keçirilirdi. Bu "sərvətlərdən" ölkə əhalisi bəhrələnmirdi, sadə insana süfrənin artığı çatırdı. Bu diktatorların bazarıdır, onların "şəxsi mülkiyyətidir".

İndi diktatorlar yıxılır. Lakin Yaxın Şərq demokratiyaya qovuşa bilmir. Yaxın Şərqdə az qala ümummilli bəlaya çevrilən tənbəllik və düşüncələrə hakim kəsilən mühafizəkarlıq normal cəmiyyət yaratmağa imkan vermir.

Yaxın Şərq ölkələrinin korrupsiyaya uğramış liderlərinin başı tək öz xalqlarını qarət etməyə qarışmayıb, onlar həm də bir-birləri ilə çəkişməklə məşğuldurlar. Odur ki, bu bölgə həmişə "barıt çəlləyini" xatırladıb. Belə bir bölgədə demokratiyanın qələbəsi də rahat başa gəlmir.

**Dünyada diktatorlar yıxılır. Nəticə daha acınacaqlı olur və sabitlik pozulur. Xarabalıqlar üzərində demokratiya yaratmaq isə son dərəcə çətin olur...**

YENİ MÜSAVAT
N 257 (5966) 18 oktyabr 2014

# Əli Həsənov İran jurnalistləri ilə nələri müzakirə edib?


Əli Həsənov

**Prezident Administrasiyasının İctimai-siyasi məsələlər şöbəsinin müdiri Əli Həsənov ötən gün Bakıda səfərdə olan iranlı jurnalistləri qəbul edib.**

Bu barədə "Trend" İran İslam Respublikasının Azərbaycandakı səfirliyinə istinadən məlumat verir.

**Ə.Həsənov iranlı jurnalistlərlə görüşdə İslam ölkələri jurnalistləri arasında əməkdaşlıq platformasının yaradılmasının zəruriliyini vurğulayıb:** "Azərbaycan jurnalistləri belə formatlar çərçivəsində Rusiya, Türkiyə və Orta Asiya ölkələrindən olan həmkarları ilə əməkdaşlıq edirlər. Azərbaycan mediası qonşu İran mediası ilə də müəyyən formatda əməkdaşlıq edə bilər və bu, ikitərəfli əlaqələrin inkişafına müsbət təsir göstərərdi".

İran səfiri Möhsün Pakayinin də qatıldığı görüşdə Ə.Həsənov qeyd edib ki, ilk növbədə, Azərbaycan və İran KİV-ləri arasında əməkdaşlıq mərkəzi yaradaraq əlaqələri daha da möhkəmləndirmək, daha sonra digər müsəlman ölkələrinin KİV-lərini bu prosesə cəlb etmək olar. O, məsələni gələcəkdə İran səfiri ilə müzakirə edəcəyini söyləyib.

PA rəsmisi bildirib ki, KİV-lərin xalqın mədəniyyət və düşüncə tərzinin formalaşmasında rolu böyükdür. O, qeyd edib ki, Azərbaycan tərəfi İslam ölkələri mediasını əlaqələndirəcək əməkdaşlıq platformasının, xüsusilə Azərbaycan və İran KİV-ləri arasında belə bir qurumun yaradılmasını təqdir edir və İranda da aidiyyəti qurumların bu məsələyə diqqətlə yanaşacağına ümid bəsləyir.

Ə.Həsənov bəzi Azərbaycan və İran KİV-lərinin hər iki ölkə haqqında mənfi məlumatlar yaymağa çalışmasını tənqid edərək deyib ki, əgər KİV-lər müsbət amilləri daha çox önə çıxarsalar, şübhəsiz, bu, ikitərəfli əlaqələrin inkişafına da təsir edəcək.

**Xatırladaq ki, İranın müxtəlif media orqanlarını təmsil edən altı nəfərlik heyət oktyabrın 14-dən Bakıda səfərdədir.**

# Rəsul Quliyev əməliyyat olunub

## Yaxınları onun Tiflisə yaxın zamanlarda gəlməsini mümkünsüz sayır


Rəsul Quliyev

**Keçmiş spiker Rəsul Quliyev 2015-ci il parlament seçkiləri öncəsi Azərbaycana qayıdacaq. Publika.az-a özəl mənbədən daxil olan məlumata görə, R. Quliyev uzun müddətdir Azərbaycana dönməyi və siyasi həyata yenidən başlamağı düşünür.**

"Bunun üçün ABŞ-da müxtəlif dairələrdən dəstək əldə etməyə çalışır. İndiyə qədər ABŞ siyasi dairələri onun bu istəyini o qədər də ciddiyə almırdılar, lakin gələn il parlament seçkiləri öncəsi onun Bakıya gəlməsi və ölkədə siyasi müxalifətin güclənməsinə dəstək verməsi gözlənilir", - deyə mənbə bildirib.

Mənbə onu da qeyd edib ki, R.Quliyev Bakıya gələ bilməsə, Azərbaycana sərhəd olan ölkələrin birində məskunlaşacaq və beləliklə, ölkədəki proseslərə daha yaxın olmağı düşünür.

Bu ölkə Rusiya deyil, çünki son proseslərdən sonra ABŞ-dan Rusiyaya gəlib burda Azərbaycandakı siyasi proseslərə qoşulmaq çətindir. Məlumata görə, R.Quliyev optimal variant kimi Gürcüstanı düşünür. Hətta bunun üçün müəyyən fəaliyyətə başladığı da deyilir.

Qeyd edək ki, bir müddət öncə R.Quliyev Publika.az-a müsahibəsində Azərbaycana qayıtmaq məsələsinə toxunarkən qonşu ölkələrin birində yerləşməyi istisna etməmişdi.

"Türkiyə, Rusiya və Gürcüstan variantları var, amma bu ölkələrin hökumətləri məni bu ölkəyə buraxmır. Şərait elə gətirib ki, həmin bu 3 sərhəd ölkədə Avropa dəyərlərini qəbul edən hökumətlər formalaşmayana qədər oralara gəlmək probleme çevriləcək. İranda isə proqressiv qüvvələr nəhayət islam fundamentalizmini üstələsələr mənim yaxın ölkələrə gəlmək şansım reallaşacaq", - deyə eks-spiker bildirmişdi.

**R.Quliyevin yaxınları isə müsavat.com-a bildiriblər ki, sabiq spikerin Tiflisə gəlib-gəlməyəcəyi haqda onlarda dəqiq məlumat yoxdur:** "Amma onun Tiflisə yaxın vaxtlarda gəlməsi inandırıcı deyil. Çünki Rəsul Quliyev bu yaxınlarda ağır cərrahi əməliyyat keçirib və bu üzdən uzaq yaxın müddətdə uzaq səfərlərə çıxması mümkünsüzdür".

❑ T.ƏHMƏDLİ

# ABŞ-la Azərbaycan arasında siyasi gərginlik yüksəlir - niyə?

## Ziyafət Əsgərov: "Amerikanın özündə irqçilik zəminində çox böyük problemlər var"

**Amerika Birləşmiş Ştatları çərşənbə günü yaydığı bəyanatında Azərbaycan hakimiyyətinin Leyla və Arif Yunusları həbsdən azad edilməsini tələb edib. Dövlət Departamentinin sözçüsü Jen Psakinin çərşənbə günü yaydığı bəyanatda ABŞ-ın hüquq müdafiəçisi Leyla Yunusun "pisləşən səhhətinə baxmayaraq" məhkəməyə çıxarılmadan həbsdə saxlanılmağa davam etməsinə görə "ciddi narahatlıq keçir"diyini bəyan edib. Dövlət Departamentinin təmsilçisi ABŞ-ın Leyla Yunusun fiziki təhlükəsizliyi barədə xüsusi narahatlıq keçirdiyini də ifadə edib.**

**Dövlət Departamentinin bəyanatında həmçinin Leyla Yunusun həyat yoldaşı Arif Yunusovun da səhhətinin pisləşdiyi qeyd olunur.** "Biz Azərbaycan hakimiyyətini humanitar əsaslarla Leyla Yunusun müstəqil tibbi müayinədən keçirilməsinə ... və daha yaxşı şəraitlə təmin olunmasına çağırırıq". ABŞ Azərbaycanı qanunun aliliyinə hörmət etməyə və "fundamental azadlıqlarından istifadə etdiklərinə görə" həbs olunan digər şəxsləri azadlığa buraxmağa çağırıb.

Amerika Birləşmiş Ştatlarının Yunuslarla bağlı Azərbaycan hakimiyyətinin ünvanına ittiham dolu bəyanatı Bakının diplomatik mühitin ən sərt tədbirlərindən birinə vadar edib. Rəsmi Bakı Vaşinqtona "daxili işlərimizə qarışmayın" havasında nota verib.

"Amerika Birləşmiş Ştatlarının davamlı şəkildə Azərbaycanın daxili işlərinə qarışmaq cəhdləri tamamilə qəbuledilməzdir".

Bu sözləri isə Azərbaycan Xarici İşlər Nazirliyinin (XİN) mətbuat xidmətinin rəhbəri vəzifəsini icra edən Hikmət Hacıyev "Trend" Agentliyinə açıqlamasında deyib.

H.Hacıyevin sözlərinə görə, Leyla və Arif Yunusların işinə baxılarkən qanunun aliliyi və məhkəmə-hüquq sisteminin müstəqilliyi tam təmin olunub: "ABŞ-ın bu kimi əsassız müdaxiləsi qanunun aliliyinin və ABŞ-ın öz üzərinə götürdüyü öhdəliklərinin kobud şəkildə pozulmasıdır. İnsan hüquqlarının xarici siyasət aləti edilərək, siyasi təzyiq göstərmək məqsədilə istifadə olunması cəhdləri artıq çoxdan özünü nüfuzdan salıb. İnsan hüquqlarına siyasi mülahizələr, seçimli və ikili standartlar baxımından yanaşmaq yolverilməzdir".

XİN rəsmisi ABŞ-ın insan haqları dedikdə yalnız Qərb institutları ilə əməkdaşlıq edən şəxsləri nəzərdə tutmasına da təpki verib. Onun sözlərinə görə, Azərbaycanda ən çox haqqı tapdanan vətəndaşlar Ermənistanın işğalı nəticəsində yurdundan didərgin düşən insanlardır: "İnsan hüquqlarının "carçısı" qismində çıxış edən dövlətlərin və konkret bu halda ABŞ-ın Ermənistanın işğalı nəticəsində ən ibtidai hüquqlardan belə məhrum olmuş azərbaycanlı məcburi köçkün və qaçqınların hüquqlarına və Azərbaycanın işğal olunmuş ərazilərində törədilmiş qanlı etnik təmizləmə hallarına diqqətlə yanaşması daha təqdirəlayiq olardı".

**Bu aksent Milli Məclisin 17 oktyabrda keçirilən iclasında da davam etdirilib. Hakimiyyətə bağlı olan deputatlar Avropa Birliyinin və Amerikanın siyasi dustaqlarla bağlı açıqlamalarına kəskin reaksiyalar veriblər.**


**Ərəstun Oruclu:** "Səbəb Azərbaycanın getdikcə Kremlə yaxınlaşmasıdır"

Yada salaq ki, Azərbaycanla ABŞ arasında diplomatik skandal, qarşılıqlı nota verilməsi ilə bağlı praktika əvvəllər də olub. 2010-cu ilin sentyabrında Dağlıq Qarabağ rejiminin "parlament rəhbəri" Aşot Qulyan ABŞ Konqresində görüşlər keçirərkən o zaman ABŞ-ın Azərbaycandakı müvəqqəti işlər vəkili postunu tutan Adam Sterlinq Xarici İşlər Nazirliyinə dəvət edilmiş, ona Azərbaycan tərəfin notası təqdim olunmuşdu.

O zaman diplomatik səviyyədə narazılığın davam etməsi üçün ABŞ Dövlət Departamenti Azərbaycanın ABŞ-dakı səfirliyinə bildirmişdi ki, Aşot Qulyanın səfəri rəsmi xarakter daşımayıb, o, Ermənistan vətəndaşı olaraq ABŞ-a şəxsi səfər edib.

2009-cu ildə isə Azərbaycan ABŞ-ın Dağlıq Qarabağa 8 milyon dollar yardım ayırmasına etiraz olaraq nota vermişdi.

ABŞ-Azərbaycan münasibətlərində yaranan gərginliyi "Yeni Müsavat"a şərh edən **"Şərq-Qərb" Araşdırmalar Mərkəzinin direktoru Ərəstun Oruclu** deyir ki, məsuliyyət Azərbaycan tərəfin üzərindədir: "Dövlət Departamenti həmin bəyanatda öncə Azərbaycanın Avropa Şurası, Avropa Birliyi, ATƏT və digər qurumlar qarşısında üzərinə götürdüyü öhdəlikləri yada salır. Azərbaycan dövləti belə xoşagəlməz durumla qarşılaşmamaq üçün özü öz vətəndaşlarının hüquqlarına saygı ilə yanaşmalıdır, cəmiyyətin fəal üzvlərini şərləyib tutmamalıdır. İkincisi də, beynəlxalq birliyin insan haqlarına saygı ilə bağlı çağırışlarına bu cür kəskin reaksiya verilməsinə ehtiyac yoxdur. İndiyə qədər Azərbaycanda dəfələrlə siyasi, ictimai fəallar həbs edilib. Ancaq ABŞ heç zaman həmin həbslərə bu qədər sərt reaksiya verməyib. Vaşinqton indiyə qədər heç vaxt hansısa məhbusun azad edilməsi ilə bağlı mövqe açıqlayanda "tələb edirik" ifadəsini işlətməyib. Bakını qıcıqlandıran əsas məqam da görünür ki məhz bu ifadədir".

**Ərəstun Oruclu deyir ki, ABŞ-Azərbaycan münasibətlərinin son bir il yarımdakı dinamikasına baxdıqda bu cür qarşılıqlı ittihamların olacağı gözlənilən idi:** "Bu, məntiqi bir mərhələdir. ABŞ-Azərbaycan münasibətləri xeyli dərəcədə korlanıb. Mən əsla, nə ABŞ-a, nə də hansısa tərəfə vəkillik etmək istəmirəm, ancaq hər şey qarşılıqlıdır. Azərbaycan rəsmilərinin ritorikasında ABŞ-a qarşı son dərəcədə sərt ifadələr var. Guya ABŞ Azərbaycanı dağıtmaq istəyir, qarışdırmaq istəyir, inqilab hazırlayır. Bu ittihamların heç birinə ABŞ reaksiya verməyib. Ona görə də indi Bakının Vaşinqtona nota verilməsini anlamaq bir qədər çətindir. ABŞ-ın neçə vətəndaşı az qala dövlət çevrilişinə cəhdə ittiham edilərək Azərbaycandan qovulub, ABŞ-a bağlı qurumların işi ilə bağlı bir neçə cinayət işi qaldırılıb. Gec-tez Vaşinqton buna cavab verməli idi. Mən əminəm ki, Vaşinqtonun sərt ritorikası davam edəcək. Çünki Azərbaycanın addımları adekvat deyil".

**Ərəstun Oruclunun fikrincə, ABŞ-ı Azərbaycanda incik salan əsas məsələ rəsmi Bakının sürətlə Rusiyaya yaxınlaşmaq siyasəti yürütməsidir:** "Bir müddət öncə Elmar Məmmədyarovun ABŞ dövlət katibinin müavini Viktoriya Nulandla görüşü olmuşdu. Həmin görüşdə ABŞ Dövlət Katibinin demokratiya, insan haqları və əmək məsələləri üzrə müşaviri Tomas Melianın Azərbaycana səfəri ilə bağlı müzakirələr aparılmışdı. Ancaq Azərbaycan bu səfəri təşkil etmədi. Həmin müddətdən bu yana Rusiyanın xeyli sayda rəsmi şəxsi Bakıya səfər edib. Rusiya müdafiə naziri, Moskva meri, Dumanın deputatları Azərbaycana gəlib, ən yüksək səviyyədə qəbul edilib. Bu faktlar Azərbaycanın öz xarici siyasət kursunu Kremlə tərəf meylləndirdiyini sübut edir. İndiyə qədər Vaşinqton Azərbaycan rəsmilərinin ərköyün davranışlarına susmasının tək bir səbəbi Azərbaycanı tərəfdaş görmək istəyi idi. Əgər bu tərəfdaşlıq baş tutmursa, Azərbaycan da qarşı düşərgəyə meyllənirsə, təbii indiyə qədər Qərbin tutduğu yumşaq mövqe dəyişəcək, sərtləşəcək. Qərb insan haqları ilə bağlı məsələləri gündəmə gətirərkən Azərbaycanın onu Qarabağ qaçqınlarının pozulan hüquqlarının müdafiəsinə çağırmasına gəlincə, bu son dərəcə qeyri-ciddi görünür. Ortaya sual çıxır - niyə Azərbaycan bu tələbi Qarabağın işğalında birbaşa əli olan Rusiyaya qarşı səsləndirmir?"

**Ərəstun Oruclunun fikrincə, ABŞ-Azərbaycan münasibətlərində gərginlik yüksələn xətlə davam edəcək:** "Obrazlı desək, ABŞ Azərbaycanın 1 il yarımdır Vaşinqtona yönəltdiyi artelleriya atəşinə cavab verməkdədir".

Hakimiyyət isə fərqli fikirdədir. **Milli Məclisin sədr müavini Ziyafət Əsgərov** APA-ya deyib: "Bir Leyla Yunusa görə Azərbaycan heç vaxt təklənə bilməz. Doğrudanmı Amerika Birləşmiş Ştatlarının problemlari qurtarıb, indi Leyla Yunusla maraqlanır?! Məgər onların özündə problem yoxdur?!"

**Onun sözlərinə görə, Amerikada irqçilik zəminində çox böyük problemlər var:** "Azərbaycanın daxili işlərinə qarışmaq lazım deyil. Hansısa erməni lobbisinin, hansısa qüvvələrin təsiri altında Azərbaycanla bağlı qərəzli bəyanatlar verilirsə, buna təəssüf etmək lazımdır".

**Z.Əsgərov deyib ki, Azərbaycana qarşı kampaniyalar çoxdan başlayıb, beynəlxalq aləmin Azərbaycana qarşı təhdidlərini rəsmi Bakı çox gözəl başa düşür:** "Bəzi qüvvələr Azərbaycanın onlara hesabat verməsini istəyir".

❑ Aygün MURADXANLI

# Birinci vitse-spikerdən beynəlxalq təpkilərə sərt reaksiyalar

## “İstəyirlər ki, Azərbaycan onlara hesabat versin”

**Milli Məclisin 1-ci vitse-spikeri, Təhlükəsizlik və Müdafiə Komitəsinin sədri Ziyafət Əsgərov parlamentdə jurnalistlərin suallarına cavab verib. “Yeni Müsavat”ın əməkdaşının da bir sıra aktual məsələlərlə bağlı ünvanladığı suallara vitse-spikerin ilginc cavabları oldu. Z.Əsgərov öncə Bakı ilə Moskva arasında intensivləşən əlaqələrdən danışdı və Azərbaycanın Gömrük İttifaqına münasibətinə aydınlıq gətirdi. Həmçinin 7 rayonun qaytarılmasının müqabilində Azərbaycanın bu təşkilata üzv ola biləcəyi haqda informasiyalara münasibətini açıqladı:**

- Azərbaycanın Rusiya ilə həm iqtisadi, həm də humanitar sahədə yaxşı münasibətləri var. Bu münasibətlər təkcə Rusiya ilə belə deyil. Biz ikitərəfli münasibətlərə həmişə üstünlük vermişik. Azərbaycanın Avropa İttifaqı, Avropa Parlamenti ilə də yaxşı münasibətləri var. Biz fərq qoymuruq ki, kimləsə daha üstün münasibətlər quraq. Azərbaycan inkişafın elə mərhələsindədir ki, bir çox dövlətlərin, o cümlədən Rusiyanın ölkəmizə marağı artıb. Sözsüz ki, xarici siyasətimizi milli maraqlar üzərində qururuq. Azərbaycan ikitərəfli münasibətlərə üstünlük verir. O, Azərbaycanın Avrasiya İttifaqına üzv olacağı təqdirdə Dağlıq Qarabağ münaqişəsinin həll olunması ilə bağlı məsələlərə də münasibət bildirib. Biz Qarabağa görə hansısa ittifaqa üzv ola bilmərik. Qarabağ elə bir məsələdir ki, onunla ticarət etmək olmaz. Dağlıq Qarabağ və ona bitişik yeddi rayon Azərbaycanın əzəli torpaqlarıdır. Biz kiminsə qabağında belə bir məsələ qoymamışıq ki, hansısa ittifaqa girək, sora bizə Qarabağı versinlər. Məsələni belə qoymuşuq ki, Dağlıq Qarabağ və ona bitişik rayonlar Azərbaycanın əzəli torpağıdır və Azərbaycanın tərkibində də olmalıdır. Ümumiyyətlə, bu və ya digər ittifaqa, ya hərbi, ya iqtisadi blok olsun, Azərbaycanın siyasəti bundan ibarətdir ki, biz ümumiyyətlə, bloklara qoşulmayan ölkələrin hərəkatının üzvüyük. Hərbi və digər bloklara qoşulmuruq, ikitərəfli iqtisadi-siyasi, humanitar münasibətlərə daha çox üstünlük veririk.

***- Ziyafət müəllim, bir neçə gündən sonra Ollandın təşəbbüsü ilə prezidentlərin Paris görüşündə masa üzərinə sülh sazişi qoyula bilərmi?***

- Biz həmişə buna hazır olmuşuq. Xarici işlər naziri cənab Elmar Məmmədyarov da bəyan etdi ki, Azərbaycan sülh sazişinə hazırdır, sadəcə Ermənistan boyun qaçırır.

***- Ortada referendum məsələsi olsa belə?***

- Yox, ortada referendum məsələsi yoxdur. Bu gün danışıqlar prosesində Azərbaycanın ərazi bütövlüyü müzakirə predmetidir.

***- Dağlıq Qarabağ daxil?***

- Əlbəttə. Dağlıq Qarabağ və ona bitişik rayonlar hamısı.

***- Ermənistan Avrasiya İttifaqına üzvlüyünü rəsmiləşdirəndən sonra məntiqlə Dağlıq Qarabağla Ermənistan arasında gömrük postları qurulmalıdır. Orada gömrüyə kim nəzarət edəcək?***

- Yox, bilirsinizEErmənistanın Avrasiya İttifaqına girməsi hələ ratifikasiya olunmalıdır. Ondan sonra məsələnin texniki detalları gündəmə gələcək. Nəzəri danışmayaq, vaxtı çatanda görəcəyik.

***- Avropa Parlamentinin İlqar Məmmədovla qərarı barədə nə deyə biəlrsiniz?***

- Mən o qərarla tanış deyiləm, bir söz deyə bilmərəm. Oxumadığım şey haqqında fikir bildirə bilmərəm.

***- Mədən Sənayesində Şəffaflıq Təşəbbüsü Azərbaycana yanvar ayına qədər vaxt veribE***

- O nə təşkilatdır elə? Hardan əmələ gəlir bu təşkilatlar. Hər bir QHT bir söz deyəcək, indi ona reaksiya verməli deyilik ki.

***- Prezidentlərin görüşündə Qarabağla bağlı danışıqların nəticəsindən müsbət nəsə gözləyirsinizmi?***

- Hər bir görüşdə xüsusi irəliləyiş olmasa da, görüşlərin özünün bir əhəmiyyəti var. Ən azından həmsədr ölkələr öz səylərini artırmalıdır. Amma Azərbaycanın əvvəlki mövqeyi yerində qalır: biz Azərbaycanın ərazi bütövlüyünün təmin olunmasını, Ermənistanın Dağlıq Qarabağ və ətraf ərazilərdən çəkilməsini istəyirik, danışıqlar da bu müstəvidə gedir.

***- İqtidar təmsilçisi kimi beynəlxalq hesabatlarda Azərbaycanın adının Venesuela, Rusiya ilə yanaşı çəkilməsindən narahat deyilsiniz?***

- (gülür) Baxır o adları kimlər çəkir.

***- Barak Obama.***

- Əgər sabah Obamaya qarşı irqçilik zəminində impiçment qaldıracaqlarsa, buna da təəccüblənməyin.

***- Rəsmi Bakının Avropa Şurası Nazirlər Komitəsinə sədrliyi dövründə belə situasiya ilə üzləşməsi də suallar doğurur. Niyə bu proses məhz indi başlayıb?***

- İndi başlamayıb. Azərbaycana qarşı kampaniyalar çoxdan gedir. Azərbaycana qarşı təhdidlərin səbəbini biz gözəl bilirik. Azərbaycan çox inkişaf edən ölkədir. Azərbaycanı gözü götürməyən qüvvələr var. İstəyirlər ki, Azərbaycan onlara hesabat versin, hesablaşsın. Biz müstəqil dövlətik, inkişafımızı özümüz müəyyənləşdirirk və bu inkişafın qarantı Azərbaycan xalqıdır. Bu da bəzilərinin xoşuna gəlmir, bunu həzm edə bilmirlər. Məgər biz inkişaf etmək üçün kimdənsə icazə almalıyıq?

***- Sanki Rusiya Azərbaycanın üzləşdiyi situasiyadan daha məmnun görünür, elədirmi?***

- Mən deyə bilmərəm kim məmnun görünür. Amma əsas odur ki, biz məmnun görünək, siyasətimizi müstəqil aparaq və xalqımıza arxalanaq.

***- Jirinovskiyə sizin münasibətinizin fərqli olduğunu bilirik. Onun Bakı səfərindən sonra Rusiya dövlətinin Azərbaycana münasibətində ciddi dəyişikliklərin yarandığını demək olarmı?***

- Rusiyanın Azərbaycana münasibətini Jirinovski ilə ölçmək lazım deyil. O, xahiş etmişdi və Bakıya gəldi. Hər halda o, Bakıya nə üçün gəldiyini özü gözəl bilir. Burada çox yüksək səviyyədə görüşlər keçirtdi. Bu adamın indiyə qədər Azərbaycan dövlətinə, dövlətçiliyinə, xalqına münasibəti bəllidir. Hər halda gəlib gözü ilə görsəydi yaxşı idi. Gəldi, Azərbaycanın inkişafını da gördü. Qayıdandan sonra isə Dövlət Dumasında AMEA-nın Tarix İnstitutu ilə bir yerdə yaxşı bir tədbir keçirtdilər, bütün həqiqətlər bir daha deyildi, Rusiyanın Qafqaz siyasəti və ermənilərin Qafqaza gəlməsi məsələsi həmçinin. Bunun nəyi pisdir ki?




### Ziyafət Əsgərov: “İstər Avropada, istər Amerika qitəsində heç bir dövlət deyə bilməz ki, onlar hüquqi dövlətin ən zirvəsinə gəlib”

***- Siz əminsinizmi ki, Rusiya gəmiləri Azərbaycana dostluq səfərinə gəlib?***

- Bəli, dostluq səfərinə gəlib.

***- Professor Yaqub Mahmudov hesab edir ki, Ermənistan Batum müqaviləsi şərtlərini pozduğu üçün İrəvanın Azərbaycana geri qaytarılması məsələsi qaldırılmalıdır. Sizin məsələyə münasibətiniz necədir?***

- Yaqub müəllim gözəl tarixçilərdən biridir, bu, onun əsaslandırılmış fikridir.

***- Bu, realdırmı?***

- Bunu Yaqub müəllimdən soruşsanız, daha yaxşı olar.

***- Prezident sərhəd bölgələrindəki hadisələrlə bağlı sərəncam imzaladı, burada təhlükəsizliklə bağlı məsələlər də yer alıb. Bununla bağlı Milli Məclisdə hansısa qanunvericilik aktlarına dəyişiklik olacaqmı?***

- O məsələ ilə bağlı bizim Müdafiə Nazirliyi ilə yaxşı əlaqələrimiz var, onlarla da söhbətimiz olub. Əgər o sərəncamla bağlı hansısa qanunvericilik aktlarına ehtiyac olacaqsa, sözsüz biz buna hazırıq. Sözsüz bu, çox ciddi sərəncamdır. Azərbaycanın təhlükəsizliyi, o cümlədən informasiya təhlükəsizliyi, sərhədlərinin daha da möhkəmləndirilməsi baxımından olduqca ciddi sənəddir. Yəqin ki, qanun layihələrinə ehtiyac olacaq.

***- Nazir Elmar Məmmədyarovun çıxışında 2014-16-cı illərdə Azərbaycandakı vəziyyətlə bağlı tədbirlər planının olduğu vurğulanmışdı. Siz qarşıdakı illərdə demokratiyanın vəziyyəti ilə hansı addımların atılacağını gözləyirsiniz?***

- Bizim ulu öndərimiz Heydər Əliyevin gözəl bir sözü var. Onun bütün sözləri gözəl idi, söz yox. O deyirdi ki, demokratiya elə bir prosesdir ki, onun əvvəli var, sonu yoxdur. Bu gün istər Avropada, istər Amerika qitəsində heç bir dövlət deyə bilməz ki, onlar hüquqi dövlətin ən zirvəsinə gəlib çıxıb. Çünki inkişaf getdikcə yeni münasibətlər meydana çıxır, bu münasibətləri tənzimləməlisən. Yəni həyat inkişaf etdikcə müəyyən çağırışlar olur, ona da cavab verilməlidir.

***- Evin tək oğlunun ön cəbhəyə hərbi xidmətə aparılmasına siz necə baxırsınız? Bəzən də tək oğullar şəhid olur...***

- Bu məsələlər qanunvericilik aktları ilə tənzimlənir. Əgər ciddi zərurət yaranarsa, məsələni müzakirə etmək olar.

***- Bəs magistrlərə hərbi çağırışdan möhlət hüququnun verilməsi məsələsi necə?***

- O məsələ gündəlikdə deyil.

***- Alternativ xidmətlə bağlı qanun haqda nə demək olar?***

- Təəssüf ki, biz layihəni Venesiya Komissiyasına göndərsək də, çox uzatdılar və rəy verdilər. Güman edirəm ki, hələ orda bir sıra açıqlaya bilmədiyim məqamlar var ki, üzərində işlənilələlidir.

❑ **Elşad PAŞASOY**







# 2015 Azərbaycanda dəyişikliklər ili olacaq?

## Ölkədə demokratiya istiqamətində ciddi addımlar atılacağı proqnozlaşdırılır; siyasi partiyalardan buna inananlar da var, inanmayanlar da...

**2015-ci ildə Azərbaycanda ciddi dəyişikliklər olacağı proqnozlaşdırılır. Ekspertlər hesab edir ki, gələn il demokratiya istiqamətində mühüm addımlar atıla bilər. Dəyişiklikləri həm də 2015-ci il parlament seçkiləri ilə əlaqələndirilir.**

Xatırladaq ki, “Turan” İnformasiya Agentliyinin rəhbəri Mehman Əliyev 2015-ci ildə ölkədə ciddi dəyişikliklər olacağının anonsunu verib: “Məndə olan məlumata görə, gələn ilin əvvəlləri ölkədə yeni siyasət elan olunacaq. Yəni yumşalma, demokratiyanın bərqərar olunması istiqamətində addımlar atılacaq. Azərbaycan 2015-ci ildə idarəolunan demokratiya fazasına keçəcək. Hökumət bunu öz istəyi və arzusu kimi təqdim edəcək. Ona görə o vaxta kimi bacardıqları qədər bəzilərini sıradan çıxarırlar. Kim qalsa, onunla əməkdaşlıq etmək və irəli getmək planı var. Ümumilikdə dünyada gedən proseslər göstərir ki, bunlar olmalıdır”.

Siyasi partiyaların bununla bağlı mövqeyini öyrəndik.

**Müsavat funksioneri Gülağa Aslanlı** da dəyişikliklərin gözlənildiyini bildirdi: “Dünyada baş verən son hadisələr xüsusən, Ukrayna ilə bağlı Qərb dövlətlərinin Rusiyaya qarşı təzyiqlərinin artması fonunda Avropada dəyişikliklər olacağı gözlənilir. Bu dəyişikliklərin sonunda Ukraynanın qalib çıxacağına ümidliyəm. Rusiyanın mövqeyinin zəifləyəcəyi göz önündədir. Təbii ki, belə olan halda Azərbaycan hakimiyyəti müəyyən addımlar atmalıdır. İqtidar mövcud islahatlara başlamalıdır. Belə olarsa, həm hakimiyyətin, həm də xalqın mənafeyinə yönəlmiş addım olar. Əgər əks addımlar atılarsa, bu heç də xeyir verməyəcək”.

**Milli Şuranın mətbuat xidmətinin rəhbəri Oqtay Gülalıyev** da 2015-ci ildə ciddi dəyişikliklər olacağına inandığını qeyd etdi: “Mənə elə gəlir ki, ciddi dəyişikliklər gözlənilir. Bunun bir sıra səbəbləri var. Ölkə daxilində və xaricində baş verən hadisələr diktə edir ki, hakimiyyət yürütdüyü siyasətdən geri çəkilməlidir. Ölkə daxilində müxalifət arasında təşkilatlanma işləri gedir. Eyni zamanda ölkədə kifayət qədər məhbus var. Qanunsuz həbslər də göstərdi ki, insanlar qorxub geri çəkilmədi. Bu artan xətt üzrə davam edir. Bildiyimiz kimi, 2015-ci ildə parlament seçkiləri keçiriləcək. Son 5 ildə Azərbaycan parlamentinin müxalifətsiz olduğunu hər kəs gördü. Digər tərəfdən, Avropa Parlamentinin son qətnaməsi Azərbaycana qarşı təzyiqlərin olacağı anonsunu göstərdi. Beynəlxalq təşkilatlar ölkəmizdə baş verən proseslərə biganə deyil. Bundan əlavə, ölkəmizdə gələn il Yay Olimpiya oyunları keçiriləcək. Düşünürəm ki, hakimiyyət geriyə addımlar atmağa məhkumdur. Azərbaycan dünyanın bir parçasıdır. Bir ölkə dünyadan təcrid oluna bilməz. Hər şeyin bir sonu olmalıdır”.

**ADP sədri Sərdar Cəlaloğlu** səslənən fikirlərin real olmadığını və 2015-ci ildə ölkəmizdə hər hansı siyasi dəyişikliyin olacağına inanmadığını bildirdi: “Demokratiya elə bir anlayış deyil ki, onu planlaşdırasan. Demokratiya bir prosesdir. Ya var, ya da, yoxdur. Demokratiyanı iqtidar başlatmır. Bu, təbii, siyasi prosesdir. Bunların hamısı gülməli söhbətlərdir. Güman etmirəm ki, 2015-ci ildə hansısa dəyişiklik olsun”.

❑ **Cavanşir ABBASLI**

YENİ MÜSAVAT
N 257 (5966) 18 oktyabr 2014

## "Mardan Palace"dəki ölüm işinə dair yeni təfərrüatlar



# Rza Hacıyevin adı hallanan qətl "ürək tutması" ilə ört-basdır olunur

### Gənc xanım Arzu Zeynalovanın əvvəllər səhhətində problemlər olmasa da, ortaya saxta diaqnoz qoymaq istəyirlər; sabiq polis rəisinin bu iş üçün böyük vəsait xərclədiyi iddia olunur

**Sabiq polis rəisi Rza Hacıyevin Türkiyədə öldürdüyü iddia edilən qadınla bağlı araşdırmamız davam edir. Əldə etdiyimiz son məlumatlara görə, R.Hacıyevlə Arzu Zeynalova 7-8 il öncə tanış olublar. Həmin vaxt R.Hacıyev Sabunçu Rayon Polis İdarəsinin rəisi vəzifəsini daşıyıb. Həmin vaxt A.Zeynalovanın 21-22 yaşı olub. Bu ilin sentyabrında isə A.Zeynalovanın Türkiyədə, məşhur milyarder Telman İsmayılova məxsus "Mardan Palace" otelində meyiti aşkarlanıb.**

Yayılan xəbərlərə görə, A.Zeynalova həmin otelə R.Hacıyevlə gedib. Aralarında yaranmış mübahisə zəminində sabiq polis rəisi qadını döyüb və qadın ölüb. Onun meyiti Bakıya gətirilərək "Qurd qapısı" adlanan qəbiristanlıqda dəfn olunub. Belə məlumat da vardı ki, qadının dəfn xərclərinə R.Hacıyev 8 min manat xərcləyib. Aldığımız son məlumata görə, 1988-ci il təvəllüdlü Arzu Qəmbər qızı Zeynalovanın əvvəllər səhhətində problemlər olmayıb. Buna baxmayaraq, onun ölümünü "ürək tutması" diaqnozu ilə ört-basdır edilməsi yönündə iş aparılır. R.Hacıyev bu qətlin təsadüfi ölüm kimi qiymətləndirilməsi üçün bütün imkanlarını işə salıb. Onun bu iş üçün böyük vəsait xərcləməsi də gələn xəbərlər sırasındadır.

Qeyd edək ki, A.Zeynalovanın yaxınlarından biri redaksiyamıza ünvanladığı məktubda qadının Rza Hacıyevin sevgilisi olduğunu və Türkiyəyə istirahətə gedəcəkləri haqda məlumatlı olduğunu demişdi. Həmin qadın redaksiyamıza göndərdiyi məktubda yazırdı: "Mən hazırda İstanbulda yaşayıram. Arzu Antalyaya getməzdən əvvəl mənimlə telefonla danışdı. Dedi ki, mən Rza ilə Antalyaya gedəcəyəm. Ordan da İstanbula gələcəyəm, görüşərik demişdi. Arzunu o adam öldürüb. Bunu mən bilirəm. Onlar bərabər idilər. Mən "Mardan Palace" hotelindən də məlumat alacağam. O adamın oraya nə vaxt giriş-çıxış elədiyini isbatlamağın qarşısı alınır, hər şeyi gizləyirlər. Amma mən bu ölümün gizlinlərinin ortaya çıxmasını istəyirəm".

Polis polkovniki olan R.Hacıyev bu ilin fevralında Neftçala Rayon Polis Şöbəsinin rəisi vəzifəsindən yaş həddi ilə bağlı azad olunaraq təqaüdə göndərilib. O, sonuncu iş yeri olan Neftçala RPŞ-yə Bakının Sabunçu Rayon Polis İdarəsinin rəisi vəzifəsindən çıxarılandan aylar sonra, 2009-cu ildə təyin olunmuşdu. 2008-ci ildə R.Hacıyevi Sabunçu RPİ-nin rəisi vəzifəsindən evində baş verən müdhiş oğurluğa görə çıxarmışdılar.

Həmin vaxt R.Hacıyevin sürücüsü polis rəisinin ailə üzvlərindən biri ilə evdən qızıl-zinət və xeyli pul götürərək Rusiyaya qaçmışdılar. Sonradan R.Hacıyevin ümumilikdə 1 milyon manatlıq mal-pulunun oğurlandığı bildirildi. Bu hadisənin sorağı ölkə rəhbərliyinə çatandan sonra ən yuxarı səviyyədə R.Hacıyevin tutduğu vəzifədən azad edilməsi istənilmişdi. Arqument kimi isə "öz evini qoruya bilməyən rəis rayonu necə qoruya bilər" fikri səsləndirilmişdi.

R.Hacıyev qətllə bağlı xəbəri təkzib etmişdi. O, Türkiyədə sonuncu dəfə bu ilin yazında olduğunu demişdi. Sabiq rəis hazırda Bakıda istirahət etdiyini söyləmişdi. Bildirək ki, redaksiyamıza daxil olan məlumata görə R.Hacıyevi Türkiyədə, "Mardan Palace" otelində 24 yaşlı Arzu Zeynalovanı öldürməsi haqda yayılan məlumatlarla bağlı dindiriblər. Hələlik şahid qismində dindirilən sabiq rəisin istintaqa cəlb olunma ehtimalının böyük olduğu da bildirilir.

Baş Prokurorluğun mətbuat xidmətindən R.Hacıyevin işə üzrə dindirilməsi xəbərini təkzib etməmişdilər. Sorğumuza verilən cavabda Rza Hacıyevin istintaqa çağırılaraq dindirilməsi təkzib olunmurdu.

**Mövzuya qayıdacağıq.**

**E.HÜSEYNOV**

**Müsavat Partiyasının sentyabrın 27-də keçirilmiş son qurultayından sonra partiya daxilində yaranan gərginlik hələ ki aradan qalxmaq bilmir. Son bir həftə ərzində təxminən 10 nəfər gəncin və Tovuz rayon təşkilatının üzvlərinin partiyadan istefa verməsindən sonra isə mediada Müsavatla bağlı bir ajiotaj yaşanır. Bundan sonra da istefaların olacağı deyilir.**

# Müsavatda yeni qurultay olacağı xəbəri yayıldı

## Arif Hacılı istefa verənləri xəyanət etməkdə suçladı

**Modern.az saytı dünən məlumat yayıb ki, partiyadakı bu gərginliyi səngitmək, kütləvi istefaların qarşısını almaqdan ötrü çıxış yolu aranır:** "İndiki mərhələdə isə gündəmdə olan ən əsas çıxış yolu kimi İsa Qəmbərin yenidən başqanlığa qayıtmasıdır. Partiyadakı mənbə bildirir ki, artıq bu istiqamətdə ciddi müzakirələr gedir. Keçmiş başqanın yenidən rəhbər kimi qayıtması üçün əgər İsa Qəmbər razılığını verərsə, fövqəladə qurultay keçirilməsi qaçılmaz olacaq".

Digər məlumata görə, bu məsələ ilə bağlı keçmiş başqanı razı salmaq hələ ki mümkün olmayıb. Keçmiş başqan İsa Qəmbər yeni başqan Arif Hacılıya dəstək verir və bu dəstəyini o, Müsavat Məclisinin 11 oktyabrda keçirilən toplantısında çıxışı zamanı açıq şəkildə ortaya qoyub. Lakin adını çəkmədiyi mənbəyə istinadən sayt iddia edir ki, əgər partiya daxilindəki gərginlik səngiməzsə və istefaların daha kəskin xarakter alacağı qaçılmaz olacaqsa, bu halda İ.Qəmbər geri qayıtmaq məcburiyyətində qalacaq.

**Müsavat başqanlığına sabiq namizəd Tural Abbaslı** isə bildirdi ki, Müsavatın növbədənkənar qurultayı çağırılacaq. Bunun 6-7 ay ərzində baş tutması gözlənilir. Çünki son qurultayda yarımçıq qalan işləri tamamlamaq lazımdır.

**O vurğulayıb ki, partiya nizamnaməsində Müsavatın növbədənkənar qurultayı proseduru nəzərdə tutulub:** "Nizamnamənin prosedur qaydalarına görə qurultay nümayəndələrinin üçdə birinin imzası ilə yenidən çağırıla bilər. Qurultayda nizamnamə və əsasnamə dəyişiklikləri olmalı idi, hansı ki, ona vaxt çatmadı. Ona görə də yenidən qurultay çağırıb o dəyişiklikləri etmək qərarına gəldik. Amma məqsəd başqanın dəyişdirilib, yenidən İsa Qəmbərin gətirilməsi deyil".

**Müsavatın Tovuz rayon təşkilatının bütövlükdə istefa verdiyi barədə yayılmış bəyanatın həqiqəti əks etdirmədiyini partiyanın təşkilat şöbəsinin müdiri Razim Əmiraslanov bir daha araşdırma apardıqdan sonra bəyan edib:** "Müsavat Partiyası Tovuz rayon təşkilatının keçmiş sədri Miryaqub Ağamirli "Azadlıq" radiosuna müsahibəsində 400 üzvün istefa verdiyini deyib. Bu tamamilə yalan informasiyadır. Tovuz rayon təşkilatının heç 400 üzvü yoxdur. İstefa verənlərin sayı bir neçə nəfərdir. Qərarı 19 nəfərin qəbul etdiyi iddia olunur. İstefa verənlər heç 19 nəfər də deyil. Rəsmi olaraq 4-5 üzv istefa verib".

Tovuz təşkilatının bütövlükdə istefa vermədiyinə daha bir tutarlı sübut da göstərilə bilər. **"Yeni Müsavat" qəzetinin baş redaktoru Rauf Arifoğlu** facebook səhifəsində bildirib ki, atası, anası, kənddəki qohumları Müsavat Partiyasının Tovuz rayon təşkilatının üzvləridirlər: "Heç biri istefa verməyib, istefa vermək fikirləri də yoxdur. Ümumiyyətlə, Tovuz təşkilatının nominal üzvlərinin 85 faizi istefa verməyib, sadəcə qeyri-fəal vəziyyətdədirlər".

**Müsavatın Cəbrayıl rayon təşkilatının sədri İzzət Məmmədli** isə "Yeni Müsavat"a bildirib ki, rəhbərlik etdiyi təşkilatın istefa verəcəyi barədə yayılan xəbərlər kimlərinsə qəsdən mediaya ötürdüyü yalan informasiyadır: "Cəbrayıl rayon təşkilatı Müsavatda fəaliyyətini davam etdirir və etdirəcək. Biz ömrümüzü Müsavata həsr eləmişik. Arif Hacılı partiyanın başqanı seçilibsə, nə olacaq? Başqan dəyişib deyə biz əqidəmizi dəyişməliyik? Müsavatdan getməliyik? Biz öz əqidəmizdə və partiyamızda qalırıq. Müsavatda sıravi üzv kimi də olsa ölənə qədər qalmaq fikrim var".

**Cəbrayıl RT-nın sabiq sədri, 27 oktyabrda keçirilən qurultayda seçki komissiyasının üzvü olmuş (Qubad İbadoğlunun tərəfdarı kimi) Hamlet Səfixanlı da heç bir istefadan söhbət getmədiyini bildirdi:** "Biz Müsavat Partiyasına ideyaya görə gəlmişik, kimdənsə küsüb partiyadan gedəsi deyilik. 22 ildir Müsavatda ömür sərf edirik. Müsavat heç kimin şəxsi mülkü deyil və ola bilməz".

**Müsavatın başqanı Arif Hacılı** isə qurultaydan sonra onun nəticələrinə etiraz edərək təşkilatdan istefa verənlərlə bağlı özünün facebook səhifəsində yazıb: "İrəli sürdükləri arqumentlərdən asılı olmayaraq Müsavatı tərk edənlər müsavatçılığa, Rəsulzadənin ruhuna, bu ağır dövrdə Müsavatda qalıb fəaliyyətlərini davam etdirən silahdaşlarına qarşı xəyanət etdilər!".

Moderator.az-a açıqlama verən **Müsavat başqanlığına sabiq namizəd Səxavət Əlisoy** isə istefaların bu şəkildə dəyərləndirilməsinin doğru olmadığını bildirib: "Partiyanı tərk edənlər saxtakarlığa, şüarçılığa, mənəm-mənəmliyə, səviyyəsizliyə, yekəxanalığa, harama nifrət edənlərdir".

**A.Hacılı isə bildirib ki, əgər hər hansı bir qrupda və ya profildə kimsə Müsavatın nizamnaməsinə uyğun olmayan, üzvlərin və ya hər hansı bir vətəndaşın şərəf və ya ləyaqətini alçaldan fikirlər işlədibsə, bu məsələlər barədə də partiyanın müvafiq strukturlarına şikayət vermək lazımdır. O, bir qrup gəncin istefasına təəssüfləndiyini və bunun yanlış addım olduğunu söyləyib:** "Müsavatın bəzi üzvləri qurultayın nəticəsindən narazı qalaraq partiyanı tərk etdikləri barədə açıqlamalar veriblər. Mən onların bu mövqelərinə görə təəssüf edirəm. Çünki xüsusilə gənclərin belə bir qərar qəbul etməsi əslində həm siyasi, həm də praqmatik baxımdan yanlışdır. Onların həyatında hələ çoxsaylı seçkilər olacaq və yəqin ki, bu seçkilərin bir çoxunda da qələbə çalmaq imkanları yaranacaq. Əgər demokratik prosesdə iştirak edirsənsə, bilməlisən ki, sənin qalib gəldiyin də, məğlub olduğun da seçkilər olacaq. Xüsusilə gənclərin bir seçkidə istəklərinin həyata keçməməsi ilə bağlı istefa verməri təəccüblüdür".

A.Hacılı Qubad İbadoğlunun qurultaydakı seçki pozuntuları ilə bağlı şikayətinin araşdırıldığını qeyd edib: "Əgər kimlərinsə hansısa nöqsanlara yol verdiyi barədə faktlar aşkarlanacaqsa, Nizamnamə çərçivəsində müvafiq qərar veriləcək".

**Müsavatın yeni başqanı partiya üzvlərini qarşılıqlı ittihamlara son qoymağa çağırıb:** "Mən dəfələrlə bu cür ittihamların dayandırılmasını xahiş etmişəm. Sevinirəm ki, partiya üzvlərinin mütləq əksəriyyəti mənim çağırışıma qoşularaq, birtərəfli qaydada bu cür çıxışlara moratorium qoydular. Ancaq bu məsələlərin özünə də bir faciə kimi yanaşmaq düzgün deyil. Əgər biz demokratik cəmiyyət qurmaq, Müsavatı demokratik üsullarla idarə etmək istəyiriksə, partiya içində olan fikir ayrılıqlarına da plüralizmin təzahürü kimi yanaşmalıyıq. Ancaq kiminsə addımlarında Müsavatın nizamnaməsini pozan məqamlar varsa, bu hərəkətlər barədə müvafiq strukturlara şikayət edilməli və şikayətə obyektiv baxılaraq, müvafiq qərarlar verilməlidir".

**A.Hacılı facebookda Q.İbadoğlunu dəstəkləyən partiya üzvlərinin təhqirə məruz qaldığı hər hansı qrupdan xəbərsiz olduğunu, bu qrupların onun adı ilə bağlanmasının həqiqətə uyğun olmadığını vurğulayıb:** "Facebookda yüz minlərlə qrup var. Bu qruplar ilk növbədə onları yaradanların məxsusdur. Mən bu yaxınlarda hansı qrupların üzvü olmağımla maraqlandım. Məlum oldu ki, 352 qrupun üzvüyəm və bu qruplar ayrı-ayrı mövzularda tanımadığım adamların adına açılan, bir çoxu mənim maraq dairəmə ümumiyyətlə, uyğun olmayan qruplardır. Təxminən 10 qrupdan çıxdım".

**A.Hacılı Müsavatın ayrı-ayrı adamların tərəfdarlarına və qruplara bölündüyü barədə fikirlərə razılaşmır:** "Müsavatda heç bir namizədin tərəfdarı yoxdur. Mən bu bəyanatı qurultaydan dərhal sonra vermişəm. İndi partiyanın bütün üzvləri vahid komanda şəklində fəaliyyət göstərməlidir və mən düşünürəm ki, yaxın zamanlarda seçki kampaniyası dövründə yaranmış rəqabət əhval-ruhiyyəsi aradan qalxacaq. Mən Müsavat Partiyasını heç vaxt kimlərinsə tərəfdarlarına bölməmişəm. 25 ildir siyasətlə məşğulam, heç vaxt "mənim tərəfdarlarım", "mənim komandam" ifadələrini işlətməmişəm. İstər Xalq Cəbhəsində, istərsə Azərbaycan hakimiyyətində, istərsə də Müsavat Partiyasında fəaliyyət göstərdiyim zaman həmişə çalışmışam ki, üzvü olduğum siyasi təşkilatın, siyasi hökumətin vahid komandası olsun".

**Etibar SEYİDAĞA**

# İqbal Ağazadə xalqı təbrik etdi

**Ümid Partiyasının sədri, millət vəkili İqbal Ağazadə dövlət müstəqilliyimizin bərpasının 23-ci ildönümü münasibəti ilə bağlı xalqı təbrik edib. Təbrikdə deyilir:**



"Əziz Soydaşlarım!

Sizi millətin və dövlətin tarixində ən şərəfli və müstəsna hadisə olan18 oktyabr - Azərbaycanın Dövlət Müstəqilliyinin Bərpası Günü münasibəti ilə səmimi qəlbdən təbrik edirəm.

Azərbaycan xalqının müstəqillik uğrunda mübarizəsi hələ 20-ci əsrin əvvəlindən başlayıb. 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti yaranıb. 1920-ci il aprel işğalından sonra da mübarizə açıq və gizli şəkildə davam etdirilib. Xalq Cümhuriyyətinin müstəqillik ideyasını xalqın yaddaşında yaşadan və bu yolda həyatını itirən minlərlə ziyalımızın, fikir adamının, vətən fədailərinin mübarizəsi nəticəsində 1991-ci ilin 18 oktyabrında Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktı qəbul edilib. Bu gün xalqımızın həyatında müstəsna əhəmiyyətə malik, Azərbaycan tarixinə qızıl hərflərlə yazılmış bir gündür. Ömrünü dövlətin azadlığı və müstəqilliyinə həsr etmiş, bu yolda bütün təzyiqlərə, çətinliklərə, ölüm hədələrinə, repressiyalar sinə gərmiş Azərbaycan xalqı üçün müstəqilliyin əhəmiyyətini sözlə ifadə etmək mümkün deyil.

Canını vətənin müstəqilliyi və suverenliyi uğrunda qurban verməkdən çəkinməyən bütün şəhidlərimiz və qazilərimiz həmişə qürur hissi ilə yad edilməlidir.

Çətinliklə qazanılan müstəqilliyi qorumaq, inkişaf etdirmək də hər bir vətəndaşdan daha böyük iradə və məsuliyyət tələb edir. Son dövrlər regionda baş verən proseslər Azərbaycanın müstəqilliyinə təhlükə yaradır və məsuliyyətimizi daha da artırır. Bu səbəbdən bütün soydaşlarımızı Azərbaycanın müstəqilliyinin, suverenliyinin və ərazi bütövlüyünün qorunması məsələsində məsuliyyətli olmağa və birliyə çağırıram.

Bir daha sizlərin hər birinizi Müstəqilliyin Bərpası Günü münasibətilə təbrik edir, müstəqilliyimizin, azadlığımızın əbədi olmasını arzulayıram".

***Ümid Partiyasının sədri*, Millət vəkili İqbal Ağazdə**









## Ümid İcra Aparatının toplantısı keçirildi

**Oktyabrın 16-da Ümid Partiyasının İcra Aparatının növbəti toplantısı keçirilib. Toplantıda görülən işlərlə bağlı şöbə sədrlərinin hesabatı dinlənilib, qərarların icrası, bələdiyyə seçkilərinə hazırlığın vəziyyəti və qarşıda duran vəzifələr müzakirə olunub. Sonda İcra Aparatının rəhbəri Taleh Əliyev şöbə müdirlərinə tapşırıq və tövsiyələr verib.**

## Ümid Urmiyədə baş verənlərlə bağlı bəyanat verdi

**Ümid Partiyası Güney Azərbaycanın Urmiyə şəhərində baş verənlərlə bağlı bəyanat verib. Bəyanatda deyilir:**




"Məlum olduğu kimi, oktyabr ayının 16-da Güney Azərbaycanın Urmiyə şəhərin mərkəzində terror şəbəkələrinin fəaliyyətinə "yox" demək üçün antiterror aksiyası keçirən mülki əhali ilə polis arasında toqquşmalar yaşanıb. Polis tərəfindən xalqa qarşı zor tətbiq edilib. Onlarla soydaşımız həbs olunub, yaralanan var.

Ümid Partiyası bəyan edir ki, Orta Şərqdə baş verən olaylar müstəvisində yenidən baş qaldıran terror hərəkətləri bütün sülhsevər insanlar kimi güneyli soydaşlarımızı da narahat etmiş və haqlı olaraq terrorizmə qarşı etiraz səslərini ucaltmışlar. Biz soydaşlarımıza qarşı bu aksiyada həyata keçirilən bütün zorakılıq hərəkətlərini kəskin şəkildə pisləyir və beynəlxalq qurumları baş verənlər qarşısında susmamağa, həbs olunanların dərhal azad olunmasını tələb etməyə çağırırıq".





# Ümid Rəyasət Heyəti toplaşdı

**Ümid Partiyasının mərkəzi qərargahında partiyanın sədri, millət vəkili İqbal Ağazadənin sədrliyi ilə Rəyasət Heyətinin toplantısı keçirilib. Toplantıda ölkədə, regionda və dünyada baş verən siyasi proseslər, Azərbaycanda siyasi məhbus problemi, bələdiyyə seçkilərinə hazırlığın vəziyyəti müzakirə olunub. Ümid Partiyasının sədri İqbal Ağazadə Rəyasət Heyətinin üzvlərinə tapşırıq və tövsiyələrini verib.**



**Bu səhifə Ümid Partiyası tərəfindən təqdim edilmişdir**

YENİ MÜSAVAT
N 257 (5966) 18 oktyabr 2014



# Ulamağın latıncası

Zamin HACI
zaminhaci@gmail.com

**Yazının əvvəlində dövlət başçısına müraciət edərək məni əfv etməsini istəyirəm. Ümid edirəm Mədət müəllim bu ərizəmi Penisentiar Xidmətin saytında yerləşdirəcəkdir.**

Düzdür, bunu vaxtından qabaq yazılan əfv ərizəsi saymaq olar, ancaq dünyanın işini kim bilir? Mən uzaqgörən adamam. Bu gün toylarda qarmon çalan adam sabah nazir ola bilər. Dünən badalaq vurduğun adam bu gün səni yıxıldığın gölməçədən qaldırar, sonra dünənki günü xatırlayıb təzədən suya basar. Həyat belə şeylərlə doludur. Dünya beş gündür, beşi də qara. Hamısı masonların oyunlarıdır. Bizim millət düzələn deyil. Müsavat yüz ilin partiyasıdır. İqtisadiyyatı güclü olan dövlət hər şeyə qadirdir.

Əfvdən söz düşmüşkən, dünən dostlar bunun əsasnaməsini tapıb internetə qoymuşdular. Sən demə, hardasa 12 il qabaq prezidentin əfvi necə istəmək haqda xüsusi sərəncamı olmuşdur. Yəni, bizdə dustaqların necə deyərlər, "sındırılması" prosesi tam qanuna uyğun imiş. Əsasnamədə hər bir detal dövlətçiliyimizə uyğun formada əks etdirilmişdir: ərizəni hansı qələmlə yazmaq olar, neçə sözdən ibarət olmalıdır, göz yaşları ilə sulamaq vacibdirmi, ərizəni ürək formasında qatlamaq əfvi tezləşdirirmi və sairə.

Bəli. Gözəl qanundur. Misal üçün, sən demə, ərizə mütləq qırmızı, diyircəkli qələmlə, latın qrafikasının nəstəliq xəttində yazılmalıdır. Ərizədə şeir, rəsm əsəri işlətmək, Eynşteyndən və Belinskidən sitatlar vermək, səni tutan məhkəmə hakimini Allaha tapşırmaq kimi qanuna zidd xırdalıqlar hamısı öz təsvirini tapmışdır. Buna görə biz əsasnaməni hazırlamaqda böyük zəhmət çəkmiş Əliməmməd müəllimə dərin minnətdarlığımızı bildiririk.

Əslində heç bilmirəm sənədi hansı hüquqşünas yoldaşlar hazırlamışdır, sadəcə, Əliməmməd müəllimə fürsət ikən bir minnətdarlıq imzaladıq, getdi işinin dalıyca. Yuxarıda yazdığım kimi, dünyanın işini hardan biləsən? Bəlkə bizim Əliməmməd müəllimə bu minnətdarlığımız 2048-ci ildə Qarabağ ətrafındakı rayonlardan bir qarış torpaq almağımıza səbəb olacaqdır? Alın yazısından qaçmaq olmaz. Bu "2048" oyununu kəşf edənin də başına kvadrat daş düşsün - dünəndən bəri ancaq bu oyunla məşğulam.

İnternet serfinqi zamanı bir maraqlı fakt da tapmışam, istərdim onu dəyərli oxucularımızla bölüşüm.

Sən demə, qədim latın dilində (əslində bunun hamısı qədimdir, indi belə xalq yoxdur, güclü liderləri olmadığı üçün müstəqilliklərini, dövlətçiliklərini, yeraltı keçidlərini, gənclər mərkəzlərini itirərək tarixə qovuşmuşlar) "ulamaq" sözü... "ululo" imiş! İnanılmaz doğmalıqdır. Hələ bu harasıdır, sanskrit dilində də ulamaq "ululi", qədim ingiliscədə "ule" (bu söz çağdaş ingiliscədə bayquşun adında qalır - "oul"), litva dilində "uluti", yunancada "ololu" şəklində imiş.

Hörmətli oxucular soruşa bilər ki, bunun bizə nə dəxli var, kim necə istəyir, hansı dildə istəyir ulasın, bizim özümüzün çoxlu dərd-sərimiz vardır. Elə deyil, əzizlərim. Biz dərdlərimizin kökünü tapmaq üçün onların qlobal problemlər olduğunu anlamalıyıq. Gördüyünüz kimi, ta qədimdən bütün bəşəriyyət eyni cür ulamışdır. Ata sözümüzdə deyilən kimi, ulu sözünə baxmayan uluya-uluya qalar.

İnsan belə sirləri öyrəndikcə kamilləşir, yüngülləşir, bir də baxırsan lap uçdun getdin. Jorji Amadu-nun "Piranyasda möcüzə" hekayəsinin qəhrəmanı kimi. Uzun hekayədir, özünüz tapın oxuyun.

Söz kitaba gəlmişkən, bir maraqlı faktı da yazım. İndiyə qədər dünyada ən çox çap olunan kitab "Bibliya"dır. İkinci yerdə isə "Sion müdriklərinin protokolları" adlı uydurma, yalançı kitab durur. Yəni, hər ikisi əfsanə olan kitablar insanlar arasında populyardır və ikinci kitabın yaranmasında birinci kitabdakı "lənət"in böyük rolu vardır.

**Görün necə məzəli, əfsanəvi planetimiz vardır. Siz də dərd çəkirsiniz. Bunun təməli belə qoyulubdur.**

# Qarabağ ətrafında nə baş verir?

**Adam inana bilmir ki, o vaxtdan 20 il keçib. Bəli, Qarabağ problemi kontekstində "böyük siyasi saziş" ifadəsinə ilk dəfə düz 20 il bundan əvvəl - atəşkəs haqqında razılaşma əldə edilərkən təsadüf edilmişdi.**




## Ermənistan müxalifəti hakimiyyətini dəyişir...

İstisna deyil ki, Ermənistan müxalifəti bu dəfə də "enerjisini" Rusiyadan alır; Azərbaycan iqtidarı isə cəmiyyəti məlumatlandırmağı vacib saymır; ölkəmizdə Dağlıq Qarabağ konteksində etiraz və ya həmrəylik aksiyası təşkil etməyə qadir olan bir siyasi qüvvə var...

Hələ o vaxt da deyilirdi ki, atəşkəs haqqında razılaşmadan sonra münaqişənin siyasi həlli axtarılacaq və böyük bir sülh sazişi imzalanacaq...

Amma o vaxt bu, mümkün olmadı. Sonrakı illərdə də problemin həlli üçün bir neçə variant təklif edilsə də, bu cəhdlər də yekun nəticəyə - böyük siyasi sazişə gətirib çıxara bilmədi...

Amma bu günlərdə, Minsk Qrupunun həmsədrləri Bakıda olarkən, Azərbaycanın xarici işlər naziri bildirdi ki, onun ölkəsi böyük siyasi sazişin üzərində işə başlamağa hazırdır.

Bunu necə başa düşmək olar? İzahı budur ki, görünür, prinsipial məsələlərlə bağlı artıq razılaşma var. Amma burada proses belə gedir: Minsk Qrupu təklif hazırlayır və onu hər iki tərəfə təqdim edir.

Təbii ki, təklif hər iki tərəfdən qəbul ediləndən sonra problemin siyasi həllinə yol açılır. İndilikdə isə demək olar ki, hələ ki, bir tərəfin - Azərbaycanın razılığı var.

Əgər belə olmasaydı xarici işlər naziri öz ölkəsinin böyük siyasi saziş üzərində işləməyə hazır olduğunu deməzdi. O ki qaldı Ermənistana, yəqin ki, hər şey Minsk Qrupunun həmsədrlərinin bu ölkədən gətirdiyi xəbərdən asılı olacaq.

Amma Ermənistanda vəziyyət çox mürəkkəbdir. Müxalifət oktyabrın 24-nə böyük bir mitinq təyin edib. Maraqlısı odur ki, Azərbaycanın və Ermənistanın prezidentləri də Fransa prezidentinin vasitəçiliyilə bu ayın sonuna qədər görüşməlidirlər.

Belə bir mühüm məqamda Ermənistan müxalifəti belə hesab edir ki, hakimiyyəti dəyişmək üçün indi ən əlverişli vaxtdır. Ermənistanda adətən iş elə olub ki, tərəflər Rusiyanın vasitəçiliyi olmadan sülh anına yaxınlaşanda ölkə daxilində vəziyyət qarışır - diqqətli oxucu yəqin ki, ən azı 90-cı illərdə bu ölkədə parlamentin güllələnməsini xatırlayır...

İndi də istisna deyil ki, Ermənistan müxalifəti bu dəfə də "enerjisini" Rusiyadan alır. Ona görə ki, müxalifətçilər Avrasiya İttifaqı əleyhinə şüarlar səsləndirsələr də "Qarabağ əldən gedib!" deməyi də unutmurlar...

Azərbaycana gəldikdə isə, bu ölkədə yalnız ehtimallar və heç bir dəlilə söykənməyən mülahizələr baş alıb gedir. Onların spektri çox genişdir - burada yeddi rayonun azad olunması müqabilində Avrasiya İttifaqına daxil olmaqdan tutmuş Dağlıq Qarabağ probleminə bağlı hansısa məxfi razılaşma haqqında fikirlərə təsadüf etmək olur...

Amma əsl reallığı heç kim bilmir. Ona görə ki, hakimiyyət cəmiyyəti məlumatlandırmağı vacib hesab etmir, cəmiyyətdən yalnız öz hakimiyyətinə inanmaq və bir də itaət etmək tələb olunur...

Amma bir səhər eşidirsən ki, Rusiyanın hərbi gəmiləri Bakı buxtasındadır. Onlar burada nə edir? Onları bura kim və hansı məqsədlə çağırıb? Bu haqda yalnız ehtimallar səsləndirmək olar - Rusiyanın müdafiə naziri Bakıda olarkən deyildi ki, iki ölkə hərbi dənizçilik sahəsində əməkdaşlığı artıracaq...

Nə demək olar? Təbii ki, yalnız inanmaq qalır. Həm də eyni sözləri Qarabağ problemi haqqında demək olar. Bu mövzu da bir məşhur rəssamın bir məşhur rəsmini - "qara kvadratı" xatırladır...

Məlum olur ki, Ermənistan müxalifəti Azərbaycan müxalifətini təkcə kəmiyyətə görə deyil, həm də informasiyaya görə üstələyir. Etiraf etmək lazım gəlir ki, bu, həmişə belə olub. Əksər hallarda Azərbaycan cəmiyyəti Qarabağ danışıqlarının detallarını Ermənistanda nəsə baş verəndən sonra öyrənib...

Bu da, görünür, onun nəticəsidir ki, Ermənistanda siyasi sistem daha mülayimdir. Hər halda orada 90 faizlik seçki nəticələrinə təsadüf edilmir və bu amilin özü müəyyən göstərici kimi qəbul edilə bilər...

Azərbaycanın siyasi sistemində isə heç nəzəri olaraq da müxalif fikir üçün yer nəzərdə tutulmur. 1994-cü ildə atəşkəs razılaşmasına etiraz edənlər tapıldı. Hətta o vaxt bu etirazlara qatılmış iki müxalifət deputatı mandatdan da məhrum edildi.

İndi isə ölkədə Dağlıq Qarabağ konteksində etiraz və ya həmrəylik aksiyası təşkil etməyə qadir olan bir siyasi qüvvə var - o da hakimiyyətin özüdür...

Böyük hesabla 20 il bundan əvvələ müqayisədə dəyişən də elə budur... Qalan hər şey elə əvvəlki kimidir - lap Qarabağın yiyəsiz qalmış evləri kimi...

❑ Hüseynbala SƏLİMOV



## Azərbaycanın müstəqilliyi təhlükədə...

### Fərrux Məmmədov: "23 illik müstəqillik tarixində Azərbaycanın müstəqilliyi bu qədər təhdid altına düşməmişdi"

**Son günlərdə Azərbaycanın müstəqilliyinin təhlükə altında olması ilə bağlı səslənən fikirlər ətrafında yaranan narahatçılıq günbəgün artmaqdadır.**

**NATO-nun Bakı İnstitutunun prezidenti Fərrux Məmmədov** musavat.com-a bununla bağlı öz narahatçılığını bölüşüb. Onun sözlərinə görə, 23 illik müstəqillik tarixində ilk dəfə olaraq, dövlətçiliyimiz belə təhlükə ilə üzləşib: " 23 illik müstəqillik tarixində ilk dəfədir ki, Azərbaycan Respublikasının müstəqilliyi, suverenliyi və təhlükəsizliyi bu qədər təhdid altına düşməmişdir. Rusiya ilə aparılan danışıqların nəticəsi bunları deməyə əsas verir. Rusiya rəsmilərinin son səfərləri zamanı Azərbaycan hökumətinin bağlı qapılar arxasında bəzi strateji sənədlər imzalaması və üzərinə bəzi öhdəliklər götürməsi ölkəni işğala aparır. NATO Əməkdaşlıq İnstitutu Azərbaycan hökumətini geriyə dönüş olmayan bu yolda atılmış olan yanlış addımdan geri dönməyə çağırır. Əgər Azərbaycanın Milli Təhlükəsizliyinə təhdid olacaq bir prosesə başlarsa, o zaman Qafqazda yeni siyasi dönəmin başlayacağının şahidi olacağıq".

❑ Cavanşir ABBASLI

**Oktyabrın 18-i Azərbaycanın ən yeni tarixinin çox mühüm hadisəsinin baş verdiyi gündür. 1991-ci il oktyabrın 18-də Ali Sovet Azərbaycanın müstəqilliyi haqda Konstitusiya Aktını qəbul edib. Həmin vaxt SSRİ hələ mövcud idi. Qeyd edək ki, adətən istiqlalçı deputatlar kimi təqdim olunan 43 nəfər oktyabrın 18-də keçirilən seçkilərlə bağlı deyil. Çünki oktyabrın 18-də keçirilən səsvermədə Ali Sovetin 360 deputatı hamılıqla 258 nəfər müstəqilliyə səs verib, yerdə qalanlar isə iclasda iştirak etməyiblər.**

# Azərbaycan ən yeni tarixinin əsas hadisəsi

## 18 oktyabr ölkəmizin ikinci dəfə müstəqilliyini qazandığı gündür

Azərbaycanın müstəqilliyi ilə bağlı 18 oktyabrda qəbul edilmiş Konstitusiya Aktı 6 bənddən və 32 maddədən ibarət olub. Konstitusiya Aktında Azərbaycan Respublikası 1918-ci il mayın 28-dən 1920-ci il aprelin 28-dək mövcud olmuş Azərbaycan Respublikasının varisi (maddə 2.) elan olunur. Eyni zamanda Azərbaycan xalqı müstəqil, dünyəvi, demokratik, unitar dövlət (maddə 12.) yaradır, bu dövlətin suveren hakimiyyəti daxili məsələlərdə ancaq hüquqla, xarici məsələlərdə isə yalnız Azərbaycan xalqının azad surətdə razılıq verdiyi müqavilələrdən və sazişlərdən irəli gələn müddəalarla məhdudlaşdırılır".

Azərbaycanın istiqlalçı deputatları isə müstəqillikdən 7 ay əvvəl SSRİ-nin saxlanılması üçün keçirilən referenduma qarşı çıxıblar. Yalnız 43 millət vəkili cəsarət nümayiş etdirərək referendum qərarına qarşı çıxaraq müstəqillik tələb ediblər.

**Yeri gəlmişkən istiqlalçı deputatlar adlarını qeyd edək:** İxtiyar Şirinov, Firudin Cəlilov, Dilarə Əliyeva, Füzuli Axundov, Aydın Məmmədov, Əyyam Musayev, Vaqif Novruzov, Vahid Əhmədov, Ramiz Fətəliyev, Cümşüd



Nuriyev, Məmməd Xələfov, Etibar Məmmədov, Nəriman Həsənzadə, İsa Qəmbər, Sabir Rüstəmxanlı, Tofiq Bağırov, Mürşüd Məmmədli, Şadman Hüseynov, Faiq Baxşəliyev, Mirmahmud Fəttayev, Ədalət Rəhimov, İsgəndər Həmidov, Mətləb Mütəllimov, Tahir Əliyev, Rəhim Qazıyev, Tamerlan Qarayev, Eldar Bağırov, Tofiq Qasımov, Məryəm Həsənova, Arif Hacılı, Tahir Kərimli, İsmayıl Şıxlı, Yusif Səmədoğlu, Maşallah Abdullayev, Hacıbaba Əzimov, Bayram Bayramov, Hicran Kərimli, Heydər Əliyev, İbrahim İbrahimli, Allahverdi Həsənov, Sülhəddin Əkbər, Şahmərdan Cəfərov, Fərəc Quliyev. Bu şəxslərin 14-ü dünyasını dəyişib. Bir neçə nəfər ölkəni tərk edərək xaricdə yaşayır.

❑ **KƏNAN**

# "Putinlə pisdir, onsuz daha da pis olacaq"

## Alman qəzeti Putindən sonrakı Rusiya mövzusunda yazdı

**"Süddeutsche Zeitung" Putindən sonrakı Rusiya ilə bağlı təhlil yazısı hazırlayıb. Yazıda diqqət çəkən bəzi məqamları sizlərlə bölüşürük.**



"Sovet İttifaqı dağıldıqdan sonra bu nəhəng ölkənin sahib olduğu ən yağlı tikələr Rusiyanın nəzarətinə keçdi. Ancaq Sovet İttifaqından Rusiyaya eyni zamanda ən təhlükəli şeylər də miras qaldı. Hazırda keçmiş Sovet ölkələri dövlət quruculuğu ilə məşğuldur. Öz dövlətlərini möhkəmləndirməyə çalışırlar. Ukrayna nümunəsi göstərir ki, dövlət quruculuğu o qədər də hamar getmir. Ortaya manеə olaraq bəzən ciddi amillər çıxır. Rusiya isə artıq 25 ilə yaxındır ki, keçmiş SSRİ məkanında dominant olmaqda davam edir. Güclənməyə və beynəlxalq siyasi arenada "Soyuq Müharibə" dönəmindəki məğlubiyyətin nəticələrindən kənarlaşmağa çalışır ".

"Rusiyada çoxları elə zənn edirdi ki, dünyada enerjiyə aşırı ehtiyacın yaranmasından istifadə edərək ciddi dəyişikliklərə nail olmaq olar. Məğrur şəkildə ayaq üstdə dayanmaq üçün gözəl fürsət yaranmışdı. Ancaq Vladimir Putin üçüncü dəfə prezident seçildikdən sonra bəlli oldu ki, o, Rusiya iqtisadiyyatının modernləşdirilməsi fürsətini əldən verib... Ukraynada baş verən hadisələr Rusiyanın gücünü yox, gücsüzlüyünü göstərir. Bu fakt bir daha əyani şəkildə nümayiş etdirdi ki, Rusiyanın kobud gücdən başqa yaxın qonşularını öz təsir dairəsində saxlaması üçün başqa bir vasitəsi yoxdur ", alman qəzeti yazır.

"Dövlətin iqtisadiyyata müdaxiləsi investisiya mühitinə əlavə problemlər yaratdı. İqtisadi böhrandan əvvəl də Rusiya iqtisadiyyatı müsbət inkişaf tendensiyaları ilə zəngin olmamışdı. İndi isə vəziyyət daha pisdir və getdikcə pisləşəcəyi də kimsəyə sirr deyil. Mənfi dinamika ortadadır. Rubl alıcılıq qabiliyyətini sürətlə itirir, inflyasiya yüksəlir, iri kapital Rusiyadan kənara axır. Üstəlik neftin qiyməti də kritik həddə aşağı düşməkdədir. Əgər nəzərə alsaq ki, Rusiya büdcəsinin ən azı yarısı məhz neft satışından gələn vəsaitlər hesabına formalaşırdı, bu ölkənin perspektivi xeyli dumanlı görünür". Təhlil yazısında o da vurğulanır ki, prezident Putin həmişə xüsusi məmnunluqla qeyd edirdi ki, o, Rusiyanı 90-cı illərin xaosundan qurtardı. Enerji qiymətlərinin aşağı qiymətləri bu xaosa təkan vermişdi. Yüksək inflyasiya və ucuz rubl Rusiyanı bataqlığa dartıb aparırdı. Qəzetin qənaətinə görə bütün bu mənfi amillər yenidən Rusiyanı öz ağuşuna almaqdadır.

Qəzet Rusiyanın daxili həyatında baş vermiş önəmli məqamlara da diqqət ayırır: "Rusiya vətəndaşları üçün vəziyyət daha bədbin görünür. Hökumət bütün üsullarla vətəndaş cəmiyyətinin işartılarını sıradan çıxarıb, 2011 və 2012-ci illərdəki seçki saxtakarlıqlarını ört-basdır etmək üçün Putin başqa yol tapa bilmədi. Nəticədə Dövlət Duması repressiv qanunlar qəbul etməli oldu. Rusiyanın xüsusi xidmət orqanları isə yad fikirli vətəndaşlara qarşı qorxu doğura biləcək vasitələri işə saldı. Rusiyada demokratiya istəyən qüvvələr arasında parçalanma yaratmaq üçün müxtəlif təxribatlar həyata keçirildi". Yazıda o da vurğulanır ki, Rusiya elə bir ölkədir ki, orada hakimiyyət dəyişikliyi bir qayda olaraq qəfildən baş verir. Putinin şəxsiyyətinə pərəstiş amilinin arxasında Rusiyada tarixən mövcud olmuş iqtidara inamsızlığı ört-basdır etməyə çalışırlar. Bu isə bəzən təlatümlərə gətirib çıxarır.

**Yazının sonunda deyilir ki, bütün bunlara rəğmən Putinin iqtidardan getməsi Rusiyaya yaxşı heç nə vəd etmir. Çünki ortada elə bir alternativ qüvvə yoxdur ki, bu ölkədə azadlıq və demokratiyanın inkişafına xidmət edə bilsin. Rusiyada mövcud olmuş bütün mütərəqqi qüvvələr demək olar ki, məhv edilib, yerdə qalan marginal qruplar da sıradan çıxarılmaqdadır. Belə bir fonda Putinin gedişi Rusiya üçün fəlakət olardı.**

❑ **Elbəyi HƏSƏNLİ**

# Müstəqilliyimizə ən böyük təhlükə



**Zahid SƏFƏROĞLU**
zsafaroglu@gmail.com

**Azərbaycan, şükürlər olsun ki, öz müstəqilliyinin 23-cü ildönümünə də gəlib çıxdı. Ötən illər ziddiyyətli və taleyüklü hadisələrlə zəngin olsa da, bir yeganə təsəllimiz var: o da budur ki, olduqca həssas və mürəkkəb coğrafiyada yerləşməsinə rəğmən, Azərbaycan öz müstəqilliyini qoruyub-saxlamaqda davam edir.**

Bir xalq olaraq bu, bizim ən böyük nailiyyətimiz, sərvətimiz sayılmalıdır. O ayrı məsələ ki, 23 illik müstəqillikdən sonra sadə xalqın güzəranı ölkənin iqtisadi qüdrətinə, onun sərvətlərinə adekvat deyil, əsrin təxminən 1/4-ə bərabər bir zaman kəsimində ölkədə demokratik idarəçilik hələ də bərqərar olmayıb və s.

Ancaq dərhal etiraf edək ki, suverenliyimizin və müstəqilliyimizin önəmi ilə müqayisədə bunlar strateji yox, taktiki məsələlərdir və dövlət sükanına nə vaxtsa ədalətli bir hökumətin sahib çıxması yetər ki, həmin problemlər qısa zamanda yoluna qoyulsun.

Yəni at-araba məsələsi. Ayrı sözlə desək, əgər "atımız" sağlam və işlək vəziyyətdədirsə, yerdə qalan işlər də düzələcək, qaydasına qoyulacaq və mənzil başına çata biləcəyik. Yoxsa ki, "atımız" - müstəqilliyimiz əldən gedəndən sonra "arabamız" - ölkədə demokratiya, rifah kimə lazımdır?

**Bəzən belə fikir səslənir ki, əşi, Tacikistan, Türkmənistan da öz müstəqilliyini qoruyub saxlayırsa, Azərbaycanın bunu bacarması niyə də böyük hadisə hesab edilsin? Məsələ də ondadır ki, Azərbaycan Rusiya və Qərb (ABŞ) üçün Tacikistan və ya Türkmənistan dəyərində dövlət deyil. Tacikistan Moskvanın, Vaşinqtonun nəyinə gərəkdir? Amma Azərbaycan...**

Azərbaycan böyük bir regionda Rusiya-Qərb (Amerika) qarşıdurmasının taleyini həll edəcək bir statusa sahibdirsə, illərdir "dava edən fillərin ayağının altında ot olmaq" kimi çox təhlükəli perspektivlə qabaq-qənşərdisə, digər bu kimi ağır sınaqlarla üz-üzədirsə, o zaman onun öz müstəqilliyini saxlaması gerçəkdən də asan deyil. Hər halda, Tacikistandan, Türkmənistandan qat-qat çətindir.

Sadalanan səbəblərdən Azərbaycan indi sanki 23 il önceki təhdidlərlə təkrar qarşı-qarşıya gəlib. Müstəqilliyimiz növbəti tarixi və ağır sınaqdan keçməkdədir. Doğrudur, ötən illər ərzində ölkə iqtisadi-energetik müstəqilliyini pis-yaxşı təmin edib. Bir ölkənin öz suverenliyi qoruyub saxlaması üçün bu amilin əhəmiyyəti az deyil.

**Ancaq əfsuslar olsun ki, Azərbaycan 23 ildə siyasi müstəqilliyinə tam nail ola bilməyib. Ona görə ki, hələ də ərazisinin 20 faizində Konstitusiya və qanunları qüvvədə deyil. Ərazisində xarici işğalçı qüvvələrin mövcud olduğu dövlətin isə klassik anlamda siyasi müstəqilliyə çatdığını söyləmək yanlışdır.**

Ancaq bu gün Azərbaycana ən böyük təhlükə heç də Qarabağ məsələsindən, yaxud Rusiyanın təhdidlərindən qaynaqlanmır - sonucu iki məsələ enində-sonunda xalqın və hakimiyyətin birliyi ilə çözüləcək, buna inanıq. Ən qorxulusu xalqın 23 illik gənc dövlətinə qarşı gizli etinasızlığı, hətta inamsızlığı, bu fonda isə ölkədə Rusiyayönlü "5-ci kolonçu"ların baş qaldırmasıdır.

Xub, belə durumun yaranmasında hakim nomenklaturanın günahı danılmazdır: ölkədə illərdir hökm sürən hüquqi dərəbəylik, rüşvət-korrupsiya sisteminin yaratdığı haqsızlıqlar, böyük neft dollarlarının balaca bir zümrənin cibinə axması gerçəkdən, cəmiyyəti bezdirib, qəzəbli edib və yekun olaraq müstəqillikdən əhəmiyyətli dərəcədə iyrəndirib.

Azərbaycanı sevməyən, onun müstəqilliyini həzm edə bilməyən müəyyən məkrli dairələrə də elə bu, lazım deyilmi? Onlar hazırkı durumdan məharətlə istifadə edərək, mövcud ağır vəziyyətin Azərbaycanın müstəqillik qazanması ilə əlaqəli olduğu fikrini insanların beyninə yeritməyə çalışırlar. Və nə yazıq ki, buna xeyli dərəcədə nail də ola biliblər. Halbuki, pis mollaya görə məsciddən incimәzlər.

**Məsciddən küsməyək. Çünki axundlar gəldi-gedərdi, xalqa qalan isə həmişə məscid olacaq.**



# Gəlin futboldan danışmayaq

Samir SARI

**Deyirlər, qarğış küt balta kimi bir şeydir, vurarsan, vurarsan, bir gün kəsər. Tənqid də elədir, döşəyərsən, döşəyərsən, bir gün heç nəyi həll eləməsə də, ya tənqidçini tutub içəri qoyarlar, ya da bezər, tənqid olunanı bayıra atarlar.**

Demirəm ki, milli yığmamızın baş məşqçisi Berti Foqtsu bizim tənqidlərimiz yıxdı. Ola bilər, onun istefaya getməsində və ya göndərilməsində bu tənqidlərin də müəyyən rolu olub. Zənn edirəm ki, fon Foqtsun acı sonunu kompleks amillər gətirib. Burada tənqidlər də vardı, küt balta kimi qarğışlar da, kəsici-deşici alətlərdən iti söyüşlər də. Ən ümdəsi isə milli komandanın son uğursuzluğuE

Əgər Berti Xorvatiyadan qələbə ilə dönsəydi, yəqin ki, indi heykəltəraşlara onun büstünün yonulması barədə göstəriş verilmiş olardı. Cənabının heç-heçəsinin də qabağında durmaq olmazdı. Amma böyük hesablı məğlubiyyət elə şeydir ki, yiyə duranı yoxdur, hamı istəyir ki, günahı kiminsə belinə yükləyib canını qurtarsın.

Budur, indi partapart proqnozlar verilir, versiyalar irəli sürülür: millinin yeni baş məşqçisi kim olacaq? Hərə bir şey deyir, rəy bildirir. Məndən tutmuş mənəcən hamı ağıllıdır, hamı futbol bilicisidir, nə deyirik, odur. Bir daha sübut olunur ki, bu ölkədə futbolu, bir də siyasəti hamımız bilirik, intəhası, nəyə görəsə bizim müdrik məsləhətlərimizə qulaq asan yoxdur.

Heç Mişel Platini də futbolu bizim qədər bilməz, "Gəlin futboldan danışaq" kitabı yazmaqla deyil ki. Nə bilir Platini? Platininin bildikləri keçmişdə qalıb. İndi onun bildiyi kimi futbol oynayan yoxdur, siz futbolu bizdən soruşunE

Baxın, Türkiyədə futbol şərhçiləri 60-70 yaşlı kişilərdir, bizdə isə 25-30 yaşlı gənclər. Amma bizimkilər daha dəqiq analiz verirlər, sadəcə bunların analizini saya salan, proqnozlarını qoz qabığına alan yoxdur.

Məsələn, şərhçilərimiz hələ neçə vaxtdan bəri deyirdilər ki, Foqtsdan sonra millinin başına Qurban keçməlidir, amma o, bundan imtina edəcək, çünki "Qarabağ"dakı uğur seriyasının yarımçıq qoyub bataqlığa girmək istəməz.

Budur, Qurban bəy millini çalışdırmaqdan imtina edib. Düz eləyib. Əgər o, millinin başına keçsəydi, bir neçə oyundan sonra onun xarizması paxıl yeniyetmələr tərəfindən gecə vaxtı cızıq-cızıq edilmiş bahalı avtomobilin gününə düşəcəkdi. Şərhçilər də deyəcəkdilər, bu da sizin tərifli Qurbanınız, əlindən bir iş gəlmirmişE

Bir azdan başlayacaqdılar ki, Qurban istefaya getməlidir. O da Berti Foqts kimi üzünə salıb direşməyəcəkdi, ifallı adamdır, ilk tələbdə millidən ayrılacaqdı. Beləcə, özünə də ziyan olacaqdı, "Qarabağ"a da, milli komandaya da.

Məsələ belədir ki, bu saat milliyə Mourinyonu da gətirsək, xeyri yoxdur. Karlos Alberto Torres gəlmişdi də, gördükE Onun vaxtında evimizdən çıxıb stadiona gedə bilmirdik. Millimiz qolları jımıx yerinə yeyirdi.

Amma bir futbol bilicisi olaraq mənim də AFFA rəhbərliyinə bir neçə təklifim var. Gəlin, milliyə baş məşqçi olaraq Maradonanı gətirək. Papanində, Yasamalda ev də verərik, nəşəsini çəkə-çəkə yaşayar. Düzdür, onun qara qəpiklik məşqçilik bacarığı yoxdur, amma adı bəsdir. Ən azı ona görə stadion milli komandanın oyunlarında dolar, millət futbol əfsanəsini canlı-canlı görmək üçün stadiona axışar. Kim bilir, bəlkə futbola diqqətin bu qədər artmasından vəcdə gələn milli oyunçularımız qızışıb qol-zad da vurarlar.

Yox, Maradona sevdası alınmasa, Zinəddin Zidanı gətirmək olar. Böyük ustadır, öyrədə biləcəyi çox şey var. Bizimkilər ondan heç nəyi öyrənməsələr də rəqibin sinəsinə kəllə qoymağı öyrənərlər. Yadınızdadırsa, 2006 mundialında Zinəddin "ana-bajı" söhbətinə görə italyan Materassini meydançada böyrü üstə qoydu.

O da olmasa, ən yaxşısı milli komandanı buraxmaq, bir neçə il beynəlxalq yarışlardan imtina etmək, futboldan danışmamaqdır. Özümüzü biabır eləməyin mənası yoxdur. Myanma futbolu ilə məşhur deyil, biz də elə olarıq (bu cümlənin siyasi mənası yoxdur, yeri gəlsə, biz Myanmadan balaca ölkə deyilik).

**Axırıncı təklifin zarafat tərkibi sıfıra yaxındır, ciddi deyirəm.**

# Müsavatçı professor Müsavata alternativ yaratmadığını bəyan etdi

## Adil Qeybulla: "Arif Hacılıdan narazı deyiləm, o, kifayət qədər təcrübəli siyasətçidir"

**Müsavat Partiyasının üzvü, professor Adil Qeybulla və başqanlığa keçmiş namizəd Səxavət Əlisoy "Siyasi Dialoq və İslahatlar Mərkəzi" (SDİM) adlı yeni qurum yaradıblar. Bu barədə onlar oktyabrın 16-da rəsmi məlumat yayıblar. Mərkəzin sədri Adil Qeybulladır. Adıçəkilən müsavatçıların Müsavat Partiyasında qurultaydan sonrakı gərginliyin getdiyi bir vaxtda yeni təşkilat yaratmaları birmənalı qarşılanmayıb. Mediada bu barədə xəbər "Arif Hacılıdan narazılar yeni təşkilat yaratdı" başlığı ilə gedib.**

**Adil Qeybulla isə dünən "Yeni Müsavat"ın suallarına cavabında bildirib ki, yaratdıqları Mərkəzin Arif Hacılıya qarşı və ya Müsavata alternativ olduğu iddiaları doğru deyil:** "Yaratdığımız Mərkəzin Müsavat Partiyasına aidiyyəti yoxdur. Yaratdığımız Mərkəz Müsavata alternativ ola bilməz. Çünki Müsavat siyasi partiyadır, Mərkəz isə QHT-dir. Mən Müsavat Partiyasında qalaraq bu Mərkəzdə fəaliyyət göstərəcəyəm. Bizim təşkilatı "Arif Hacılıya asi olanlar" kimi təqdim ediblər. Amma qətiyyən belə deyil. Mən Arif Hacılıdan narazı deyiləm. Arif Hacılıdan fərd kimi kimsə narazı deyil. Arif Hacılı kifayət qədər təcrübəli siyasətçidir. Burada narazılıq seçkilərdə hansısa prosedur pozuntularındandır. Bunun üçün də sorğular verilib. Sorğuların cavabı gözlənilir. Mən seçki prosesində, təşkilat komitəsində iştirak eləməmişəm. Ona görə də irad bildirməyə özümü haqlı saymıram.

Bu Mərkəzin elan edilməsinin indiki vaxtda düşməsi müəyyən suallar doğura bilər. Amma bir şeyə aydınlıq gətirmək istəyirəm ki, belə bir Mərkəzi yaratmaqla bağlı ideya hələ İctimai Palata yaranan ərəfədə var idi. Hətta bu barədə İsa Qəmbərə də məlumat vermişdim. Dedi ki, yaradın görüm nə yaradacaqsınız. Məndə əslində bu prosesi 2005-ci ildən aparmışam. O vaxtdan bəyan edirəm ki, siyasi dialoqa ehtiyac var. Məsələlər siyasi dialoq variantı ilə həll edilməlidir. O vaxtlar partiyaların elə dövrü idi ki, siyasi dialoqu hətta xəyanət kimi



dəyərləndirirdilər. Bu və digər məsələlərə görə də mən nəzərimdə tutduğum ideyanı rəsmiləşdirməmişdim. Təşkilatı indi elan etməyimizin də səbəbi var. Belə ki, şəxsən mən Müsavat Partiyasının heç bir seçkili orqanına namizədliyimi vermədiyim üçün heç bir seçkili orqanda təmsil olunmuram, partiyada vəzifə də tutmuram, sıravi üzvəm və buna görə də ictimai fəaliyyət göstərmək üçün təşkilatı elan etməyə qərar verdik. Mərkəzin Nizamnaməsi təxminən il yarımdır mənim kompüterimdədir. Yəni bu məsələ yeni deyil".

**A.Qeybulla qeyd etdi ki, onlar islahat tərəfdarıdır:** "Mən əvvəl də iqtidarla dialoq məsələsinin gündəmə gətirəndə dostlarım bunun xəyanət olduğunu deyirdi. Dialoqun əks tərəfi inqilabdır. Bizim yeni təşkilatın siyasi yönümü dialoq aksiyasıdır. Hökumətin ictimai həyatın ayrı-ayrı sahələrindəki nöqsanlarını qeyd edəcəyik. Bu islahat hakimiyyətə gəlmək istəyən yox, islahat tərəfdarı olan təşkilatdır".

**A.Qeybulla Müsavat Partiyasının daxilində baş verən proseslər barədə də fikirlərini açıqladı:** "Mənim yanaşmam odur ki, partiyada heç bir fraksiya, qrup olmamalıdır. Çünki bu cür məsələlər ümumiyyətlə təşkilatı zəiflədən amildir. Bu barədə mən məqalə də yazmışam. Qubad İbadoğlunun başqanlığına namizədliyini müdafiə eləməkdə arqumentin də ondan ibarət idi ki, onun beynəlxalq əlaqələrindən Müsavat üçün istifadə eləmək olar. Seçim oldu və nəticələr bəllidir. İndi mən hazırkı vəziyyətdə barışın tərəfdarıyam. Hesab edirəm ki, konsensus olmalıdır. Konsesusa gətirmək üçün əsas şəxs yığmalıdır hər kəsi bir mexanizm müəyyənləşməlidir. Yoxsa ki, hər iki tərəfin kəskin bəyanatlarla çıxış etməsi Müsavat əxlaqına yaraşmır.

Partiyadakı indiki rəhbərliyin hazırkı durumdan tək çıxış yolu konsensus əldə etmək, qarşı tərəflə danışıqlara getməkdir. Narazılıq edənləri dinləyib problemin həlli yolunu tapmağa çalışmaq lazımdır. Mən bu belə bir çalışmaların olduğunu görmürəm".

**A.Qeybulla onun adının narazılar qrupunun təmsilçisi kimi hallanmasının da əsassız olduğunu vurğuladı:** "Axı hansı faktla bunu əsaslandırırlar? Ortada bir fakt, məntiq yoxdur. Sadəcə, mən Qubad bəyi dəstəkləmişəm. Bunun üçün də arqumentlərimi ortaya qoymuşam. Qubad İbadoğlunu dəstəkləmək kiməsə qarşı olmaq, kimdənsə xoşu gəlməmək demək deyil. Başqan olmaq üçün xeyli müsavatçının mənəvi haqq var, layiqdirlər. Namizədlərin dördünü də mən başqanlığa layiq hesab etmişəm. Seçkidə isə hər kəs bir nəfəri dəstəkləməlidir. Mən də dəstəkləmişəm. Seçki artıq arxada qaldı. Ortada olan narazılıqları isə yoluna qoymaq üçün çoxlu variantlar var, problemi həll eləmək olar".

**A.Qeybulla gənclərin istefasını tələskənlik hesab edir:** "Onlar çox istedadlı gənclərdir. Biraz tələsdilər. Onların getməyi yaxşı partiya üçün hal deyil. Bunun qarşısını almaq lazım idi. Onu da deyim ki, bu proses koordinasiya olunmur".

**"Sizin özünüzün partiyadan istefa verməyiniz ehtimalı varmı?" sualına isə A.Qeybulla belə cavab verdi:** "Ümumiyyətlə partiyada əsas məsələlərdən biri siyasi komandadır, münasibətlərdir. Bu münasibətlər sistemi bəzən elə vəziyyətdə olur ki, sən oradan artıq ruhən çıxdaş olunmuş olursan. Gənclərin də məsələsi təxminən buna bənzədi. Bəzən insanları elə vəziyyətə salırlar ki, sən özünü orada artıq hesab edirsən. Ona görə də hesab edirəm ki, insanlara münasibətdə onların heysiyyatı ilə oynanmamalıdır".

❑ Etìbar SEYİDAĞA

# Akif Nağıdan Avrasiya İttifaqı açıqlaması

## QAT sədrinin fikrincə, Azərbaycan yeddi rayonun qaytarılması müqabilində bu ittifaqa qoşulsa udar, amma...

**"Yeddi rayonun Azərbaycana qaytarılması təklifi qeyri-rəsmi səviyyədə səslənir. Yalnız politoloqların dilindən eşitmək olur. Azərbaycan Qarabağsız Avrasiya İttifaqına qoşulmağa razı olmayacaq".**



Bu sözləri Qarabağ Azadlıq Təşkilatının (QAT) sədri Akif Nağı "Yeni Müsavat"a açıqlamasında qeyd etdi. QAT sədrinin işğal olunmuş yeddi rayonun qaytarılması müqabilində Azərbaycanın Avrasiya İttifaqına (Aİ) qoşulması haqda səslənən təkliflərə münasibəti belə oldu:

"Azərbaycanın qoyduğu şərt ondan ibarət idi ki, Ermənistan Avrasiya İttifaqına Dağlıq Qarabağsız daxil olsun. Minskdə imzalanan sənəddə bu tələb yerinə yetirildi. Azərbaycan isə Qarabağla Avrasiya İttifaqına qoşulmağa razılaşa bilər. Çünki BMT-yə üzvlük də Qarabağla birlikdə olub. Ancaq Avrasiya İttifaqına üzvlük və yeddi rayonun qaytarılması haqda rəsmi təklif yoxdur. Bu yalnız mətbu kluarlarda müzakirə olunur.

Nəticə etibarı ilə ölkəmiz bu ittifaqa qoşulsa, mütərəqqi dünyadan uzaqlaşıb, totalitar idarəçilik olan dövlətə yaxınlaşacaq. Ancaq bu ittifaqın təşəbbüskarlarının sayəsində ərazi bütövlüyümüz bərpa olunacaqsa, Azərbaycan Qarabağla bir yerdə Avrasiya İttifaqına qoşula bilər.

Bu halda ölkəmiz udacaq. Düzü inandırıcı deyil ki, bu razılaşma olsun. Əslində arzuolunan perspektiv də deyil. Amma Avrasiya İttifaqının ömrünün uzun olmayacağını nəzərə alsaq, bu mərhələdə bir uduş əldə edə bilərik".

A.Nağı Ermənistanın belə bir saziş əldə olunacağı halda müqavimətini istisna etmir: "Lakin nəzərə almaq lazımdır ki, Ermənistan Rusiyadan asılıdır və razılaşmaqdan başqa çarəsi qalmayacaq".

Xatırladaq ki, son bir həftə ərzində Rusiya mediasında ard-arda rus politoloqları tezliklə Azərbaycanın işğal altında olan yeddi rayonunun qaytarılması məsələsini gündəmə gətirib. Onlar bu məsələnin qarşılıqlı razılaşma əsasında mümkün olduğunu bildirib.

Xarici İşlər Nazirliyinin mətbuat xidmətinin rəhbəri Hikmət Hacıyev isə Azərbaycanın mövqeyinin birmənalı olduğunu bildirib: "Azərbaycanın ərazi bütövlüyü heç bir halda danışıqlar mövzusu ola bilməz".

❑ E.SALAMOĞLU

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi



YENİ MÜSAVAT
N 257 (5966) 18 oktyabr 2014

**MDB-nin Minsk sammitimdə Ermənistan rəsmən Avrasiya İqtisadi Birliyinin (AİB) üzvü oldu. Əslində Birliyə daxil olan digər 3 ölkə ilə heç bir quru, dəniz əlaqəsi, bütövlükdə isə iqtisadi dəyəri olmayan işğalçı ölkənin yeni təşkilata qoşulması heç nəyi dəyişmir. Sadəcə olaraq Moskva "mən harda, satellitlərim də orda" məntiqi ilə hərəkət etdiyindən İrəvanın AİB-dən imtina eləməsi heç vaxt mümkün deyildi.**



# Ermənistan Qarabağa görə nonsens durumda

## İşğalçı ölkə Rusiyaya yaxınlaşdıqca onun problemi öz xeyrinə həll etmək imkanları artmaq əvəzinə azalır; altdan-altdan Qərblə münasibətləri düzəldəcəyi barədə anonslar edən İrəvan özünə yeni arbitr axtarışındadır...

**Beləcə, Ermənistan daha möhkəm boyunduruqla öz ağasına bağlanmış oldu.** İndi o, Rusiyanın ovucunun içindədir. Bir sıra analitiklər bu səbəbdən Kremlin bundan sonra Ermənistanla "xırda pul" kimi daha rahat davranacağını proqnoz edirlər. Söhbət təbii ki, Azərbaycanı tovlayıb AİB-ə qoşmaq üçün ermənilərin "xidmətlərindən", ənənəvi "erməni kartı"ndan gedir.

**Əlbəttə ki, Azərbaycanı şirnikləndirməkdən ötrü Rusiyanın Ermənistanı işğal elədiyi bir neçə rayonu boşaltdırmanı nəzərdə tuturuq.** İndi bu iş Moskva üçün qat-qat asan reallaşa bilər, nədən ki, təcavüzkar ölkə qeyd edildiyi kimi, öz "müstəqilliyi" tarixində heç vaxt olmadığı qədər Rusiyadan siyasi-hərbi asılılıqdadır.

**Bu mənada əslinə qalsa, Ermənistan Putinin Avrasiya layihələrinə qoşulmaqla, Kremlə daha da yaxınlaşmaqla Qarabağ və təhlükəsizlik məsələlərində yeni və xüsusi bir üstünlük əldə eləməyib.** Əksinə, Azərbaycanla bağlı Kremlin daha sərt təzyiq ehtimalı ilə üzləşib. Artıq vurğulandığı kimi, Ermənistanın Azərbaycan qədər Rusiya, AİB-dən ötrü elə bir mühüm iqtisadi dəyəri yoxdur ki, ondan istifadə edib Moskvanın təzyiqlərinə müqavimət göstərsin.

***

Bununla belə, bəzi təxminlərə görə, Sərkisyan daxildə ciddi etirazlarla üzləşməmək və öz hakimiyyətini qorumaq üçün müəyyən mənada Putinin "üzünə ağ olmaq" zorunda qala bilər.

**"Serj Sərkisyan Putini qıcıqlandırır. Bizim Moskvadakı qaynaqlarımız deyir ki, Sərkisyanın qeyri-sabitliyi Rusiya prezidentini qıcıqlandırır".** Bunu xarici siyasət, təhlükəsizlik və beynəlxalq əlaqələr sahəsində tanınmış amerikalı ekspert Ariel Koen deyib. Onun sözlərinə görə, Putinə Ukrayna konfliktini Qarabağ nizamlanması ilə kompensasiya eləmək lazımdır: "Başlanğıc üçün vacibdir ki, Azərbaycan qərbyönlü mövqeyindən uzaqlaşdın. Bundan ötrü isə vacibdir ki, Ermənistan işğal altındakı bir neçə rayonu qaytarsın və sonra isə məsələnin real həllinə yaxınlaşsın. Strateji hədəf - Azərbaycanın AİB-ə qoşulmasıdır. Bunun üçünsə Rusiya Dağlıq Qarabağı Azərbaycana qaytarmalıdır. Əks təqdirdə Bakı siyasi oriyentasiyasını Moskvaya dəyişməyəcək. Sərkisyan və onun Qarabağ klanı isə bu ssenari önündə manеə kimi görülür".

**Politoloqun dediyinə görə, Putin bu məsələni Sərkisyanla müzakirə edib, lakin sonuncunun güzəştsizliyi onu güclü şəkildə qıcıqlandırır.**

***

Proseslərin hara apardığını və Rusiya tərəfdən təzyiqlərin artacağını anlayan rəsmi İrəvan isə altdan-altdan Qərbdən "istinadgah" tapmağa çalışır. Məsələn, bu arada bəlli olub ki, Avropa Parlamentində ermənipərəst "Dağlıq Qarabağ qrupu" fəaliyyətə başlayıb.



Xəbərdə deyilir ki, oktyabrın 15-də Avropa Parlamentində fəaliyyətdə olan "Ermənistanın Avropadakı dostları" tərəfindən "Dağlıq Qarabağ qrupu"nun təqdimatı olub. Bu qrup Avropa dəyərlərinin Qarabağ ərazisində yayılmasına yardım edəcək. Ərazidə vətəndaş cəmiyyətinin və demokratiyanın inkişafına təkan verəcək.

Agentlik bildirir ki, bəzi deputatlar elan olunmuş qrupa daxil olmağa hazır olduqlarını bəyan ediblər. Bu qrupa isə Avropa Demokratlar Partiyasından Frank Enqel rəhbərlik edir. Qrup Avropanın siyasi mərkəzləri ilə Dağlıq Qarabağ arasında əlaqələri gücləndirməyə səy edəcək. Qeyri-rəsmi şəkildə isə qrup Dağlıq Qarabağın müxtəlif səviyyəli tədbirlərdə iştirakına yardım etmək fikrindədir.

Avropa Parlamentində elə düşünürlər ki, qrup Avropanı təmsil edən məmurların Dağlıq Qarabağa səfərlərin təşkil edəcək. Bundan başqa bu qrupun Minsk Qrupunun işinə yardım edəcəyi vurğulanır. Qrupun rəhbəri Frank Enqel bildirib ki, "çoxlarının xəbərsiz olmasına baxmayaraq, Dağlıq Qarabağ demokratik respublikadır".

Beləcə, aydın olur ki, Ermənistanın Avropadakı "dostları" bu hərəkətləri ilə Azərbaycana düşmənçilik etmiş olurlar. Yəqin ki, rəsmi Bakı bu olaya münasibət bildirəcək.

***

**Xatırladaq ki, Avropa Parlamenti Qarabağla bağlı olduqca ədalətli, Ermənistanı işğal elədiyi Azərbaycan torpaqlarından dərhal çıxmağa çalışan qətnamə qəbul edib. Təəssüf ki, digər mötəbər beynəlxalq təşkilatların analoji sənədləri kimi bu qətnamə də yerinə yetirilməmiş qalır. Bunun bir səbəbi də ermənilərin xaricdəki lobbi təşkilatlarıdır. Rəsmi Bakı bu sahədə tilsimi tezliklə qırıb vəziyyəti öz xeyrinə dəyişməsə, Qarabağın Fələstin məsələsinə çevriləcəyi ehtimalı güclənə bilər.**

# "ABŞ Rusiyaya münaqişənin təkbaşına həllinə imkan verməyəcək"

## Zahid Oruc: "Vasitəçilər artıq taktikalarını dəyişiblər..."

**Azərbaycan və Ermənistan prezidentlərinin bu ayın sonuna, Parisdə nəzərdə tutulan görüşün nəticələri ilə bağlı nikbin bəyanatlar çoxalıb. Son olaraq Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov bu mövzuda danışarkən hətta "Böyük Sülh Sazişi" üzərində işləməyin vaxtı çatdığını söyləyib.**

Bir sıra ekspertlər də Fransa prezidenti Fransua Ollandın vasitəçiliyi ilə baş tutacaq Paris görüşünü nizamlama prosesində hansısa "ayırıcı xətt" kimi qiymətləndirir, Qərbin nəhayət ki, münaqişənin həllində fəallığı öz əlinə alması, Rusiyadan önə keçməsi üçün mühüm məqam sayırlar. Ehtimallara görə, problemin həllini irəli aparmaq üçün Paris görüşü daha münbit platforma rolunu oynaya bilər.

Təbii ki, Rusiya da boş durmayıb və prosesi diqqətlə izləyir. Eyni zamanda təşəbbüskarlığın Qərbin əlinə keçməməsi üçün öz planlarını qurur. Bu planlarda əsas yer şübhəsiz ki, Kremlin satelliti Ermənistana ayrılıb. Moskva yüzdə yüz əmindir ki, istənilən "fors-major" vəziyyətlərdə məhz işğalçı ölkənin əli ilə Qərbin sülh anlaşmasını, yaxud "Böyük Sülh Sazişi"ni poza biləcək.

Hərçənd, ixtilafın həlli erməni tərəfinin də maraqlarına cavab verir. Çünki erməni toplumunda və siyasi dairələrində də artıq möhkəm əminlik hasil olub ki, Rusiya Dağlıq Qarabağ probleminin həllində maraqlı deyil, onu yalnız Azərbaycanla Ermənistanı öz siyasi-hərbi nüfuz dairəsində saxlamaq düşündürür. Ancaq təəssüflər olsun ki, belə bir dərk hələ ki, münaqişəyə yanaşmada real olaraq özünü göstərmir. Təcavüzkar ölkə məsələyə yanaşmada maksimalist, güzəştsiz mövqeyini saxlayır. Sadalanan amillər sözsüz ki, Paris danışıqlarının əhəmiyyətini azaldır...



Zahid Oruc

"Elmar Məmmədyarovun son bəyanatı göstərir ki, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı danışıqlar yeni bir mərhələyə qədəm qoyur". Bu barədə salamnews-a açıqlamasında **deputat Zahid Oruc** deyib. O, qeyd edib ki, 13 il ərzində aparılan bütün məxfi danışıqların iflasa uğramasının bir neçə səbəbi olub.

**Z.Orucun sözlərinə görə, "Böyük Sülh Sazişi"ni hazırlayan vasitəçilər artıq taktikalarını dəyişiblər:** "Yəni onlar Dağlıq Qarabağın Ermənistanla əlaqəsi, köçkünlərin geri qaytarılması, Azərbaycanın unitar quruluşuna xələl gətirməyən birgə yaşayış modeli və s. elementlərdən ibarət böyük razılaşma sənədini hazırladıqdan sonra əsas konflikt doğuran müddəaları saxlamaq istəyirlər. Con Kerrinin Uels görüşündə iki dövlət başçısını görüşdürməsi isə göstərdi ki, Ağ Ev Qarabağı Rusiyanın təkbaşına həllinə imkan verməyəcək və qərbin Ukraynadakı məğlubiyyətinin əvəzini çıxmaq üçün Qafqazda yeni aktiv planların icrasına başlayacaq".

**Z.Oruc əminliklə bildirib ki, Fransua Olanddan sonra Barak Obamanın dəvəti ilə Vaşinqtonda prezidentlərin görüşü baş tuta bilər:** "Əgər Rusiya geosiyasi planları fonunda Azərbaycanın ərazi bütövlüyünü tam, yaxud qismən ödəyən şərtləri ortaya qoysa, qərb bunu Cənubi Qafqazdan sıxışdırıb çıxarılması kimi qəbul edəcək və Kremlə qarşı təxribatlara başlayacaq. Unutmamalıyıq ki, Dağlıq Qarabağ münaqişəsinin həllini nəzərdə tutan "Böyük Sülh Sazişi", iki xalqın referendumundan keçib razılaşdırılsa da, onun icrası 10 ildən az olmayan bir zamanda gerçəkləşdirilə bilər. Elmar Məmmədyarovun açıqlaması belə bir zərurəti ortaya qoyur ki, məxfi danışıqları xalqa açmaq və yeni şəraitdə dövlətin atacağı addımlara dair milli fikri hərəkətə gətirmək son dərəcə vacibdir".

YENİ MÜSAVAT
N 257 (5966) 18 oktyabr 2014




# Milli Məclisdə sədarətlə deputatlar arasında toqquşma

## Vahid Əhmədov 18 oktyabrın qeyri-iş günü elan olunması, müstəqilliyə səs verənlərə dövlət qayğısının göstərilməsini təklif etdi

**17 oktyabda spiker Oqtay Əsədovun sədrliyi ilə Milli Məclisin növbəti plenar iclası keçirildi. Cari məsələlərin müzakirəsində parlamentarlar çıxışlarında daha çox qarşıdan gələn Müstəqillik gününə diqqət çəkib müvafiq addımların atılmasına çağırış etdi. Ancaq digər təkliflər də səsləndirildi.**

**Deputat Asəf Hacıyev** dövlət xətti ilə xaricə ezamiyyətə gedən vətəndaşların işlədiyi yerlərdə daşınan əmlaka malik olduqlarını, lakin onların bu əmlakı gətirən zaman gömrük rüsumu ödədiklərini xatırladıb, onlara güzəşt edilməsini təklif etdi. Azərbaycan Aqrar Universitetinin tələbələrinin sayının ildən-ilə azaldığını deyən A.Hacıyev kənd təsərrüfatına yardım üçün bu universitetə kvota ayrılmasını istədi.

Deputat Bakıda keçirilən humanitar foruma gələn qonaqlardan birinin əşyalarının hava limanında, özü də VİP-də monitordan keçirilməsindən təəccübləndiyini dedi: “Dünyanin heç bir ölkəsində belə şey yoxdur”. (Xatırladaq ki, “Yeni Müsavat” bununla bağlı silsilə material dərc etmişdi-E.P.)

**Zahid Oruc** Türkiyənin İŞİD-lə mübarizədə təkbaşına hərəkətə keçməsinə qarşı olduğunu bildirdi: “Qərb dairlələrini ilk növbədə əməliyyatlara başlamağa, daha sonra isə bunu Türkiyədən tələb etməyə çağırırıq. Bu gün Eboladan bir neçə min adam ölübsə, 2010-cu ildən bəri həmin məkanda 300 mindən çox adam ölüb. Biz Türkiyənin soyuqqanlı davranışını müdafiə edirik. Hər hansı beynəlxalq müdaxilə olmadan ora Türkiyənin qoşun yeridilməsi bataqlığa düşməkdir”.

**Fərəc Quliyev** dövlət müstəqilliyi günü ilə bağlı spikeri və deputatları təbrik etdi. Həmçinin 18 oktyabrın qeyri-iş günü kimi qəbul olunmasına çağırdı: “Bu zalda SSRİ-nin saxlanmasının əleyhinə mərhum Heydər Əliyev də daxil olmaqla 43 deputat olub. Onların bəzilərinin ailə vəziyyəti, səhhəti ağırdır”. Bu mənada F.Quliyev spikerdən xahiş etdi ki, parlament onun keçmiş kolleqaları haqqında da düşünsün: “Onların təqaüdləri ilə bağlı qərar qəbul olunması yerində olardı”.

**Siyavuş Novruzov** isə dedi ki, ilk dəfə Azərbaycanın üçrəngli bayrağı məhz Naxçıvanda qaldırılmışdı, SSR sözü ilk dəfə Heydər Əliyevin rəhbərlik etdiyi Naxçıvan MR-də götürülmüşdü. Deputat Naxçıvana qəhrəman şəhər statusunu verməyə çağırdı: “Leninqradın müharibədə 3-4 il blokada şəraitində olmasına görə ora Qəhrəman şəhər statusu verildi. Naxçıvan 24 ildir blokada şəraitində yaşayır. Naxçıvanın 90 illiyi olduğuna , həm də müstəqilik bayramına görə parlament rəhbərliyi ilə məsləhətləşib hər hansı qərar verməliyik. Bu, Naxçıvanın düşmən qarşıdımnda qalmasına kömək edər”.

**Fazil Mustafa** da müstəqilik təbriki ilə bağışladı. Həmçinin Avropa Parlamentində Dağlıq Qarabağ ermənilərin dostları qrupunun yaradılması barədə addım atıldığını xatırlatdı: “Təklif edirəm ki, Azərbaycan parlamenti qurumu bu addımdan çəkinməyə çağırsın, kim ki, qərara dəstək olacaqsa, onların Azərbaycana gəlişi qadağan olunacaq”. F.Mustafa dedi ki, Ermənistanın Dağlıq Qarabağsız Avrasiya İttifaqına daxil olması məsələsi Azərbaycan prezidentinin düzgün siyasətini bir daha ortaya qoydu.

**Vahid Əhmədov** Müstəqillik günü ilə bağlı xalqı təbrik etdi: “İlham Əliyev bütün çıxışlarında Heydər Əliyev kimi Azərbaycanın müstəqilliyini önə çıxarır. Konstitusiya Aktını kimin imzalamasından asılı olmayaraq Azərbaycanın şanlı tarixidir. Mən də vaxtilə bu zalda müstəqilliyə səs verən insanlardan biri olduğum üçün 18 oktyabrın qeyri-iş günü elan olunması və silsilə tədbirlərinin keçirilməsinin tərəfdarıyam. Həmçinin xahiş edirəm müstəqilliyə səs verən, bu gün vəziyyəti ağır olan bizim keçmiş həmkarlarımıza, onların ailələrinə diqqət göstərilsin”.

**Qənirə Paşayeva** da Azərbaycanın ərazi bütövlüyünü pozan şəxslərin qarşısını almaq üçün işğal olunmuş ərazilərlə bağlı qanun layihəsini müzakirəyə çıxarmağı təklif etdi: “Orda birmənalı qeyd olunsun ki, Azərbaycanın ərazi bütövlüyün pozan şəxslərə Azərbayacvnın qapıları bağlı olacaq və onlar ölkəmizə daxil ola bilməyəcək. Gürcüstan da belə bir qanun qəbul edib”. Q.Paşayeva 1 və 2-ci qrup əlilliyi olan tələbələrin təhsil haqqı ilə bağlı güzəşt edilməsini də təklif etdi.

Fəzail Ağamalı bayram təbriklərinə qoşulmaqla yanaşı S.Novruzovun təklifini müdafiə etdi. Eyni zamanda professor Yaqub Mahmudovun İrəvanın Batum müqaviləsi əsasında Ermənistana verilməsi və Ermənistanın müqavilənin şərtlərini pozduğu üçün sazişin qüvvədən salınması barədə təşəbbüsünü xatırladıb bu məsələyə ciddi diqqət yetirməyə çağırdı: “Mən eyni zamanda bura bolşeviklərin xüsusi dekreti ilə Göyçə və Zəngəzurun Ermənistana verilməsi məsələsini də əlavə etmək istəyriəm. Bu isə Topçubaşovun böyük səyləri ilə Azərbaycanın 114 min kv.km-lik ərzisinə daxil olan Göyçə və Zəngəzuru Azərbaycandan qopardılar. Təklif edirəm ki, XİN-də xüsusi bir qrup yaradılsın və qaldırılan bu məsələnin həllində konkret addımlarını həyata keçirtsin”.

**Oqtay Əsədov** deputatların Avropa Parlamentindəki erməni qrupu ilə bağlı narahatlığını bölüşdüyün bildirdi: “Azərbaycan bütün beynəlxalq təşkilatların qəbul etdiyi qərarlara münasibət bildirib. Ancaq Avropa Parlamentinin qərarı barədə bir Avropa saytında xəbər yoxdur, yalnız erməni saytları məlumat yayıb, ona görə də tələsik mövqeyə ehtiyac yoxdur. Bir şeyi bilməliyik ki, dünyada ədalət prinsipi itib. Ancaq Rövşən müəllim, Qarabağ icması daha da aktiv olmalıdır”.

**Səməd Seyidov** Avropa Şurasının iclası, Avropa qurumlarının Azərbaycana münasibəti və həmkarı Asim Mollazadə ilə birgə ABŞ-ın Kaliforniya ştatına səfəri barədə danışdı.

“Hərbi qulluqçuların statusu haqqında” Qanunun müzakirəsi zamanı çıxış edən deputat Rafiq Məmmədhəsənov dedi ki, görüşdüyü hərbçilər ona telekanallardan şikayətləndi: “Deyirlər bütün günü yemək bişirilməsini göstərirlər, hərbi vətənpərvərliyə yer ayrılmır”. O, hərbçilərin həyat yoldaşının işə qəbul olunmasında güzəşt edilməsini də istədi: “Ancaq bunlar işə qəbul olunmaq əvəzinə test imtahanına göndərilir. Eyni zamanda təklif edirəm ki, cəbhə xəttində yaşayan gənclərin ali məktəbə qəbulu üçün müəyyən güzəştlər etmək olar”.

“Ölkədən getmək, ölkəyə gəlmək və pasportlar haqqında” qanunun müzakirəsi zamanı çıxış edən Sabir Rüstəmxanlı gündəliyə etiraz edib dedi ki, işimizin böyük hissəsi qanunlarda dəyişikliyə həsr olunur: “Bu dəyişiklik əhaliyə xeyirsən çox zərər vurur. Ölkəyə gəlib-gedənlər dəyişikliklərdən xəbərsiz olur deyə, qayıdanda böyük miqdarda cərimə olunur. Hətta tranzit gəlib-gedənləri yolda saxlayırlar ki, sən niyə 3-4 gün artıq qalıbsan. Azərbaycan əsilli adamlara da məhdudiyyət var, gəlib 1 aydan sonra getməlidir. Bəlkə adamlar gəlib burda 3-4 ay qalmaq istəyir. Ermənistanda hətta atası yarı rus, yarı iranlı olana gətirib ona vətəndaşlıq verir. Ermənistan kim xaricdən gəlib müraciət edirsə, ona vətəndaşlıq verir. Amma Rusiya, ya Ukraynada yaşayan bizimkilər geri qayıdanda problemlə qarşılaşır. Bu əlavələr bəzən onların vəziyyətini ağırlaşdırır”.

İclasa sədrlik edən **1-ci vitse-spiker Ziyavət Əsgərov** dedi ki, bu dəyişikliklər bizim qəbul etdiyimiz Miqrasiya Məcəlləsinə uyğun şəkildə edilir.

Elmira Axundova da insanların işini asanlaşdırmaq üçün təkliflərini səsləndirdi. Dedi ki, ölkəyə gələnlərin 3 gün ərzində qeydiyyata alınması barədə tələb qoymaq əlavə problemlər yaradır.

Z.Əsgərov isə “biz bu qanunlara əlavə heç nə yazmırıq” deyib deputata irad tutdu: “Əcnəbilərin qayğısına çox qalırsınız. Amma bizim vətəndaşlar xaricdə viza müddəti qurtaranda başlarına nə oyun açırlar, heç bilirsiniz? Onda açaq sərhədləri, camaat gəlsin, hə, nə olsun? Qonaqpərvərlik yaxşı şeydir, ancaq bunun da bir əndazəsi var. Biz ilk növbədə gərək öz vətəndaşlarımız haqqında fikirləşək, sonra əcnəbilər barədə?”

**Çingiz Qənizadə** isə dedi ki, prezidentdən gələn layihədə əcnəbilərin 3 gün ərzində deyil, 10 gün ərzində qeydiyyata alınması barədə məsələ əksini tapıb.

İclasda növbəti dəfə deputatlarla 1-ci vitse-spikeer Ziyafət Əsgərov arasında mübahisə oldu. Fazil Mustafa vitse-spikerin deputatların çıxışına reaksiyasını adekvat saymadı: “Ziyafət müəllim, xahiş edirəm, heç olmasa hüquqşünas həmkarlara qarşı ”qanunu bilmir, başa düşmür" kimi ifadələr işlətməyin. Ən azı bizim növbəti dəfə söz almaq imkanı olmadığı üçün xahiş edirəm bunu nəzərə alın".

Sabir Rüstəmxanlı da etiraz etdi: “Mənim hər hansı çıxışımın Milli Məclis sədrinin müavini tərəfindən populist adlandırılmasını qəbul etmirəm. Mənim heç bir çıxışım populist deyil. Mənə belə damğa vurulmasını qəbul etmirəm. Azərbaycanda son illərdə ev tikintisi ilə bağlı nə qədər insanlar aldadılıb? Guya öz içimizdə sığorta işi həll olunub, xaricə göndərdiyimiz firmalardan bunu tələb edirik? Kim bu fikirləri populizm hesab edirsə, vətəndaşlarımıza hörmətsizlik edir. Burdakı təkliflərin heç biri komitələrdə ciddi müzakirəyə çıxarılmır”.

Ziyafət Əsgərov isə qarşılığında S.Rüstəmxanlıya sərt tonda cavab verdi: “Sabir müəllim, siz Azərbaycan dövlətini ittiham edirsiniz. Mən iqtidar nümayəndəsiyəm, siz iqtidarı ittiham etməlisiniz, mən burda durub baxmalıyam?”

“Turizm haqqında” Qanuna əlavə və dəyişikliklər zamanı deputatlar müxtəlif qaranlıq məsələlərə aydınlıq gətirilməsini istədi. **Komitə sədri Ziyad Səmədzadə** sualları cavablandırsa da, aydınlıq yaranmadı.

**Aqil Abbas** də qanundakı anlaşılmazlıqdan danışdı və “Leyla Yunusa 5 illik viza təşkil edən Fransa səfirliyi mənə 20 gündür viza vermir” dedi. Ziyafət Əsgərovun müdaxiləsi isə maraqlı oldu: “Aqil müəllim, Fransa səfirliyindən viza almaq üçün gərək Leyla Yunus olasan, siz Leyla Yunus ola bilməzsiniz axı”.

**Sabir Rüstəmxanlı** isə “Qaçqınların və məcburi köçkünlərin (ölkə daxilində köçürülmüş şəxslərin) haqqında qanuna dəyişikliyin müzakirəsi zamanı təqdimata qarşı çıxıb: ”Bunlar köçürülmüş adamlar deyil, öz yurdlarından qovulmuş adamlardır. Məgər bu adamlar könüllü şəkildə köçüblər?"

“Məşğulluq haqqında” qanuna dəyişiklik zamanı iş ardınca aparılan şəxslərlə bağlı məsələnin rəsmiləşdirilməsi, fiziki şəxslərin vasitəçiliyinin qanuniləşdirilməsi məsələsi də gərgin müzakirələrə səbəb oldu.

Fazil Mustafa isə qanundakı məhdudlaşdırmalara qarşı çıxaraq dedi ki, ölkədə məhdudlaşdırma istiqamətində iş gedir: “Bu gün Azərbaycan pulları Batuma, Türkiyənin obyektlərinə gedir. Azərbaycan vətəndaşlarının 1,5 milyonu Rusiyada, 200 mini Türkiyədə işləyir. Biz niyə onların işini ağırlaşdırırıq?”

**Sabir Rüstəmxanlı da etiraz etdi:** “Qanun vətəndaşın həyat şəraitini və ölkədə yaşamaq üçün qəbul olunur. Bizdə isə qanunlar vətəndaşın həyat şəraitini ağırlaşdırmaq üçündür.

Bizdə hər şeydə monopoliya var , amma bu məsələni də monopoliyaya almaq düzgün deyil. Kimsə iş ardınca gedirsə, niyə kiminsə qoltuğunun altından keçməlidir? Nəyə görə mənim vətəndaşım bu zülmü çəkməlidir? Kimə lazımdır bu kağız-kuğuz oyunları?"

**Siyavuş Novruzov** isə dedi ki, bu, qul əməyinin qarşısını almaq üçündür: “Həm hökumətin xəbəri olur ki, vətəndaşı hardadır? Yaxud sabah uşaqları olacaq, götürüb gələcək, onun taleyi havada qalmasın”.

**Çingiz Qənizadə** isə dedi ki, bu məsələnin qanuniləşdirilməsi insan alverinə və fırıldaqçılığa qarşı da tədbirlərin görülməsi deməkdir.

**İqbal Ağzadə** “Yol hərəkəti haqqında” Qanuna edilən dəyişiklikdən danışarkən bildirdi ki, İnzibati Xətalar Məcəlləsinə dəyişikliklər edildikdən sonra deputatlar problemlərlə üzləşir: “Deputatlara bəzən inzibati protokol tərtib etmədən onlara inzibati cəza kəsilir. Bu, qanundakı boşluqlardan irəli gəlir. Bu, həm də Konstitusiyanın kobud şəkildə pozulmasıdır. Deputatlara inzibati cəza verilə bilməz”. İ. Ağazadə bildirdi ki, onlar sədəqə tələb etmirlər, sadəcə olaraq deputat toxunulmazlığının qorunmasını istəyirlər. Ərəstun Cavadov isə dedi ki, yol polisləri tez-tez onu cərimələyirlər: “Mən Ağsuya və İsmayıllıya gedəndə yol polisləri məni cərimələyirlər. Hər dəfə 150-200 manat cərimə ödəyirəm”.

Konsul Nizamnaməsinə edilən dəyişikliyə görə isə, Azərbaycanın xarici ölkələrdə fəaliyyət göstərən konsullarının səlahiyyətləri məhdudlaşdırılıb. Nizamnamənin 39-cu maddəsində qeyd edilir ki, konsul Azərbaycan ərazisinə daxil olmaq, onu tərk etmək, bu ərazidən tranzitlə keçmək üçün verilən vizaların vaxtını uzatmaq və verilən vizalarda dəyişikliklər etmək hüququndan məhrum edilir.

**Beləliklə, bayramqabağı olsa da, gərgin atmosferdə keçən iclas başa çatdı.**

❑ Elşad PAŞASOY

YENİ MÜSAVAT
N 257 (5966) 18 oktyabr 2014

**Bu il iyulun 11-də Gürcüstan Daxili İşlər Nazirliyi (DİN) Əfqanıstanda hazırlanan 2 ton 790 kiloqram yüksək keyfiyyətli maye heroini ölkə ərazisində saxlaması ilə bağlı məlumat yaydı. Rəsmi məlumatda maye heroinin maye halında olan sabun adı altında 30 litrlik 93 çəlləkdə daşındığı bildirilirdi. Qeyd olunurdu ki, əməliyyat zamanı 2 Gürcüstan və 1 Türkiyə vətəndaşı saxlanıb. Sonrakı məlumatlarda yükün son çatdırılma nöqtəsi kimi Moldova göstərilirdi. Bu günə qədər yükün Azərbaycan ərazisinə necə daxil olması haqda rəsmi məlumat yoxdur. 3 tona yaxın heroinlə yüklənmiş maşın Astara Gömrük-Keçid Məntəqəsindən ölkəyə daxil olub və 500 kilometrlik yolu qət etməklə Qazaxdakı gömrük-keçid məntəqəsindən çıxmaqla sərhədlərimizi aşıb.**

# Azərbaycandan gedən 3 ton heroin məsələsində yeni gəlişmə

## Qaçaqmalçılara Azərbaycan gömrüyünün maddi-texniki bazası barədə məlumat ötürülübmüş; BMT gömrükçülərimizə şübhəli maddələri yoxlamaq üçün cihazlar göndərdi

**Gürcüstan DİN-in keçirdiyi məlum əməliyyatdan ötən aylar ərzində rəsmi qurumlar ictimaiyyətə sərhədlərimizi asanlıqla aşan beynəlxalq narkomafiyanın bəd əməlinin hansı şəraitdə baş tutması haqda məlumat verməyib.** Avqustun 29-da "Yeni Müsavat"a Astaradan belə bir məlumat daxil olmuşdu ki, məlum əməliyyatdan sonra Astara Gömrük-Keçid Məntəqəsinin qaçaqmalçılıq şöbəsində çalışan 4 məmur işdən çıxarılıb. Gömrükçülər Azərbaycandan keçən və Gürcüstanda tutulan 3 ton heroin əməliyyatına görə vəzifədən kənarlaşdırılıblar. Qaynağımız iddia etmişdi ki, işdən qovulan gömrükçülərdən biri Astara sakinidir, digərləri isə başqa bölgələrdəndir. Onların adları açıqlanmasa da, mənbənin sözlərinə görə, işdən çıxarılan gömrükçülər məhz Gürcüstanda saxlanılan 3 ton heroin əməliyyatının qurbanı olublar. Qaynağımız iddia edirdi ki, gömrükçülər məsuliyyətsizlikdə təqsirli bilinərək gömrük sistemindən kənarlaşdırılıblar.

**Bu qaçaqçılıq olayından sonra Azərbaycan tərəfi susqunluq nümayiş etdirsə də, ictimaiyyətin diqqətindən kənar araşdırmalar aparılıb, işin detallarını ən son xırdalıqlarına qədər müəyyən olunub.** Bəlli olub ki, Azərbaycan gömrükçüləri ölkəmizə daxil olan heroini saxlayıblar. Lakin sabun olduğunu zənn edərək buraxıblar. Bu məqam onu deməyə əsas verib ki, narkomafiyanın istifadəsində Azərbaycan gömrükçülərinin arsenalında maddələrin yerindəcə araşdırılmasına imkan verən avadanlığın olmaması haqda əvvəlcədən məlumat olub. Bu məlumatın narkomafiyaya kimin ötürməsi sualı bu gün də açıq olaraq qalır.

Oktyabrın 16-da BMT-nin Narkotiklər və Cinayətkarlığa Qarşı Mübarizə İdarəsi tərəfindən Azərbaycan gömrüyünə kimyəvi maddələrin müəyyən edilməsində istifadə olunan 2



ədəd "Hazmat" avadanlığı təqdim edilib. Hər iki avadanlığın Astara gömrükçülərinin istifadəsinə verilməsi planlaşdırılır. Adından da göründüyü kimi bu avadanlıqlar sabun və digər maddələrin adı altında narkoqaçaqçılığın qarşısını almağa imkan verəcək. Yaxın günlərdə isə avadanlığın istifadə olunması ilə bağlı xarici mütəxəssislər tərəfindən Azərbaycan gömrükçülərinə xüsusi təlimlər keçiriləcək.

Yada salaq ki, **baş nazirin müavini, Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının sədri Əli Həsənov** BMT-nin Narkotiklər və Cinayətkarlıqla Mübarizə İdarəsinin icraçı direktoru Yuriy Fedotova müraciət ünvanlayıb. Ə.Həsənov müraciətində bu məsələnin tam və obyektiv araşdırılmasını təmin etmək məqsədilə Gürcüstan tərəfinin apardığı təhqiqata beynəlxalq ekspertlərin cəlb edilməsinə köməklik göstərilməsini xahiş edib. Prosedur qaydalara görə, Azərbaycan tərəfi bu istintaq prosesində iştirak etmir.

Xatırladaq ki, bu olayın üstü açılandan sonra gömrük-keçid məntəqələrində xüsusi yoxlama avadanlıqlarının yenilənməsi və mümkün olan bütün mal-materialların tərkibinin müəyyən olunmasına göstəriş verilmişdi. Gömrükçülərə tranzitlə ölkəmizdən keçən malların yoxlanılması zamanı xüsusilə diqqətli olmaq da tapşırılıb. Hər bir yoxlamanın lentə alınması üçün gömrükçülərə kameralar paylanıb. Onlara bütün yoxlamaları əvvəldən axıra qədər kameraya çəkilməsi və aktlaşdırılması tapşırılıb.

**3 ton heroinin tutulması əməliyyatını ABŞ kəşfiyyatının Gürcüstan hüquq-mühafizə orqanları ilə birgə həyata keçirdiyi bildirilirdi. İddia olunurdu ki, heroinin Azərbaycan ərazisində hərəkəti, o cümlədən məxfi bir yerdə saflaşdırılması əməliyyatı ABŞ kəşfiyyatı tərəfindən lentə də alınıb.**

❑ E.MƏMMƏDƏLİYEV

# İŞİD Kobanidən çəkilir, İraqda hücuma keçir

## Əsəd qüvvələri Suriyada İŞİD qərargahını ələ keçirdi, qruplaşma 1294 itki verdi və ilk sınaq uçuşlarını həyata keçirir

**Kobanidə bir ay davam edən döyüşlərdən sonra geri çəkilən İŞİD indi də İraqda hücumlarının sayını artırıb. Bağdada yaxın bölgələrini ələ keçirən İŞİD-in paytaxt Bağdada və müqəddəs Nəcəf şəhərinə yaxınlaşdığı bildirilir. Ənbar vilayətinin Ramadi şəhərində isə küçəyə çıxmaq qadağan edilib.**

Ənbar vilayəti məclisinin sədri Sabah Kərhut şəhər sakinləri və avtomobillər üçün tətbiq olunan küçəyə çıxma qadağasının İŞİD-in hücum təhlükəsinə qarşı tətbiq olunduğunu bildirib. Hazırda Ramadi şəhəri İraq ordusunun nəzarətində olsa da, şəhərin cənub, şimal və qərb hissələrində İŞİD qüvvələrinin hücumları qeydə alınır.

### İŞİD Bağdad yolunda

Oktyabrın 15-də Ramadi şəhərinə hücum edən İŞİD qüvvələri artıq paytaxt Bağdadın lap yaxınlığında sayılırlar. Doğrudur, 15 oktyabr hücumları geri oturdulub, ancaq Ramadi yaxınlığındakı Hit qəsəbəsini ələ keçirən İŞİD-çilər Hadisə qəsəbəsini mühasirəyə alıb. Bölgəyə son bir həftədə dərman, qida və sair gündəlik tələbat məhsulları gətirilmir.

Ramadi ələ keçirilsə, İŞİD Bağdada hücum etməyə başlayacaq. Hələlik İraq rəsmiləri Bağdad üçün heç bir təhlükənin olmadığını iddia etsələr də,



İŞİD-in hər gün irəliləməsi və İraq ordusunun ciddi müqavimət göstərə bilməməsi Bağdad üçün təhlükə riskinin yüksək olduğunu göstərir.

### Bombardmanlar effekt vermir

Sentyabrın əvvəlindən başlayaraq ABŞ ordusu və müttəfiq aviasiyası İraqda İŞİD mövqelərini bombalasalar da, ABŞ hökumətinin də etiraf etdiyi kimi bombardmanlar effekt vermir. **ABŞ Müdafiə Nazirliyinin sözçüsü Con Kirbi** bildirib ki, İŞİD-in irəliləməsinə baxmayaraq hələlik Bağdad üçün ciddi təhlükə yoxdur. İŞİD qüvvələrinin döyüş xətti ilə İraq paytaxtı arasındakı məsafə hazırda 40 kilometr təşkil edir.

Hazırda Kobani şəhərinin 20 faizi İŞİD yaraqlılarının əlində olsa da, ümumilikdə İŞİD-çilər geri çəkilir. Suriya kürdlərinin Demokratik Birlik Partiyasının (PYD) sədri Saleh Müslim bildirib ki, koalisiya qüvvələrinin hava zərbələri İŞİD-in geri çəkilməsinə ciddi təsir göstərib. Eyni zamanda kürd mənbələri son bir ayda davam edən döyüşlər zamanı 1294 İŞİD yaraqlısının öldürüldüyünü açıqlayıblar.

### İŞİD-çilər öz basdırdığı minaya düşdü

İŞİD yaraqlıları Mosul-Zumar yolunda minaya düşüblər."əl-Cəzirə"nin xəbərinə görə, İŞİD-in Mosul-Zumar yolu üzərində Misri kəndi yaxınlığında körpüyə basdırdığı minalar qruplaşmaya aid maşın karvanı keçərkən parlayıb. Partlayış nəticəsində 20 İŞİD üzvünün öldüyü, 30 nəfərin isə yaralandığı bildirilir.

Bir müddət diqqətdən kənarda qalan Suriya prezidenti Bəşər Əsəd nəzarətində olan qüvvələr ölkənin şimal-şərqində yerləşən Deyr əz-Zor şəhərində hücuma keçərək İŞİD qüvvələrinin yerli qərargahını ələ keçirib. Livanın "əl-Məyadin" telekanalının məlumatına görə, hökumət qüvvələrinin həyata keçirdiyi əməliyyat nəticəsində İŞİD qərargahı ələ keçirilərək dağıdılıb. Hücum zamanı çoxu Suriya vətəndaşı olmaqla xeyli sayda İŞİD döyüşçüləri öldürülüb.

Məlumatda qeyd olunur ki, Deyr əz-Zorda yerləşən hərbi hava bazası hökumət qüvvələrinin bu bölgədə son qalası hesab olunurdu. Rəkkadakı hərbi hava bazasını ələ keçirdikdən sonra İŞİD bu Deyr əz-Zoru ələ keçirməklə bölgədəki mövqelərini daha da gücləndirməyə çalışıb. Ancaq hökumət qüvvələri hərbi hava qüvvələrinin də fəal dəstəyi ilə həyata keçirilən əməliyyatla Deyr əz-Zordakı İŞİD qərargahını ələ keçirib. Hazırda Əsəd qüvvələri bölgədə hücum əməliyyatlarını davam etdirir.

### İŞİD-in aviasiyası

İŞİD Hələbin şimalında ələ keçirdiyi hərbi hava bazasında ilk təlim uçuşları həyata keçirib. Bu barədə Suriya insan haqları izləmə təşkilatı məlumat yayıb. Məlumatda bildirilir ki, İŞİD-in ələ keçirdiyi bazada 3 təyyarə ilə təlim uçuşları həyata keçirilib. Şahidlərin məlumatına istinad edən təşkilatın rəhbəri Rami Əbdürrəhman bildirib ki, İŞİD-in əlində olan hərbi təyyarələrdə Səddam Hüseyn ordusunda hərbi təyyarəçi olmuş zabitlər İŞİD üzvlərinə təlim keçirlər.

**R.Əbdürrəhman bildirib ki, şahidlər İŞİD-in əlində olan hərbi bazadan dəfələrlə hərbi təyyarələrin havaya qalxdığını görüblər.**

❑ KƏNAN

# Abşeronun "Nübar"ından şikayət var

## Bakının 10 kilometrliyində yerləşən bir neçə min sakini olan qəsəbədə tibb ocağı, uşaq bağçası yoxdur, yollar isə hələ də asfaltlanmayıb





**Bakının təxminən 10 kilometrliyində yerləşən Nübar qəsəbəsi sözün həqiqi mənasında hökumətin gözündən yayınıb. Belə ki, son illər tətbiq olunan heç bir dövlət proqramı bu qəsəbəyə tətbiq olunmayıb. Yalnız bir neçə il qabaq qəsəbəyə qaz çəkilib.**

Bu məlumatlar qəzetimizə şikayət edən bir qrup qəsəbə sakininin müraciətində yer alır. Sakinlər bildirir ki, artıq 10 ildən çoxdur mövcud olan qəsəbədə yollar, demək olar ki, çəkilməyib. Torpaq yolar yağış yağan kimi palçıqdan keçilməz hala gəlir. Qəsəbədə hətta adi zibil qabları belə yoxdur. Zibil yolların kənarına atılır və hər dəfə müəyyən müddətdən sonra Nübar qəsəbəsinin ərazi üzrə bağlı olduğu Hökməli Bələdiyyəsinin göndərdiyi maşınlar zibili yığaraq aparır. Ancaq nə bələdiyyənin, nə də Abşeron rayon rəhbərliyinin qəsəbədə zibil qabları quraşdırmaq, yolları abadlaşdırmaq üçün heç bir addım atmır.

Sakinlər onu da bildirdilər ki, hava bir qədər tutulan kimi, yağış və ya külək olan kimi Nübar qəsəbəsində işıqlar sönür. Nübar qəsəbəsində artıq 3 mindən çox insan yaşasa da, qəsəbənin böyük hissəsinə hələ də kanalizasiya çəkilməyib.

Qeyd edək ki, Nübar qəsəbəsi adlandırılsa da, inzibati olaraq Hökməli kəndinin yaşayış massividir. 1990-cı ildə burda 360 bağçılıq təsərrüfatı olub. Ancaq sonradan qaçqın və məcburi köçkünlər, rayonlardan iş üçün gələnlər qəsəbədə yerləşiblər. Əhalisinin böyük əksəriyyəti məcburi köçkünlərdir. Hazırda Nübar qəsəbəsində üç məktəb - bir neçə qaçqın məktəbi - tikilsə də, uşaq bağçası və poliklinika yoxdur. Tikilən xəstəxana binası hələ də yarımçıq qalıb. Sakinlər bildirir ki, prezident seçkiləri zamanı Nübar qəsəbəsinə kanalizasiya, asfalt yol çəkiləcəyi və uşaq bağçası, xəstəxana tikiləcəyi ilə bağlı vəd verilsə də, sonradan bu vədlər "undulub".

❑ KƏNAN

YENİ MÜSAVAT
N 257 (5966) 18 oktyabr 2014

# "Azərbaycanda Ebola həyəcanı üçün əsas yoxdur"

## Səhiyyə Nazirliyi təlaşa əsas görmür; ÜST isə dekabradək həftədə 5-10 min insanın qorxunc virusa yoluxa biləcəyi barədə xəbərdarlıq edib...

**Ebola virusu bütün dünyaya qorxu və dəhşət saçmaqda davam edir. Hətta Ebola narahatlığı Türkiyədən İtaliyaya gedən bir təyyarəni məcburi eniş etməyə vadar edib. Belə ki, Türk Hava Limanından qalxan təyyarə iki sərnişinin qəflətən hərarətlərinin qalxması və Ebola virusu təhlükəsi ilə Romanın Leonardo Da Vinçi hava limanına təcili eniş etməli olub.**

Ebola şübhəsi ilə xəstəxanaya yerləşdirilən iki sərnişində Ebola virusu aşkarlanmasa da, insanların təlaş keçirməsi bu virusla hər an hər yerə rastlaşa biləcəyimiz ehtimalını daha da artırır. Bundan başqa İstanbulda Mərmərə Universiteti Pendik Tədris və Araşdırma Xəstəxanasına Ebola virusuna yoluxduğu ehtimal edilən başqa bir xəstə də gətirilib. Oktyabrın 15-i axşam saatlarında xəstə gətirildikdən sonra xəstəxananın təcili yardım şöbəsi təxliyə edilərək bağlanıb. Karantinə alınan təcili tibbi yardım şöbəsinə heç bir xəstə qəbul olunmur. Xəstəxana personalı qoruyucu maska taxıb. Ebola virusuna yoluxduğu ehtimal edilən xəstənin Sürəyyapaşa xəstəxanasına köçürüləcəyi bildirilir.

Alaniyada isə BMT-nin Liberiyada ölümcül Ebola virusuna yoluxmuş yüksək vəzifəli əməkdaşı artıq dünyasını dəyişdi. Virusun yayılma qorxusu ilə onun cəsədi yandırılıb. Qeyd edək ki, Almaniyaya müalicə məqsədi ilə gətirilən üçüncü xəstə olan 56 yaşındakı Məhəmməd Almaniyada Eboladan ölən ilk adam olub. Sudanlı BMT çalışanının Qərbi Afrika ölkəsi Liberiyada vəzifəsini icra edərkən Ebola virusu daşıdığı müəyyən edilmişdi.




Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) verdiyi məlumata görə, Ebola virusundan ölənlərin sayı artıq 4400-ü ötüb. ÜST bu ölümcül virusun qarşısı alınmazsa, dekabr ayınadək hər həftə 5-10 min insanın virusa yoluxa bilmə təhlükəsinin olduğunu bildirib.

Azərbaycan Səhiyyə Nazirliyi isə Ebola virusu ilə bağlı təklif irəli sürüb. Nazirlikdən bildirilib ki, Azərbaycanın sərhəd-keçid məntəqələrindəki Sanitar-Karantin Müfəttişliyinin mütəxəssisləri ölkə ərazisinə gələn bütün insanları sorğu etməli, virusun Azərbaycana yalnız xaricdən gətirilə bilmə mümkünlüyünü nəzərə alaraq, bu məsələyə çox diqqətli yanaşmalıdır. Səhiyyə Nazirliyi Respublika Taun Əleyhinə Stansiyanın direktor müavini Şair Qurbanov "Trend"ə bildirib ki, Ebola virusuna yoluxma əsasən bir neçə Afrika ölkəsində qeydə alınıb, digər ölkələrdə isə virusa yoluxan az sayda xəstə var: "Heç bir ölkə deyə bilməz ki, Ebola virusu bizə daxil ola bilməz. Çünki xəstə insanlarla təmasda olan və ona yoluxan insanlar 21 günlük inkubasiya dövründə dünyanın hər hansı ölkəsinə gedə bilər. Və heç kim də xəstəliyin gizli mərhələsində insanın virusa yoluxduğunu təyin edə bilməz. Yalnız gizli dövr keçəndən sonra insanda xəstəliyin əlamətləri özünü göstərə bilər".

Ş.Qurbanovun sözlərinə görə, Azərbaycanın sərhəd-keçid məntəqələrində quraşdırılmış xüsusi aparatlar da Ebola virusuna yoluxmuş və xəstəliyin gizli mərhələsində olan insanlarda bunu aşkarlaya bilməz. Bu aparat yalnız insanların hərarətini qeyd edir. O, əlavə edib ki, xəstəliyin geniş yayıldığı Afrika ölkələri ilə Azərbaycanın ticarət, mədəni əlaqələri aktiv deyil. Ancaq həmin ölkələrdən gələn insanlar Azərbaycan sərhədini keçdikdə sərhəd-keçid məntəqələrindəki Sanitar-Karantin Müfəttişliyinin mütəxəssisləri tərəfindən qeydiyyata alınmalı, onların hansı ünvanlara getdikləri öyrənilməlidir. Daha sonra isə həmin şəxs barədə əraziyə baxan poliklinikaya məlumat verilməli, onlar inkubasiya dövründə nəzarətdə saxlanılmalıdırlar.

**Ş.Qurbanov onu da qeyd edib ki, Azərbaycanda indiyədək Ebola virusu ilə əlaqədar şübhəli şəxs aşkar edilməyib:** "Bu xəstəlik Azərbaycana yalnız xaricdən gətirilə bilər. Ona görə də sərhəd-keçid məntəqələrində məsələyə qarşı çox diqqətli olmaq lazımdır".

Bu arada Avropa Birliyi üzvü olan ölkələrin səhiyyə nazirləri Ebola epidemiyasına qarşı görüləcək tədbirləri müzakirə etmək üçün Brüsseldə toplantı keçirmək qərarına gəliblər. Bəs Eboladan necə qorunmalıyıq?

Özü və ya yaxınları beynəlxalq hava yollarında, turizm sektorunda çalışanlar, tez-tez xəstəliyin yayıldığı ölkələrə gedib gələnlərin bu virusa yoluxma ehtimalı daha böyükdür. Xəstəliyin əlamətləri 5-7 gündə ortaya çıxır. Amma bu müddət 21 gün də ola bilər. Xarici mətbuatın yazdığına görə Ebolanın ilkin əlamətləri baş, oynaq və əzələ ağrısı, boğazda qıcıqlanma və halsızlıqdır. Ebolanın ilk əlamətləri adətən qripi xatırladır. Ancaq daha sonra ishal, qusma, qaşınma və qarın ağrısı əlavə olunur. Böyrəklərin və qaraciyərin işi dayanır. Xəstədə daxili qanama başlayır, sonrakı mərhələlərdə xəstənin qulağından, ağzından və gözündən qan gəlir.

❑ **Günel MANAFLI**




## "Milliyet" Xoşqədəm Hidayətqızından manşet xəbəri verdi

### "Səni axtarıram" verilişindən kömək istəyən gənc İstanbulda rus qadınla əylənərkən ələ keçdi

**Türkiyədə çıxan "Milliyet" qəzeti azərbaycanlı jurnalist Xoşqədəm Hidayətqızının rast olduğu hadisə haqqında manşet xəbəri yayıb. Qəzet X.Hidayətqızını "Azərbaycanın Mügə Anlısı" adlandıraraq qeyd edir ki, azərbaycanlı televizyonçu Türkiyədə "girov" götürülən azərbaycanlı gəncin axtarışı üçün İstanbula gəlib və burada sıradışı bir hadisə ilə üzləşib.**

Belə ki, "Səni axtarıram" verilişinin aparıcısı Xoşqədəm Hidayətqızı Bakı sakini Kamran Məmmədzadəyə proqramında yer verib və həmin şəxs verilişdə iştirak edərək "Səni axtarıram" verilişindən kömək istəyib. 23 yaşlı K.Məmmədzadə qumarda 50 min Türkiyə lirəsi (19 200 AZN) uduzduğu üçün girov saxlanıldığını bildirib. Bundan sonra Azərbaycanın Türkiyədəki baş konsulluğu Türkiyə polisinə müraciət edib və onlar "zərərçəkən"in yerini müəyyən ediblər. Polis K.Məmmədzadə oteldə rus qadınla əylənərəkən tutub.

"Milliyet" yazır ki, "Səni axtarıram" verilişinin komandası əməliyyatı lentə almaq üçün İstanbula gedib və "girovluqdan azad ediləsi şəxsin rus qadınla əylənməsi olayından xəbər tutaraq şoka düşüb. K.Məmmədzadə deyib ki, o, pullarını qumarda uduzduqdan sonra ailəsinə yalan danışmağa məcbur olub.

## Ucarda 3 maşın toqquşub, xəsarət alanlar var

**Ucar rayonunda 3 maşınının iştirakı ilə yol qəzası baş verib. APA-nın yerli bürosunun məlumatına görə, hadisə bu gün saat 11:00 radələrində Bakı - Qazax əsas magistral yolunun Ucar rayonu ərazisindən keçən hissəsində qeydə alınıb. 39 - BC- 069 dövlət nömrə nişanlı, "Shagman" markalı yük maşını əvvəlcə 20- DA-790 dövlət nömrə nişanlı "Mercedes Vito" markalı avtomobilə, daha sonra isə 90-JV-198 dövlət nömrə nişanlı "Ford Transit" markalı yük maşınına çırpılıb. Zərbənin gücündən "Mercedes Vito" markalı maşın aşaraq, əsas magistral yolda hərəkəti nisbətən məhdudlaşdırıb. Hadisə zamanı "Ford Transit" markalı yük maşının sürücüsü Kürdəmir rayon sakini 1978-ci il təvəllüdlü Cabbarov Razi Vaqif oğlu və "Mercedes Vito"da olan sərnişini Gəncə şəhər sakini 1988-ci il təvəllüdlü Rəhimov Əli Bəxtiyar oğlu müxtəlif bədən xəsarətləri ilə Ucar Mərkəzi Rayon Xəstəxanasına yerləşdirilib.**

Hadisənin başvermə səbəbləri Baş Dövlət Yol Polisinin İstintaq və Təhqiqat şöbəsi tərəfindən araşdırılır.


# Kişilər!!!

Xəstəliklərdən əzab çəkən adamlar üçün! Diqqət!
**İsrail təbabəti** tətbiq edilir! **Axırıncı şans!!!**

Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməsə və** Siz aşağıda **göstərilən xəstəliklərdən** həmişəlik qurtarmaq istəyirsinizsə, onda **yaxşı insanlara,** keyfiyyətli, qısa müddətdə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

---

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Qadınlarda uşaqlıq boruların keçməməzliyi**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi** və **sızanaqlar**
* **Gərginlik, yuxusuzluq, yaddaşın azalması**

---

Həkim qəbulu və həkimə zəng etmək saat 11.00-dan sonra
**Tel: (012) 437-88-05; (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com "doktor Vaiz Səmədov".**



# Beynəlxalq Təhsil Mərkəzi

***Biz sizi Ukraynanın, Belorusun, Rusiyanın və Gürcüstanın dövlət universitetlərində bakalavr və magistr dərəcələri üzrə əyani, qiyabi və ikinci ali təhsil almağa dəvət edirik.***

< *Kiyev Dövlət Texniki Universiteti*
< *Kompüter mühəndisliyi. Hüquq. İqtisadiyyat.*
< *Kremençuk Dövlət Universiteti*
< *Psixologiya. Jurnalistika. Hüquq. Filologiya*
< *Kiyev Dövlət Dəniz Akademiyası*
< *Gəmi sürmə. Dəniz və çay nəqliyyatı. Hüquq*
< *Tbilisi Dövlət Tibb Universiteti*
< *Müalicə işi. Stomatologiya. Əczaçılıq. Pediatria*
< *Minsk Dövlət Universiteti*
< *Beynəlxalq Münasibətlər. İqtisadiyyat. Jurnalistika*
< *Qrodno Dövlət Universiteti*
< *Hüquq. İqtisadiyyat. Pedoqoqika. Tərcüməçilik*
< *Volqoqrad Dövlət Aqrar Universiteti.*
< *Aqronom. Yerölçmə və Kadastr. Elektrik təchizatı.*

**Bizim bu ölkələrin yuxarıda adları sadalanan və bu siyahıda adları olmayan bir çox digər dövlət universitetləri ilə əməkdaşlıq və təmsilçilik haqqında rəsmi müqavilələrimiz var. Diqqət! Bəzi ixtisaslar üzrə pulsuz təhsil almaq şansınız var!**

**Ünvan: Bakı ş. Məmmədzadə k. 13A «Nərimanov» m-su**
**Tel: (050) 3319999; (077)3319999; (055)2522525; (012)4379980**








# Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ

*Almaniyanın məşhur "Karl Etorts" firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gıozləmədən - lateks həlqə qoyulması.*

SƏLİMOV FƏRMAN
Tel: (055) 776-70-34

YENİ MÜSAVAT
N 257 (5966) 18 oktyabr 2014



# Foqts Sürixdə istefa verdi, onun yerinə kim gələcək?

## Altı ildir milli komandaya rəhbərlik edən almaniyalı mütəxəssisi Qurban Qurbanov əvəz edə bilər

**AVRO-2016-nın seçmə mərhələsi də daxil dalbadal dörd dəfə məğlubiyyətə uğrayan Azərbaycan milli komandasının baş məşqçisi Berti Foqts nəhayət özündə güc taparaq istefa verib. Son oyunda Xorvatiya ilə səfər oyununda 6:0 hesabı ilə məğlubiyyətdən sonra Berti Foqts Almaniyaya getmişdi və onun geri dönməyəcəyi haqda məlumatlar dolaşırdı.**

Oktyabrın 17-də məlum olub ki, İsveçrənin Sürix şəhərində AFFA-nın prezidenti Rövnəq Abdullayevlə Berti Foqts arasında görüş keçirilib.

Qol.az-ın xəbərinə görə, görüş zamanı Azərbaycan millisinin "Avro-2016" nın seçmə mərhələsində keçirdiyi oyunlar müzakirə olunub. B.Foqts təəssüflə bildirib ki, artıq Azərbaycan millisində gələcəyini görmür. O deyib ki, komanda son oyunda əzmkarlıq göstərməyib. Bundan əlavə, bir neçə ildir dəfələrlə vurğuladığı fiziki hazırlıq problemi hələ də öz həllini tapmayıb və bu çatışmazlığı qısa müddətdə aradan qaldırmaq mümkün deyil. O, Azərbaycanda 6 il çalışdığını, bəzi oyunlarda azarkeşlərə böyük sevinc bəxş etdiklərini qeyd edib, ötən müddət ərzində rəhbərliyi altında çıxış etmiş futbolçulara biliklərini aşıladığını və bu biliklərin gələcək nəsillərə də ötürüləcəyinə ümid etdiyini söyləyib. Berti Foqts millini növbəti oyunlara çıxaracaq məşqçiyə, ehtiyac duyacağı təqdirdə, həm rəqib komandalarla, həm də dəvət etməyi planlaşdırdığı futbolçularla bağlı məlumatları paylaşmağa, tövsiyələrini verməyə hazır olduğunu deyib, peşəkar fəaliyyətinə görə AFFA-ya minnətdarlıq edib, Azərbaycanı ikinci vətəni saydığını bildirib.

**AFFA-nın prezidenti Rövnəq Abdullayev** qeyd edib ki, Berti Foqtsa fəaliyyətini davam etdirmək təklif olunub və onun Azərbaycan milli komandasındakı fəaliyyəti AFFA tərəfindən yüksək qiymətləndirilir. R.Abdullayev söyləyib ki, B.Foqtsun gördüyü işlər ümumilikdə Azərbaycan futbolunun inkişafına müsbət təsir göstərib. Çox böyük nailiyyət olmasa da, Azərbaycan milli komandası seçmə mərhələlərdə ən böyük göstəriciyə B.Foqtsun rəhbərliyi altında nail olaraq 9 xal toplayıb, millimiz FIFA-nın reytinq cədvəlində 73-cü pilləyə qədər yüksəlib. AFFA prezidenti Berti Foqtsa böyük hörmətlə yanaşdıqlarını, gördüyü işlərin hər zaman minnətdarlıqla xatırlanacağını deyib, onun həmişə Azərbaycan futbolunun dostu qalacağını söyləyib.

AFFA-nın vitse-prezidenti Elşad Nəsirov və baş katib Elxan Məmmədov görüşdə iştirak edib. Təəccüblüdür ki, Xorvatiya ilə oyundan sonra AFFA prezidenti də ciddi tənqidləri məruz qalmasına baxmayaraq, o Foqtsa postunda qalmağı təklif edib.

Berti Foqtsun istefa verməsindən sonra Azərbaycan millisinin baş məşqçi postuna kimin gətiriləcəyi məsələsi aktuallaşıb. İctimai rəy "Qarabağ"ın baş məşqçisi Qurban Qurbanovun tərəfindədir. Foqtsun istefasından sonra adınız yenidən milli ilə birgə hallanmağa başlayıb. Q.Qurbanova lent. az saytına müsahibəsində "belə bir təklif gəlsə, qəbul edərsiniz" sualına belə cavab verib: "Ola bilsin, azarkeşlər mənim gördüyüm işi bəyənirlər. Amma milliyə tam başqa cavabdeh şəxslər var. Yığma komanda tam başqa qurumdur. Klub başqadır, milli başqa. Yığmaya cavabdeh insanlar var ki, onlardan nəticə tələb olunur. Bilirəm ki, sosial şəbəkələrdə mənim adımı yığma ilə birgə çəkirlər. Amma indiki halda, bu cür söz-söhbət mənim işimə ancaq mane ola bilər. Qarşıda oyunlar var. İndidən durub fikirləşsəm ki, millidən təklif gəlsə, nə edəcəm, bu düz çıxmaz. Kənardan elə başa düşərlər ki, mən yığmanın məğlubiyyətinə sevinmişəm, təklif gözləyirəm. Böyük hesablı məğlubiyyətlə hər komanda üzləşə bilər. İkincisi də indiki məqamda AFFA-dan mənə təklif gəlməyib. Gələndən sonra cavab verməək olar".

Ancaq komanda.az-ın əldə etdiyi məlumata görə, Qurbanov millini çalışdırmaqdan imtina edib. AFFA-dakı mənbənin sayta verdiyi məlumata görə, Elxan Məmmədovla Qurban Qurbanov məsələ ilə bağlı müzakirə aparıblar. Ancaq razılıq əldə olunmayıb. Baş katib Qurbanovdan millliləşdirilmiş futbolçulardan imtina olunmamasını tələb edib. "Qarabağ"ın çalışdırıcısı isə bu təklifi qəbul etməyib.

Bundan sonra Elxan Məmmədov "İnter"in baş məşqçisi Kaxaber Tsxadadze ilə təmas qurub. Məlumata görə, gürcü çalışdırıcı baş katibin şərtini qəbul edib.

Ən son məlumata görə, Rövnəq Abdullayev də Qurban Qurbanovla görüşəcək. Son qərar da bu görüşdən sonra veriləcək.

**Peşəkar Futbol Liqasının prezidenti Ramin Musayev** Berti Foqtsun milli komandamızın baş məşqçisi vəzifəsindən istefa verməsinə münasibət bildirib. O, almaniyalı mütəxəssisin vəzifəsindən getməsini normal qarşıladığını deyib: "Foqts getməli idi və getdi. Əgər AFFA rəhbərliyi belə qərar veribsə, deməli, Foqtsun gedişi yaxşı oldu".

**R.Musayev daha sonra deyib:** "Hələ bir neçə il əvvəl deməşdim ki, Foqts qaranquş kimidir, payız gələndə gedəcək. Gördüyünüz kimi, payız gələndə Foqts da getdi".

**Sonda qeyd edək ki, B.Foqts Azərbaycan millisinə 2008-ci ildən rəhbərlik edirdi.**

❑ **Xəbər xidməti**

# "London" taksiləri kütləvi şəkildə cərimələnir

## Şirkət 500-dən çox "badımcan" maşını gömrük qeydiyyatından keçirmədiyi üçün Dövlət Gömrük Komitəsinin meydançasında saxlanır; sürücülər "qan ağlayır"

**Bakıda "London" taksiləri cərimə meydançasına aparılırlar. Bu maşınlar gömrükdə avtomobil qeydiyyatından keçmədiyinə görə onları cərimələyirlər. Hələ bir müddət əvvəl başlanan bu proses indi də davam edir. Əslində "London" taksi xidməti fəaliyyətə başladığı gündən başı üzərində "qara buludlar" dolaşır.**




İndiyə qədər sürücülərin problemləri birmənalı şəkildə həllini tapmır. Bir yandan gündəlik planın ağırlığı, o bir yandan əmək haqlarının azlığı, digər tərəfdən isə taksilərin gömrük qeydiyyatına alınmadığı üzə çıxması sürücüləri çətin vəziyyətə salıb.

Belə məlum olur ki, nəqliyyat naziri Ziya Məmmədov ölkə ərazisinə gətirdiyi "London" taksiləri dağlıq-qayalıq yollarla gətirilib. Əgər bu avtomobillər gömrük qeydiyyatından keçməyibsə, 2012-ci ildən bəri ölkə ərazisində necə hərəkət edib?

Sürücülərin sözlərinə görə, onlar "Bakı Taxi" MMC ilə müqavilə bağlayıb, xidmət göstəriblər. Lakin bu taksilərin gömrükdə qeydiyyatdan keçmədiyindən xəbərsiz olublar. Odur ki, taksilər qəflətən saxlanılır, cərimə meydançasına aparılır, qeydiyyatdan keçirilirlər.

Bakıda son vaxtlar "badımcan" taksilərinin seyrək görünməsi, sayının azalması da məhz sadalanan hallarla bağlıdır. Üstəlik, şirkət bu günə qədər marşrut avtobuslarında sürücü axtarışı elanlarını davam etdirir. Bu da öz növbəsində sürücülərin tələb edilən şərtlər altında işləyə bilməyib, taksilərdən imtinasının nümunəsidir. "Bakı Taxi" MMC də sürücü axtarmaqdadır.

"Biz hotellərə gələn xarici qonaqların hesabına işləyirik. Onlar olmasa, gündəlik planı çıxarmaq da olmaz. Hər gün bir şey kəşf eləyirlər. Day bilmirlər ki, necə bizi incitsinlər. İndi də sayca 500 maşını bir-bir cərimələyirlər. Deyirlər ki, bu maşınlar qeydiyyatdan keçməyib. Bu necə işdir başım çıxmır. Bəs, indi bunların yadına düşüb? Taksi şirkəti də özlərinin, cərimələyən də özləri," - deyə "London" taksi sürücüsü Fətulla belə deyir.

**Onun sözlərinə görə, bu taksilərin cərimələnməsi yuxarı səviyyədə iki məmur arasındakı "toqquşma"nın nəticəsidir:** "Hamı bilir ki, gömrük və nəqliyyat sahələri necə işləyir, nəzarət kimdədir. Bir-biri ilə yola getmirlər, çanaq başımıza sınır. Birincisi qanunsuzluq ediblər ki, taksilər "rastamojka" olunmayıb. İkincisi də, indi qanunla işləmək yadına düşüb".

Sürücülərin dediyinə görə, hazırda 500-dən çox taksi gömrük işçiləri tərəfindən yığılıb və Dövlət Gömrük Komitəsinin cərimə meydançasında saxlanılır. Dövlət qeydiyyat nişanı 500-dək olan taksilərin gömrük qeydiyyat rüsumu ödənilib, ondan yuxarı isə "rastamojka"dan keçməyib:

"Gömrük rüsumu üçün "Bakı Taxi" MMC 6 milyon manatdan çox pul ödəməli idi. Məsələ ondadır ki, taksilərə gömrük rüsumu ödənilmədən dövlət qeydiyyat nişanı verilmişdi. Guya ki, şirkət maşını olduğundan güzəşt edilib. Anaq sonradan rüsum ödənilmədiyi üçün belə bir vəziyyət yaranıb".

**Qeyd edək ki, bir müddət əvvəl bu məlumat yayılanda şirkət təkzib etmişdi. Reallıq isə göstərir ki, taksilərin cərimə meydançasına aparılması halları davam etməkdədir.**

❑ **E.SALAMOĞLU**

# Bakı Ağır Cinayətlər Məhkəməsindən şok qərar

## "Qatil mənəm, sizsə günahsız bir şəxsi həbsə göndərirsiz"




**Dünən Bakı Ağır Cinayətlər Məhkəməsində adam öldürməkdə təqsirli bilinən 1995-ci il təvəllüdlü Knyaz Knyazlı və soyuq silah saxlamaqda təqsirli bilinən 1992-ci il təvəllüdlü Yusif Məhərrəmovun məhkəməsi keçirilib. Teleqraf.com xəbər verir ki, rəsmi ittihama görə ötən il avqustun 30-da Knyaz Knyazlı Bakı sakini Ceyhun Məqsədovu bıçaqlayıb. Hadisə metronun "Xətai" stansiyası yaxınlığında baş verib.**

Yetkinlik yaşına çatmayan Ceyhun Maqsudov xəstəxanaya yerləşdirisə də, hadisədən üç gün sonra ölüb. Yusif Məhərrəmov da hadisənin iştirakçısı olub. Hakim Rauf Əliyevin sədrliyi ilə keçirilən prosesdə Knyaz Knyazlı son söz deməkdən imtina edib. Daha sonra son söz deyən Yusif Məhərrəmov bildirib ki, Knyaz Knyazlı günahsız yerə qəsdən adam öldürmə maddəsi ilə mühakimə edilir: "Cinayəti mən törətmişəm. Amma mənə öldürmək barədə ittiham verilməyib. Belə olan halda günahsız bir şəxs həbsə göndərilir. Mən isə cinayət törətdiyim halda azadlığa buraxılıram. Qatil mənəm, cəzamı da çəkməyə hazıram. Günahsız bir adamı həbsə göndərmək vicdandan deyil. Belə ədalətsizlik olmaz. Cinayəti törədən azadlığa buraxılır, günahı olmayan şəxsə 10 il cəza verilir. Mərhumun ailəsinə qan lazımdır? Mən azadlığa çıxıram. Mənlikləri olsun, məndən övladlarının qisasını alsınlar".

**Daha sonra hakimlər hökm qəbul etmək üçün müşavirə otağına yollanıblar. Bu zaman Knyaz Knyazlının babası məhkəmə zalında Yusif Məhərrəmlinin qarşısında səcdə edib və ədalətli çıxış etməsinə görə, ona təşəkkürünü bildirib. Knyaz Knyazlının babası bunları deyib:** "Yusif ədalətli danışır, haqqı deyir. Amma ona qulaq asan yoxdur. Hərə öz bildiyini edir. Mənim nəvəm qatil deyil". Bir neçə saatdan sonra məhkəmə zalına qayıdan hakimlər hökm elan ediblər. Məhkəmənin hökmü ilə Knyaz Knyazlı 10 il müddətinə azadlıqdan məhrum edilib. Yusif Məhərrəmli isə 1 il cəza alıb. Onun həbsdə yatdığı günlə təyin olunan cəza hesablanaraq məhkəmə zalından azadlığa buraxılıb. Maraqlısı isə odur ki, Bakı Ağır Cinayətlər Məhkəməsinin hökmü ilə azadlığa buraxılan Yusif Məhərrəmov məhkəmədən çıxan kimi yenidən həbs edilib. Məlumata görə, Yusif Məhərrəmov Nəsimi Rayon Polis İdarəsinin əməkdaşları tərəfindən saxlanılıb. İlkin məlumata görə, Yusif Məhərrəmovun başqa bir cinayət işində adı keçdiyi bildirilir. Hazırda Yusif Məhərrəmov Nəsimi Rayon Polis İdarəsinə aparılır. Ona hansı ittihamın verildiyi açıqlanmır.

YENİ MÜSAVAT

Son səhifə

N 257 (5966) 18 oktyabr 2014



## Evakuator aparmasın deyə 20 saat maşının içində qaldı

Moskvalı sürücü Konstantin Altuxov maşınını evakuasiya edib cərimə meydançasına aparmasınlar deyə onun içində düz 20 saat qalıb. Bununla da sosial şəbəkənin qəhrəmanı olmağı başarıb. Amma hökumət maşının üzərində cərimələrin çox olduğunu əsas gətirərək, onun evakuatorla aparılmasına, sürücünün də qeyri-adekvat davranışlara görə tibbi baxışdan keçirilməsinə qərar verib. Maşını evakuatorun kuzasına yerləşdirəndə artıq sürücü də özünü onun içinə atmağı başarıb. Qanuna görə, evakuator içində sürücüsü olan maşını evakuasiya etmək hüququna malik deyil.



## Bu müqəvva hamını şoka salır

Türkiyənin Aydın şəhərində yaşayan 21 yaşlı Abdullah Akdam köhnə geyimlərindən istifadə edərək müqəvva hazırlayıb. Akdam müqəvva adamı balkon divarına oturdaraq yoldan keçənlərin ürəyini ağzına gətirib. 21 yaşlı gənc deyib ki, bu ideya onun ağlına yazar Onur Akbudağın "Çim Adam" adlı hekayəsindən sonra gəlib: "Köhnəldikləri üçün geyinmədiyim şalvar, ayaqqabı və kəmərimi zibilliyə atmağa ürəyim gəlmədi. Onları istifadə edə biləcəyim bir icad etmək istədim və müqəvva hazırladım. Bel hissəsindən yuxarısı olmayan və sanki balkonda oturmuş adası daşıyan müqəvvam görənləri ilk anda çaşdırır. Görənlər onun şəklini çəkir. Növbəti müqəvva qız fiquru olacaq. Köhnə əşyalarımızı zibilliyə atmaq yerinə onları geri qazana bilərik".

# Kolanı tərgitdi, 60 kilo arıqladı



İngiltərənin Birmingham şəhərində yaşayan Lisa McKay (24) yaxın vaxtlara qədər hər gün tam 20 butulka Kola içirmiş. Gecə 4-də yuxusundan oyanaraq Kola içməyə başlayan McKayın bu asılılığı ucbatından 120 kiloya qədər kökəlib. Çəkisi üzündən təyyarədə iki nəfərlik oturacaq bileti almaq məcburiyyətində qalan, yeriməyə çətinlik çəkməyə başlayan gənc qadın mədəsinə qandal taxdırıb. Kilolarından xilas ola bilmək üçün əməliyyat olduğunu söyləyən McKay deyib ki, əməliyyatdan sonra evə kola alınmasını qadağan edib. Gənc qadın kola içdiyi dövrlərdə daha çox acdığını, artıq belə bir problemi də qalmadığını dedi.

# Batareya ilə işləyən çətir

Çinli bir alim insanların öyrəşdiklərinin əksinə olan bir çətir hazırlayıb. Bildiklərimizdən çox fərqli bir görüntüyə sahib olan bu çətir ventilyator kimi insanın başının üstündə bir hava axını yaradır və bunun sayəsində islanmağa mane olur. "Kickstarter.com" saytından toplanan yardımlarla hazırlanan "havalı çətir" üçün indidən sifarişlər verilir. Qiyməti 118 dollar olan bu çətinin 3 fərqli tipi var. "Air umbrella" adı verilən bu çətir leysan yağış olmadığı zaman iki nəfəri, xəfif yağış zamanı isə daha çox adamı islanmaqdan xilas edir. 24 dekabra qədər bu çətir üçün pullar yığılacaq. 10 min dollar hədəfi ilə yola çıxan çətir üçün indidən 25 min dollar yığılıb. Amma bu çətirin mənfi cəhətləri də var. Çünki onun batareyası cəmi 30 dəqiqəlikdir. Bundan başqa, qələbəlik bir küçədə bu çətirlə yeriyəndə yanınızdan keçən insanları islatma ehtimalınız da yüksəkdir. Səslə işləyən çətirin yaradıcısı Çuan Vanq deyir ki, bu səs yağış səsindən yüksək deyil. Çətir 2015-ci ilin dekabr ayında bazara çıxacaq.





## Köhnə maşınını 50 min dollara təzələdi

Amerikalı bir qadının 50 min dollara yaxın xərc çəkdiyi 1955-ci il model maşın bursalı bir ustanın əli ilə yenidən həyata qayıdıb. Usta deyib ki, maşın onların əlinə düşəndə ələ gələn vəziyyətdə olmayıb. Amma usta Ersöz da bu maşını hamının bəyənəcəyi vəziyyətə gətirmək üçün əlavə 50 min dollar xərc çəkib. Maşın amerikalı bir qadın üçün yenidən yığılıb: "Amerikalı bir xanımın xəyalında belə bir maşın var imiş. O da köhnə maşını bizə yollayıb, onu həyata qaytarmağı xahiş edib. Bu cür maşınların qiymətini biz müəyyənləşdirə bilmərik. Axtaran tapa bilməz, satmaq istəyən isə sata bilməz. Məsrəfi 50 min dollardan yuxarı oldu. Döşəmələrindən, iç dizaynına, rəngindən qapı qollatına qədər müştərimizin arzusuna görə özəl olaraq hazırlanıb. İl yarımdır bu maşınla məşğuluq. Ən qısa zamanda hazır edib Amerikaya yollayacağıq".




QOÇ - Oktyabrın ən maraqlı günlərindən birini yaşayacaqsınız. Uğurlu hadisələrlə rastlaşacağınız qaçılmazdır. Saat 16-18 arası riskli işlərə girişməyin. Əks təqdirdə uduzacaqsınız.

BUĞA - Bu gün planetiniz olan Venera aktivləşdiyindən sevindirici məqamlarla rastlaşacağınıza şübhə etməyin. Yeniləşmiş sevgi əlaqələri, təzə tanışlıqlar ovqatınızı xeyli yüksəldəcək.

ƏKİZLƏR - Ötən günlərin gərginliyi xeyli səngiyəcək. Bu səbəbdən də passiv fəaliyyət göstərməməli, əsas diqqətinizi ideal planların reallaşmasına yönəltməlisiniz. Ehtiyac sahiblərinə səxavət göstərin.

XƏRÇƏNG - O qədər də düşərli təqvim deyil. Hisslərinizi cilovlayın, kənar təsirlərə aludə olmayın. Sizə qarşı amansızlıq etmək istəyən hər kəsə sərt mövqe göstərin. Sevgidən ilham alın ki, mövcud gərginliyiniz ərisin.

ŞİR - Xoş təsadüflərlə zəngin bir gün yaşayacaqsınız. Bu isə ovqatınızı xeyli yüksəldəcək. Əgər hər addımda Tanrı qüdrətinə arxalansanız, gözəl məqamlarınız bol olacaq. Yalan vəd verməyin.

QIZ - Bu təqvimi bütünlüklə istirahətə həsr edin. Fiziki işlərdən nə qədər uzaq olsanız, bir o qədər rahatlıq tapacaqsınız. Yaxşı olar ki, pul problemləri barədə düşünəsiniz. İş müzakirələri də səmərəlidir.

TƏRƏZİ - Hiss olunur ki, darıxdırıcı günlər yaşayırsınız. Bu xoşagəlməzliyi dəf etmək istəyirsinizsə, müxtəlif ünvanlara baş çəkin. Hətta büdcənizdən asılı olaraq səfərə də çıxa bilərsiniz.

ƏQRƏB - Bu gün üçün pul əldə etmək müşkül məsələdir. Odur ki, bu barədə baş sındırmayın. Əsas diqqətinizi münasibətlər zəmininə yönəldin. Bəzi mübahisələriniz gözlənilir. Hər sözə ciddi yanaşmayın.

OXATAN - İxtiyarınıza verilən bu ərəfə ilk növbədə gələcək planların reallaşdırılması üçün səmərəlidir. İşgüzar sövdələşmələr, müzakirələr əhəmiyyətlidir. Saat 18-dən sonra ünsiyyətdə ehtiyatlı olun.

OĞLAQ - Astroloji göstəricilər bu gün üçün nəzərdə tutduğunuz perspektivlərin həyata keçəcəyini bəyan edir. Əgər səhhətinizi qorumağı bacarsanız, bu tövsiyələrə əməl edə bilərsiniz. Geyiminizə fikir verin.

SUTÖKƏN - Belə bir günü evdən kənarda keçirməyiniz məqsədəuyğun deyil. Yalnız bu halda xoşagəlməzliklər olmayacaq. Bütün planlarınızı başqa vaxta salın və hər mənada səbrli olun.

BALIQLAR - Ümumi çalarlarına görə, qənaətbəxş ərəfədir. Darıxmağınıza səbəb ola bilən hər hansı hadisə baş verməyəcək. Ulduzlar maddi gəlir üçün yaxşı imkan qazanacağınızı da bildirir.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Akula 13 yaşlı qıza hücum etdi




Avstraliyanın Yeni Uelsdə ştatı 13 yaşlı qız serfinqlə məşğul olarkən akulanın hücumuna məruz qalıb. Kirra Bell Olsson adlı qız saat 06.30 radələrində çimərliyə gedib. Məktəbli suda olanda hiss edib ki, kimsə onun sol ayağından yapışıb. O, düşünüb ki, bunu edən dostlarından biridir və yardım çağırmağa başlayıb. Bundan sonra akula onu buraxıb. Bunu qızın atası danışıb. Onun sözlərinə görə, geyindiyi hidrokostyum qızının ciddi travma görməsinin qarşısını alıb. Qızın sinif yoldaşları onun sudan çıxmasına yardım edəndən sonra xəstəxanaya çatdırılıb. Lenta.ru xəbər verir ki, hücum edən akulanın uzunluğu 1 metrə yaxın olub.

Səhifəni hazırladı: NƏZRİN

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 5.600